RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 174 (10194) 24 sentyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Sülhün və təhlükəsizliyin ünvanı



Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı ilə beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumu öz işinə başlayıb.

İlkin müzakirələr zamanı vurğulanıb ki, Bakıda keçirilən beynəlxalq forum xüsusi xidmət və təhlükəsizlik orqanları üçün vacib dialoq platformasıdır. 600-ə yaxın yüksəksəviyyəli nümayəndənin iştirakı qlobal təhlükələrə qarşı forum çərçivəsində 2023-cü ildən başlanan davamlı dialoqun coğrafi miqyasının genişləndiyini göstərir, milli təcrübələrin müqayisəsi, peşəkar əlaqələrin inkişafı və birgə həllərin axtarışı üçün geniş imkanlar yaradır. Tərəfdaş qurumların rəhbərlərinin bu tədbirdə geniş iştirakı Bakı platformasına olan etimadı göstərir və müzakirələrin praktiki əməkdaşlığa çevrilməsi imkanlarını artırır.

Diqqətə çatdırılıb ki, kiberimkanlar, süni intellekt və kosmik sistemlər uğrunda qlobal rəqabət güclənir. Silahlanma xərcləri və münaqişələr regional proseslərə, enerji və ərzaq təhlükəsizliyinə ciddi təsir edərək, terrorçuluq üçün əlverişli zəmin yaradır. Dünyanın istənilən regionundakı böhranlar qısa müddətdə qlobal təhlükəyə çevrilə bilər. Bakı Təhlükəsizlik Forumunda risklərin və təhdidlərin qarşılıqlı əlaqədə qiymətləndirilməsi isə ölkələrin daha hazırlıqlı olmasına xidmət edir.

7

## "Azərbaycan-Səudiyyə Ərəbistanı dövlətlərarası əlaqələrinin dinamik inkişafı bizi sevindirir"

### İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

23 Sentyabr - Krallıq Elan Edilməsi Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər, ənənəvi dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Səudiyyə Ərəbistanı dövlətlərarası əlaqələrinin və əməkdaşlığının yüksələn xətlə və dinamik inkişafı bizi sevindirir.

Biz qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Bu gün bir sıra sahələrdə əməkdaşlığımız ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edərək onları bir-birinə daha da yaxınlaşdırır. Əməkdaşlığımızın prioritet sahələrindən olan enerji, o cümlədən alternativ və bərpaolunan enerji sahəsində ölkənizin aparıcı şirkəti olan "ACWA Power" ilə tərəfdaşlığımız ildən-ilə genişlənir və yeni məzmun kəsb edir.

Beynəlxalq təşkilatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığımızı və qarşılıqlı dəstəyimizi ayrıca vurğulamaq istərdim. Əlbəttə ki, ali səviyyədə fəal siyasi dialoqun mövcudluğu bütün bunlar üçün əlverişli zəmin formalaşdırmışdır.

Əminəm ki, xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətləri və qarşılıqlı fəaliyyətimiz ölkələrimizin rifahı naminə birgə səylərimizlə gələcək illərdə daha da dərinləşəcək, tərəfdaşlığımız yeni nailiyyətlərlə zənginləşəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2026-cı il*

## Tiina Nirk Estoniyanın Azərbaycana ilk səfiri təyin olunmasından şərəf duyur

### Prezident İlham Əliyev Estoniyanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tiina Nirki qəbul edib.

2



## İsveç Krallığının yeni səfiri ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi üçün səylə çalışacaq

### Prezident İlham Əliyev İsveçin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də İsveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Morsinqi qəbul edib.

2



## 6 il əvvəlki xəbərdarlıq və "dəmir yumruğ"un təntənəsi



Azərbaycanın dəfələrlə Ermənistanı işğal etdiyi əraziləri azad etməyə çağırmasına baxmayaraq, qarşı tərəf buna məhəl qoymur, yeni torpaqlar işğal etmək niyyətinə düşür, ardıcıl hərbi təxribatlar yolunu seçirdi. Həmçinin danışıqlar prosesinin formatını və məzmununu məhv edərək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməkdən boyun qaçırır, sülh tərəfdarı olmadığını açıq şəkildə ortaya qoyurdu. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" bəyanatı işğalçılıq siyasətinin ən bariz etirafı oldu. Paralel olaraq, İrəvan qondarma rejimi "dövlət" adlandırır, şəhər və kəndlərimizin adlarını dəyişdirir, ölkəmizi yeni müharibə ilə hədələyirdi. Həmin dövrdə müdafiə naziri olmuş D.Tonoyan açıq şəkildə bəyan edirdi ki, Ermənistan yeni əraziləri zəbt etmək uğrunda müharibəyə hazırlaşır.

İrəvanın təxribatçı addımları tezliklə hərbi müstəviyə keçdi. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, işğal faktını ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək idi. Lakin Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək bu planı boşa çıxardı.

7

## Azərbaycanın "qızıl" planı

### **Prezident İlham ƏLİYEV:** "Yeni qızıl, mis, molibden yataqları aşkarlanarsa, zənginləşdirmə və emal zənciri yaradılmalıdır"



Prezident İlham Əliyev müşavirədə proqramın maliyyə təminatının dövlət tərəfindən artıq müəyyənləşdirildiyini vurğulayaraq, sahəyə yerli və xarici investorların cəlb olunması üçün ortaya açıq mövqe qoyub: "Bu proqramın maliyyə təminatı bəllidir, bütün müvafiq qurumlarla razılaşdırılıb və biz bu proqramı istənilən halda icra edəcəyik. Amma eyni zamanda əgər yerli və xarici investorlar maraq göstərsələr, müəyyən faiz səviyyəsində onların iştirakı da mümkündür. Olsa yaxşıdır, olmasa da yaxşıdır. Onsuz da biz bunu edəcəyik. Amma mən hesab edirəm ki, sahə, düzdür, maliyyətutumludur, ancaq gəlirlidir. Xüsusilə bu gün qiymətli metalların dünya bazarlarındakı qiyməti kifayət qədər yüksəkdir və yəqin ki, aşağı-yuxarı bu səviyyədə belə də qalacaq. Ona görə yerli və xarici investorlara da mesajımız budur ki, qapılar açıqdır". Dövlət başçısının bu fikirlərində əsas mesaj proqramın icrasını investorların marağından asılı vəziyyətə gətirməməkdir.

10

## Milli Prioritetlərə söykənən strategiya uğurla gerçəkləşir

### Bu, 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasıdır



Məlum olduğu kimi, sənədin icra vəziyyəti İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən rəqəmsal portallar vasitəsilə izlənilir.

Bu yaxınlarda "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyat üzrə hədəflərə nail olunması məqsədilə yaradılmış "İqtisadi artım" üzrə işçi qrupun növbəti iclası keçirilib. İclasda strategiya üzrə nəzərdə tutulan tədbirlərin icra vəziyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib. İşçi qrupun sədri, iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli strategiya üzrə həyata keçirilən tədbirlərin ölkəmizdə dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi inkişafın təmin olunmasında əhəmiyyətini vurğulayıb. İşçi qrupunun fəaliyyət istiqamətləri üzrə tədbirlərin icra vəziyyəti, həmçinin İqtisadiyyat Nazirliyinin əsas icraçı olduğu tədbirlər çərçivəsində görülmüş işlər barədə məlumat verib.

10

# Tiina Nirk Estoniyanın Azərbaycana ilk səfiri təyin olunmasından şərəf duyur

## Prezident İlham Əliyev Estoniyanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında əməkdaşlığın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların önəminə toxundu.

Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu xüsusda Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə builki səfərlərini qeyd etdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Estoniyanın Azərbaycana ilk səfiri təyin olunmasından şərəf hissi duyduğunu deyən Tiina Nirk ölkələrimiz, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafı üçün səylə çalışacağını vurğuladı.

Azərbaycanın Orta dəhlizdə mühüm mövqedə yerləşdiyini qeyd edən səfir bir çox sahədə, o cümlədən siyasi dialoq, biznes, informasiya texnologiyaları, logistika və digər istiqamətlər üzrə tərəfdaşlığı genişləndirmək üçün yaxşı potensialın olduğunu dedi.

Tiina Nirk təhsil sahəsində də əməkdaşlıq baxımından geniş imkanlara toxunaraq, bu xüsusda 200-ə yaxın azərbaycanlı tələbənin Estoniyada təhsil aldığını qeyd etdi.

Səfir həmçinin Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımları yüksək qiymətləndirdi.

Görüşdə Estoniyanın Azərbaycanda səfirliyinin açılmasının ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsinə mühüm töhfə verəcəyi vurğulandı, iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# İsveç Krallığının yeni səfiri ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi üçün səylə çalışacaq

## Prezident İlham Əliyev İsveçin Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Növbəti illərdə də ikitərəfli münasibətlərimizin uğurlu inkişafının davam edəcəyinə və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu deyən dövlətimizin başçısı bu xüsusda müxtəlif səviyyələrdə qarşılıqlı səfər və görüşlərin önəminə toxundu, investisiya, ticarət, biznes sahələrində tərəfdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən səfir ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi üçün səylə çalışacağını vurğuladı.

Səfir Prezident İlham Əliyevə Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Həmçinin iki ölkə arasında etimadın qurulması istiqamətində atılan addımları alqışladığını bildirdi.

İsveçdə çoxlu sayda azərbaycanlı tələbənin təhsil aldığını və onların təhsil səviyyəsinin yüksək qiymətləndirildiyini deyən səfir tələbələrin gələcəkdə fəaliyyətləri dövründə Azərbaycan-İsveç əlaqələrinin inkişafına töhfə verəcəklərinə ümidvarlığını ifadə etdi.

Luis Morsinq Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərdəki müsbət dinamikaya da toxundu və bu xüsusda ikitərəfli saziş üzrə danışıqların bərpa olunduğunu vurğuladı.

Səfir Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımları yüksək dəyərləndirdi.

Azərbaycanla Ermənistan arasında sülh prosesinə toxunan Prezident İlham Əliyev sülh gündəliyinin təşəbbüskarının və müəllifinin məhz Azərbaycan olduğunu dedi, iki ölkə arasında əldə edilən sülhü dünyada presedenti olmayan bir hal kimi qiymətləndirdi.

Azərbaycan-Avropa İttifaqı münasibətlərinin hazırda çox yaxşı olduğunu bildirən dövlətimizin başçısı bu il Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə səfərlərini, həmçinin onlarla beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşləri xatırladı.

Görüşdə Azərbaycanla İsveç arasında münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

1.1. Aydəmirov Cəsarət Səfərqulu oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2019-cu il 17 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.2. Bağırov Elşən Malik oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 21 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.3. Balabəyov Fikrət Əlibəy oğlu, 1970-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 7 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.4. Bayramov Hikmət Abduləli oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 9 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.5. Beybudlu Xəyal Nemət oğlu, 2003-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 24 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.6. Demir Mehmet, 1990-cı ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin 2025-ci il 19 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.7. Əliyev Maarif Eldar oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 6 iyul tarixli hökmü ilə məhkum edilmişdir;

1.8. Kərimov Sahil Aqil oğlu, 2004-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 18 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.9. Qasımov Rəfail Güloğlan oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 13 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.10. Mikhayılov Kirill Vladimiroviç, 1980-ci ildə anadan olmuş, Rusiya Federasiyasının və İsrail Dövlətinin vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2024-cü il 12 dekabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.11. Muradov Qurban Sultan oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2025-ci il 27 fevral tarixli hökmü ilə məhkum edilmişdir;

1.12. Musayev Cəlal İlham oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2023-cü il 31 may tarixli hökmü ilə məhkum edilmişdir;

1.13. Özdemir Salih, 1981-ci ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin 2024-cü il 12 iyun tarixli hökmü ilə məhkum edilmişdir;

1.14. Rəhimov İqbal Əliabas oğlu, 1969-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 26 aprel tarixli hökmü ilə məhkum edilmişdir;

1.15. Rüstəmov Elman Yaşılxan oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 26 avqust tarixli hökmü ilə məhkum edilmişdir;

1.16. Ryan Martin Riçard, 1988-ci ildə anadan olmuş, Fransa Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2026-cı il 16 mart tarixli hökmü ilə məhkum edilmişdir;

1.17. Sabir Sonia, 1995-ci ildə anadan olmuş, Pakistan İslam Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 14 noyabr tarixli hökmü ilə məhkum edilmişdir;

1.18. Süleymanov Sürət Nemət oğlu, 2003-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 19 yanvar tarixli hökmü ilə məhkum edilmişdir;

1.19. Süleymanzadə İlqar Vüqar oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Hərbi Məhkəməsinin 2022-ci il 19 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

2. İmişli Rayon Məhkəməsinin 2026-cı il 10 mart tarixli hökmü ilə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı Dadaşov Əziz İman oğlu cəzasının çəkilməmiş hissəsindən azad edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2026-cı il*

# Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Hakimi Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktuma

Əlahəzrət!

Qardaşınız - görkəmli dövlət xadimi Şeyx Əhməd bin Rəşid Al Məktumun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu əvəzsiz itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2026-cı il*

# "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 1 aprel tarixli 986 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 11, maddə 1196; 2025, № 8, maddə 749; 2026, № 5 (I kitab), maddə 408) ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı"na aşağıdakı məzmunda 8.7-ci bənd əlavə edilsin:

"8.7. "Hərbiləşdirilmiş Mühafizə İdarəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2026-cı il*

# "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 180 (Cild I); 2025, № 12 (II kitab), maddə 1166) birinci hissəsində "Mehman İsmayılov - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturunun maliyyəsi" sözləri "Gündüz Əliyev - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının Maliyyə xidmətləri və dövlət müəssisələri üzrə siyasət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Almaniyanın Azərbaycandakı səfiri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 23-də Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı yeni səfiri Dirk Lölke ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə qeyd olunub ki, cari ilin iyul ayında Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri ikitərəfli münasibətləri yeni səviyyəyə yüksəldib. Səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə"nin imzalanması, "Azərbaycan-Almaniya Biznes Şurası"nın yaradılması ikitərəfli əlaqələrin sistemli inkişafı üçün yeni institusional platforma formalaşdırır.

Görüşdə ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, həmçinin təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafının əhəmiyyəti, qarşılıqlı münasibətlərin genişləndirilməsində parlamentlərin rolu, qarşılıqlı səfərlərin və dialoqun önəmi vurğulanıb.

Söhbət zamanı parlamentlərarası dostluq qruplarının fəaliyyəti, onların parlamentlərarası əlaqələrin inkişafında rolu qeyd olunub. Bildirilib ki, cari il ərzində parlament dostluq qrupları tərəfindən bir sıra qarşılıqlı səfərlər həyata keçirilib, səmərəli müzakirələr aparılıb. Deputatlarımız beynəlxalq parlament təşkilatları çərçivəsində də uğurlu əməkdaşlıq edirlər və iki ölkə arasında əlaqələrin inkişafı fonunda bunu daha da irəliyə aparmaq üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallığın ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 23-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dunkan Norman ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Sahibə Qafarova Azərbaycan və Birləşmiş Krallıq arasında dostluq və tərəfdaşlıq münasibətlərindən söz açıb. Ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, görüşlərin ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm əhəmiyyəti vurğulanaraq, bu dinamikanın davam etdirilməsinin vacibliyi qeyd olunub.

İki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolundan bəhs edən spiker Sahibə Qafarova özünün Birləşmiş Krallığa səfərlərini, habelə Birləşmiş Krallığın ölkəmizə səfər etmiş yüksəksəviyyəli rəsmiləri ilə keçirdiyi görüşləri və aparılan danışıqları məmnunluqla xatırlayıb. Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyəti vurğulanaraq, əlaqələrin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin və müntəzəm təmasların mühüm rol oynadığı diqqətə çatdırılıb. O cümlədən qeyd olunub ki, qanunvericilik orqanlarımız Parlamentlərarası İttifaq, ATƏT PA və NATO PA kimi beynəlxalq təşkilatlarda əməkdaşlıq edirlər.

Ölkələrimiz arasında mövcud olan sıx əməkdaşlıq münasibətlərindən bəhs edən səfir Dunkan Norman iki ölkə arasında münasibətlərin daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğunu bildirib. Təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın inkişafı üçün hər cür imkanların olduğu qeyd edilərək, qarşılıqlı təmasların və birgə təşəbbüslərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Söhbət zamanı səfir ölkəmizdəki diplomatik fəaliyyəti dövründə digər sahələrlə yanaşı, qanunvericilik orqanları arasında da əlaqələrin dinamik inkişaf etdirilməsi üçün səylər göstərəcəyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Bakıda Çin Xalq Respublikasının yaradılmasının 77-ci ildönümünə həsr edilmiş rəsmi qəbul olub







**Sentyabrın 23-də "Gülüstan" sarayında Çin Xalq Respublikasının 77-ci ildönümünə həsr olunmuş rəsmi qəbul keçirilib.**

AZƏRTAC xəbər verir ki, öncə tədbirdə hər iki ölkənin Dövlət Himni səsləndirilib.

Çinin Azərbaycandakı səfiri Lu Mey qonaqları salamlayaraq bildirib ki, bu il Çin Xalq Respublikasının yaradılmasının 77-ci ildönümü, eləcə də Çin Kommunist Partiyasının yaradılmasının 105-ci ildönümü qeyd olunur.

Diplomat deyib ki, Çin dünya iqtisadiyyatının artımına ardıcıl olaraq mühüm töhfələr verir. Çin iqtisadiyyatı qlobal iqtisadiyyatın əsas mühərriki olaraq qalır və son illərdə qlobal iqtisadi artımın təxminən 30 faizini təmin edib: "Cari ilin birinci yarısında Çinin ÜDM-i 4,7 faiz artaraq bütün il üçün nəzərdə tutulmuş hədəflərə uyğun göstəricilər nümayiş etdirib. Çin dünyanın 150-dən çox ölkəsi və regionu üçün əsas ticarət tərəfdaşı qismində çıxış edir. Gələcəyə nəzər salsaq, qeyd etmək lazımdır ki, Çin iqtisadiyyatı böyük daxili bazara, güclü istehsal potensialına, inkişaf etmiş infrastruktura, etibarlı insan resurslarına, eləcə də bütöv sənaye və təchizat zənciri sisteminə əsaslanan yüksək dayanıqlılıq və möhkəm təməl nümayiş etdirir. Bütün bunlar dünya iqtisadiyyatının artımına sabitlik və etibarlılıq gətirməkdə davam edəcək. Çin elmi-texniki innovasiyalar sahəsində dünya lideridir. Çinin elmi-texniki sahədə davamlı irəliləyişləri sürətlə sənaye istehsalına tətbiq olunur və praktiki həllər tapır, bununla da qlobal iqtisadiyyat üçün çox zəruri olan yeni hərəkətverici qüvvəni təmin edir. Ən əsası odur ki, Çinin texnoloji innovasiyaları inklüziv və açıq xarakter daşıyır, biz onları beynəlxalq birliklə bölüşməyə səmimi-qəlbdən hazırıq", - deyə səfir diqqətə çatdırıb.

O əlavə edib ki, Çinin "yaşıl keçid"i ölkə modernləşməsinin digər mühüm səciyyəvi xüsusiyyətinə çevrilib: "Quraşdırılmış güc baxımından enerji balansımızda bərpaolunan enerji mənbələrinin payı artıq 60 faizi ötür. Çin qlobal "yaşıl keçid"in təşviq edilməsində mühüm rol oynayır. Ölkəmiz dünyanın ən böyük "yaşıl" energetika sənayesi zəncirini yaradıb və bir çox ölkəyə əlçatan və yüksəkkeyfiyyətli ekoloji təmiz enerji həllərinə çıxış imkanı təmin edib. Bu xüsusda Çin Azərbaycanla Günəş və külək enerjisi sahəsində bir sıra layihələr üzrə əməkdaşlıq həyata keçirir".

Səfir deyib ki, süni intellektin idarə edilməsi sahəsində Çin Süni İntellektin İdarə Edilməsi üzrə Qlobal Təşəbbüsün irəli sürülməsində liderliyi öz üzərinə götürüb. Cari ilin iyul ayında isə Çinin təşəbbüsü ilə Şanxay şəhərində Süni İntellekt Sahəsində Əməkdaşlıq üzrə Ümumdünya Təşkilatı yaradılıb.

Lu Mey bildirib ki, Azərbaycan və Xəzər dənizindən keçən Çin-Avropa dəmir yolu ekspresi ilə daşımaların həcminin il ərzində iki dəfə artacağı gözlənilir.

Səfir Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlığının böyük potensiala malik olduğunu və iki dövlət başçısının əldə etdiyi razılaşmaların həyata keçirilməsi istiqamətində Azərbaycanla əməkdaşlığı davam etdirməyə hazır olduqlarını vurğulayıb.

Enerji sahəsində əməkdaşlığa toxunan səfir Çinin və Azərbaycanın Günəş və külək enerjisi üzrə bir sıra layihələr həyata keçirdiyini qeyd edib. Həmçinin Çinin və Azərbaycanın BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və CICA çərçivəsində sıx qarşılıqlı fəaliyyət göstərdiyini bildirib.

Tədbirdə çıxış edən Baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, Azərbaycan-Çin münasibətləri siyasi, iqtisadi, nəqliyyat, enerji, turizm və humanitar sahələrdə dinamik inkişaf edir.

Şahin Mustafayev vurğulayıb ki, 2025-ci ilin aprelində Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyanat imzalanıb. Sənəd Azərbaycan-Çin münasibətlərində yeni mərhələnin əsasını qoyub.

Baş nazirin müavini bildirib ki, 2026-cı ilin ilk 7 ayında iki ölkə arasında ticarət dövriyyəsi 4,5 faiz artaraq 2,6 milyard ABŞ dollarına çatıb.

"1995-ci ildən Çindən Azərbaycana 976 milyon ABŞ dolları birbaşa investisiya yatırılıb. Azərbaycandan Çinə yatırılan sərmayələrin ümumi həcmi isə 1,9 milyard ABŞ dolları təşkil edib. Hazırda Azərbaycanın müxtəlif iqtisadi sektorlarında 455 Çin şirkəti fəaliyyət göstərir və Çin şirkətləri ilə 50-yə yaxın birgə layihə həyata keçirilir", - deyə Şahin Mustafayev əlavə edib.

Onun sözlərinə görə, nəqliyyat-tranzit sahəsində də artım qeydə alınıb. Cari ilin ilk 7 ayında tranzit daşımalarının həcmi 8 faiz artaraq 272,6 min ton təşkil edib.

Turizm əlaqələrinin də genişləndiyini deyən Şahin Mustafayev qarşılıqlı vizasız rejimin bu sahəyə əhəmiyyətli təkan verdiyini vurğulayıb. Ötən il Çindən Azərbaycana turist axını 42 faiz, Azərbaycandan Çinə turist axını isə təxminən 85 faiz artıb.

Şahin Mustafayev bildirib ki, ölkələrimiz beynəlxalq və çoxtərəfli platformalarda da sıx əməkdaşlıq edir.

Tədbirdə Azərbaycan hökumətinin yüksəkvəzifəli rəsmiləri, diplomatik korpusun nümayəndələri, ictimaiyyətin tanınmış simaları, Çin icmasının üzvləri iştirak ediblər.

Tədbir bədii hissə ilə davam edib. Tədbir iştirakçıları burada təqdim edilən sərgidə Çin mədəniyyətinin nümunələri ilə tanış olublar.

# Bakıda Səudiyyə Ərəbistanı Krallığının Milli Günü qeyd olunub





**Sentyabrın 23-də Bakıda Səudiyyə Ərəbistanı Krallığının Milli Günü münasibətilə rəsmi qəbul keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən səfir İssam bin Saleh əl-Cuteyl bildirib ki, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında münasibətlər 1991-ci ildən başlayır. İki ölkə arasında yüksəksəviyyəli qarşılıqlı səfərlər sayəsində hazırda müxtəlif sahələrdə əhəmiyyətli inkişaf müşahidə olunur.

Səfir qeyd edib ki, hazırda Hökumətlərarası Birgə Komissiya və Səudiyyə Ərəbistanı-Azərbaycan Birgə İşgüzar Şurası vasitəsilə ticarət mübadiləsinin həcminin artırılması və investisiyaların genişləndirilməsi istiqamətində iş aparılır. O, siyasi sahədə də iki ölkənin və xalqların ortaq maraqlarına xidmət edən koordinasiyanın mövcud olduğunu vurğulayıb.

İssam bin Saleh əl-Cuteyl qarşıdakı dövrdə Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında investisiya və ticarət dövriyyəsinin həcmini qısa müddətdə iki dəfə artırmağa imkan verəcək bir çox ortaq imkanların olduğunu deyib.

Tədbirdə çıxış edən Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadiyyat, ticarət, sənaye, investisiya, alternativ və bərpaolunan enerji, yaşıl keçid, turizm və digər sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində qarşılıqlı səylərin davam etdirilməsinə sadiqliyi ifadə edib.

Baş nazirin müavini bildirib ki, Azərbaycan və Səudiyyə Ərəbistanı hökumətləri arasında yaradılmış Hökumətlərarası Birgə Komissiya müxtəlif sahələrdə əlaqələrin dərinləşdirilməsində mühüm rol oynayır. Onun sözlərinə görə, komissiya dövlət başçılarının əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı verdikləri tapşırıqların həyata keçirilməsini təmin edən səmərəli mexanizmlərdən biridir.

Samir Şərifov hazırda komissiyanın növbəti iclasına hazırlıq mərhələsində olduqlarını deyib. Bildirib ki, bu ilin sonunadək Azərbaycan tərəfinin evsahibliyi ilə keçirilməsi nəzərdə tutulan 9-cu iclas əməkdaşlığın keyfiyyətcə yeni məzmunla zənginləşdirilməsinə töhfə verəcək.

Baş nazirin müavini Səudiyyə Ərəbistanı Krallığının Milli Günü münasibətilə qardaş Səudiyyə xalqına davamlı sülh, təhlükəsizlik, tərəqqi və firavanlıq arzulayıb, ölkələrimiz arasında mövcud dostluq və qarşılıqlı faydalı əməkdaşlığın gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Tədbir bədii hissə ilə davam edib.

# İctimai birliklər və dini qurumlar komitəsinin iclası keçirilib



**Sentyabrın 23-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Fazil Mustafa qarşıdan gələn sessiyada komitə üzvlərinə fəaliyyətlərində uğurlar arzulayıb.

Komitə sədri əvvəlcə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə İctimai birliklər və dini qurumlar komitəsində görülən işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, sessiyalar ərzində komitənin gündəliyinə 3 məsələ çıxarılıb. Bu dövrdə komitə üzvləri ölkəmizdə və xaricdə keçirilən müxtəlif tədbirlərə qatılıblar, ölkənin ictimai-siyasi həyatında aktiv iştirak ediblər.

Diqqətə çatdırılıb ki, yaz və növbədənkənar sessiyalar dövründə komitəyə 117 ərizə, məktub və digər müraciətlər daxil olub, onlarla bağlı qanunvericiliyə uyğun tədbirlər görülüb. Komitə sədri deyib ki, ötən sessiyalar müddətində komitə sədri və üzvləri tərəfindən seçicilərlə mütəmadi görüşlər keçirilib, onların müraciətləri dinlənilib, qaldırılan məsələlərlə bağlı müvafiq işlər aparılıb.

Sonra komitə sədri Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirilib ki, növbəti sessiya dövründə komitənin fəaliyyət sahəsinə aid olan qanun layihələri müzakirə ediləcək, tarixi və dini abidələr, ictimai birliklər və dini qurumlarla bağlı məsələlər üzrə ictimai müzakirələr təşkil olunacaq.

Məsələlərin müzakirəsində komitə sədrinin müavini Sahib Alıyev, komitə üzvləri Ceyhun Məmmədov, Azər Allahverənov, Günay Ağamalı, Tənzilə Rüstəmxanlı və Elşad Musayev çıxış edərək qeyd və təkliflərini bildiriblər.

İclasın sonunda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

*"Azərbaycan"*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında dağ-mədən(metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

## 1. Qısa xülasə

"Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) ölkədə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin (bundan sonra - müvafiq sahə) dayanıqlı inkişafının təmin edilməsi, yüksək əlavə dəyər yaradan istehsalın genişləndirilməsi və qeyri-neft sənayesinin rəqabət qabiliyyətinin artırılması məqsədilə hazırlanmışdır.

Dövlət Proqramı müvafiq sahənin mineral-xammal bazasının genişləndirilməsi, müasir texnologiyaların tətbiqi ilə hasilat və emal gücünün artırılması, ekoloji dayanıqlılığın təmin edilməsi, insan kapitalının inkişafı və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu çərçivədə xammaldan başlayaraq emal və yüksək əlavə dəyər yaradan son məhsuladək dəyər zəncirinin formalaşdırılması sənayeləşmənin dərinləşməsinə və ixrac potensialının artırılmasına xidmət edəcəkdir. Eyni zamanda iri investisiya layihələrinin reallaşdırılması üçün özəl sektorun, o cümlədən xarici investorların cəlbi və dövlət-özəl əməkdaşlığı mexanizmlərinin genişləndirilməsi də təmin ediləcəkdir.

Dövlət Proqramı hazırlanarkən qlobal enerji keçidi, rəqəmsallaşma və yüksək texnologiyaların inkişafı fonunda strateji əhəmiyyətli minerallara tələbatın artması, beynəlxalq təchizat zəncirlərində baş verən transformasiya prosesləri, ölkənin mövcud mineral-xammal potensialı, əlverişli geostrateji mövqeyi, inkişaf etmiş enerji və nəqliyyat infrastrukturu, sənaye potensialı, eləcə də Orta dəhlizin yaratdığı iqtisadi imkanlar nəzərə alınmışdır. Bu amillər strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla), qara, əlvan və qiymətli metalların hasilatı və emalının genişləndirilməsi, investisiyaların cəlb edilməsi, regional istehsal və logistika əlaqələrinin inkişaf etdirilməsi və Azərbaycan Respublikasının qlobal əlavə dəyər zəncirlərində iştirakının gücləndirilməsi üçün əlavə imkanlar yaradır.

Dövlət Proqramının icrası nəticəsində müvafiq sahədə istehsal və emal potensialının yüksəldilməsi, rəqabətqabiliyyətli və yüksək əlavə dəyər yaradan məhsulların istehsalının genişləndirilməsi, investisiyaların cəlbinin və qeyri-neft ixracının artırılması, yeni iş yerlərinin yaradılması, habelə regionların sosial-iqtisadi inkişafına töhfənin gücləndirilməsi gözlənilir.

## 2. Qlobal trendlər

Müasir qlobal iqtisadiyyat "yaşıl enerji" keçidi, rəqəmsallaşma, yüksək texnologiyalı sənayenin sürətli inkişafı, təchizat zəncirlərinin yenidən formalaşması və iqtisadi təhlükəsizlik amillərinin güclənməsi ilə xarakterizə olunur. Bu proseslər qara, əlvan və qiymətli metalların, habelə strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) qlobal iqtisadiyyat və sənaye üçün vacibliyini daha da artırmışdır. Xüsusilə, bərpaolunan enerji mənbələri, elektrikli nəqliyyat, enerji saxlama sistemləri, yarımkeçiricilər, süni intellekt infrastrukturu və müdafiə sənayesinin inkişafı sözügedən resurslara qlobal tələbin uzunmüddətli artmasını şərtləndirən əsas amillərdən biridir.

Belə olan şəraitdə dünya ölkələrinin sənaye siyasətində mineral ehtiyatların hasilatı ilə yanaşı, onların emalına və yüksək əlavə dəyər yaradan məhsulların istehsalına da diqqət artmışdır. Əlavə dəyər zəncirinin ölkə daxilində formalaşması, istehsalın rəqəmsallaşması, resurs və enerji səmərəliliyinin artırılması, "dairəvi" iqtisadiyyat prinsipinin tətbiqi və aşağı karbon emissiyalı texnologiyalara keçid metallurgiya sənayesinin əsas inkişaf istiqamətlərinə çevrilmişdir.

Beynəlxalq təcrübə göstərir ki, dağ-mədən sektorunun rəqabət qabiliyyəti və iqtisadi səmərəliliyi yalnız mineral ehtiyatların hasilatı ilə deyil, onların dərin emalı, yüksək əlavə dəyər yaradan məhsulların istehsalı və qlobal dəyər zəncirlərinə inteqrasiyası ilə müəyyən olunur. Bu baxımdan Çin Xalq Respublikası strateji əhəmiyyətli mineralların (o cümlədən nadir torpaq elementlərinin) emalı üzrə qlobal lider mövqe qazanmış, Avropa İttifaqı strateji xammalın hasilatını, emalı və təkrar emalını prioritet istiqamət kimi müəyyən etmiş, Kanada və Avstraliya strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) inkişafı üzrə milli strategiya qəbul etmiş, İndoneziya isə xam nikel filizinin ixracına məhdudiyyət tətbiq etməklə ölkədaxili metallurgiya və emal sənayesinin sürətli inkişafını hədəfləmişdir.

Eyni zamanda Finlandiya və İsveç aşağı karbonlu metallurgiya və innovativ polad istehsalı, Norveç bərpaolunan enerji əsasında "yaşıl alüminium" istehsalı, Çili və Peru mis sənayesinin inkişafı və beynəlxalq bazarlara inteqrasiyası, Qazaxıstan isə strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) geoloji kəşfiyyatı və emalı sənayesinin inkişafı istiqamətində mühüm təcrübə əldə etmişdir. Həmin təcrübələr göstərir ki, mineral resurslardan yüksək iqtisadi səmərə əldə olunması geoloji məlumatların keyfiyyəti, dərin emal zəncirinin inkişafı, innovasiya, rəqəmsallaşma və əlverişli investisiya mühitinin formalaşdırılması ilə birbaşa bağlıdır.

Bununla yanaşı, son illərdə müvafiq sahədə rəqəmsal transformasiya sürətlənmişdir. Süni intellekt, əşyaların interneti (IoT), uzaqdan monitorinq sistemləri, rəqəmsal əkiz (DigitalTwin), avtomatlaşdırılmış mədən idarəetməsi və böyük verilənlərə əsaslanan analitik həllər hasilatın səmərəliliyinin artırılması, əməliyyat xərclərinin azaldılması və istehsal təhlükəsizliyinin yüksəldilməsi baxımından əsas inkişaf istiqamətlərinə çevrilmişdir.

Əlavə olaraq, geosiyasi dəyişikliklər və beynəlxalq təchizat zəncirlərinin şaxələndirilməsi nəticəsində regional istehsal və emal mərkəzlərinin rolu artmışdır. Bu baxımdan Orta dəhlizin inkişafı Avropa ilə Asiya arasında nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi ilə yanaşı, regional sənaye kooperasiyasının və əlavə dəyər zəncirlərinin inkişafı üçün yeni imkanlar yaradır. Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin mineral-xammal potensialı və qlobal bazarlara çıxış imkanlarının genişlənməsi regionda emal sənayesinin inkişafı və istehsal əlaqələrinin gücləndirilməsi üçün əlavə imkanlar formalaşdırır.

Belə qlobal şəraitdə Azərbaycan Respublikasının mövcud mineral-xammal potensialı, əlverişli geostrateji mövqeyi, inkişaf etmiş enerji və nəqliyyat infrastrukturu, sənaye potensialı və Orta dəhliz üzərində yerləşməsi müvafiq sahənin inkişafı üçün geniş imkanlar açır. Bu imkanlardan səmərəli istifadə yerli mineral-xammal bazasının iqtisadi dövriyyəyə cəlb edilməsinə, emal dərinliyinin artırılmasına, yüksək əlavə dəyər yaradan istehsalın genişləndirilməsinə, investisiyaların cəlbinə, qeyri-neft ixracının artırılmasına və Azərbaycan Respublikasının regional və qlobal əlavə dəyər zəncirlərində iştirakının gücləndirilməsinə xidmət edə bilər.

## 3. Mövcud vəziyyətin təhlili

Son illərdə Azərbaycan Respublikasında müvafiq sahənin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Bu çərçivədə Gəncə şəhərində alüminium istehsalı müəssisəsinin fəaliyyəti təmin edilmiş, "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən əlvan və qiymətli metal yataqları sənaye istismarına cəlb olunmuşdur. Eyni zamanda Daşkəsən rayonunda Çovdar İnteqrə olunmuş Regional Emal Sahəsi (ÇİRES) və Gədəbəy rayonunda Filiz Emalı Zavodu istifadəyə verilmiş, işğaldan azad edilmiş ərazilərdə yerləşən "Dəmirli" mədən-filiz yatağında mis konsentratının istehsalına başlanılmışdır.

Son dövrlərdə ölkədə əlvan və qiymətli metallar üzrə istehsal və ixrac göstəricilərində əhəmiyyətli artım müşahidə olunmuşdur. 2015-2025-ci illərdə qızıl istehsalı 33 faiz artaraq 2965,0 kiloqrama, gümüş istehsalı 27,5 dəfə artaraq 3646,0 kiloqrama, mis konsentratı istehsalı isə 8,1 dəfə artaraq 7,8 min tona çatmışdır. Eyni dövrdə qızıl ixracı 326,2 milyon ABŞ dollarına çataraq 3,9 dəfə artmış, gümüş ixracı 2,7 milyon ABŞ dolları olmaqla 27 dəfə, mis ixracı isə 37,8 milyon ABŞ dollarına yüksələrək 3,8 dəfə artmışdır.

Bununla yanaşı, ölkədə mineral-xammal bazasının genişləndirilməsi istiqamətində geoloji kəşfiyyat işləri davam etdirilir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə yerləşən əlvan və qiymətli metal yataqları, eləcə də strateji əhəmiyyətli minerallar (nadir torpaq elementləri daxil olmaqla) müvafiq sahənin uzunmüddətli inkişafı baxımından mühüm resurs potensialı formalaşdırır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı" və 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, habelə qurumların fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən ölkədə genişmiqyaslı regional axtarış-qiymətləndirmə işləri həyata keçirilmişdir. Bu işlər Şərqi Zəngəzur, Qarabağ və Qazax-Tovuz iqtisadi rayonlarını, həmçinin Daşkəsən, Göygöl, Goranboy rayonlarını və Naxçıvan Muxtar Respublikasının Culfa, Şahbuz və Ordubad inzibati ərazi vahidlərini özündə birləşdirir. Aparılmış işlərin nəticəsində əvvəllər məlum olmayan bir sıra perspektivli filiz məntəqələri, o cümlədən Qaratağlar (Daşkəsən), Bəylik (Kəlbəcər) qızıl təzahürləri müəyyən edilmişdir. Qeyd edilən ərazilər üzrə kompleks axtarış-qiymətləndirmə mərhələsinin tam başa çatdırılması, mövcud geoloji xəritələrin və məlumat bazasının yenilənməsi, eləcə də ilkin kəşfiyyat mərhələsi üçün perspektivli sahələrin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Eyni zamanda Daşkəsən dəmir filizi yataqlarının iqtisadi dövriyyəyə cəlb olunması və Qərb Sənaye Parkının yaradılması ölkədə qara metallurgiya sənayesinin inkişafına və filizdən son məhsuladək inteqrə olunmuş istehsal zəncirinin formalaşdırılmasına təkan verir.

Hazırda ölkədə qara metal məmulatları istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr əsasən idxal olunan pəstah və metal qırıntılarından istifadə edir ki, bu da yerli xammal bazasının inkişaf etdirilməsini və inteqrə olunmuş metallurgiya istehsal zəncirinin formalaşdırılmasını aktuallaşdırır.

Beləliklə, əldə olunan nəticələr ölkədə müvafiq sahənin inkişafı üçün möhkəm baza formalaşdırmış, investisiya cəlbediciliyini artırmış və onun sənayeləşmə siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsinə şərait yaratmışdır.

Bununla yanaşı, müvafiq sahədə bir sıra struktur çağırışları qalmaqdadır. Metal filizlərinin tam emal zəncirinə inteqrasiyası, yüksək əlavə dəyərli metal məhsullarının istehsalı, strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) sənaye emalı, geoloji məlumatların hazırlanması və təqdim edilməsinin beynəlxalq hesabatlılıq standartlarına uyğunlaşdırılması, istehsalın enerji səmərəliliyinin artırılması və rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi vacib istiqamətlərdir. Eyni zamanda qlobal "yaşıl transformasiya", karbon tənzimlənməsi mexanizmləri və strateji əhəmiyyətli minerallara (nadir torpaq elementləri daxil olmaqla) artan beynəlxalq tələbat müvafiq sahənin rəqabət qabiliyyətinin yüksəldilməsini, dəyər zəncirinin dərinləşdirilməsini və ixracyönümlü yüksək texnologiyalı metallurgiya istehsalının genişləndirilməsini zəruri edir və bu şəraitdə Azərbaycan Respublikasının dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin yeni inkişaf mərhələsinə keçidi, mineral ehtiyatlardan daha səmərəli istifadə, yüksək əlavə dəyər yaradan istehsalın genişləndirilməsi və müvafiq sahənin rəqabət qabiliyyətinin artırılması məqsədilə aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsi önəmlidir:

3.1. müvafiq sahənin inkişafının təmini məqsədilə normativ hüquqi bazanın gücləndirilməsi, tənzimləmə mexanizmlərinin müasirləşdirilməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması, habelə dövlət dəstəyi və investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi mühüm şərtdir;

3.2 mineral-xammal bazasının davamlı inkişafı və yüksək əlavə dəyər yaradan istehsalın genişləndirilməsi üçün geoloji öyrənilmə səviyyəsinin yüksəldilməsi, perspektivli yataqların aşkar olunması, ehtiyatların beynəlxalq standartlara uyğun qiymətləndirilməsinin genişləndirilməsi, müasir geoloji kəşfiyyat texnologiyalarının tətbiqi, mövcud emal güclərinin artırılması, istehsal zəncirinin dərinləşdirilməsi və yüksək texnologiyalı metal məhsullarının istehsalının inkişaf etdirilməsi vacibdir;

3.3. müvafiq sahənin texnoloji dərinliyinin artırılması məqsədilə rəqəmsal texnologiyaların, süni intellekt həllərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və məlumat əsaslı qərar qəbuletmə mexanizmlərinin tətbiqinin genişləndirilməsi, istehsalın səmərəliliyi və məhsuldarlığı, habelə resurslardan effektiv istifadə mühüm prioritetdir;

3.4. qlobal "yaşıl transformasiya" proseslərinə uyğun olaraq enerji səmərəliliyinin artırılması, aşağı karbonlu istehsal texnologiyalarının tətbiqi, beynəlxalq ekoloji standartlara uyğunlaşma və karbon tənzimlənməsi mexanizmlərinə adaptasiya müvafiq sahənin dayanıqlı inkişafının əsas şərtlərindəndir;

3.5. müvafiq sahənin uzunmüddətli rəqabət qabiliyyətinin təmini məqsədilə ixtisaslı insan kapitalının formalaşdırılması, elm-təhsil-istehsal əməkdaşlığının gücləndirilməsi, tətbiqi elmi tədqiqatların və innovasiya ekosisteminin inkişaf etdirilməsi, ixrac bazarlarının şaxələndirilməsi, logistika və enerji xərclərinin optimallaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Mövcud vəziyyət, inkişaf meyilləri və struktur çağırışları nəzərə alınmaqla, müvafiq sahənin güclü və zəif tərəflərinin, mövcud imkanların və potensial risklərin müəyyən edilməsi məqsədilə GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlili aparılmışdır.

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| • Müvafiq sahənin inkişafını dəstəkləyən investisiya və təşviq mexanizmlərinin mövcudluğu | • Aparıcı mədən ölkələri ilə müqayisədə yataqların əksəriyyətinin orta və kiçik həcmli olması |
| • Qara, əlvan və qiymətli metallar üzrə təsdiq edilmiş mineral ehtiyatların mövcudluğu | • Bir sıra perspektivli yataqlar üzrə geoloji öyrənilmə və ehtiyatların qiymətləndirilməsi səviyyəsinin yetərli olmaması |
| • Alüminium, mis emalı və qara metallurgiya sahəsində formalaşmış istehsal infrastrukturu | • Metal filizlərinin emal dərinliyinin və yüksək əlavə dəyər yaradan məhsulların istehsal səviyyəsinin məhdud olması |
| • Müvafiq sahədə formalaşmış istehsal təcrübəsi və mövcud kadr bazası | • Müasir texnologiyalar üzrə ixtisaslı mühəndis və texniki kadr təminatının məhdudluğu |
| • Enerji təminatı imkanlarının və inkişaf etmiş enerji infrastrukturunun mövcudluğu | • İstehsal proseslərində rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin aşağı olması |
| • Əlverişli geostrateji mövqe və beynəlxalq nəqliyyat dəhlizlərinə çıxış imkanları | • Ekoloji, sosial və korporativ idarəetmə (bundan sonra – ESG) prinsiplərinin və beynəlxalq davamlılıq standartlarının tətbiqinin genişləndirilməsinə ehtiyacın olması |
| • İşğaldan azad olunmuş ərazilərdə yaradılmış və inkişaf etdirilən nəqliyyat və mühəndis-kommunikasiya infrastrukturu | • Açıq dənizə birbaşa çıxışın olmaması ilə əlaqədar xarici bazarlara daşınmada əlavə logistika xərclərinin yaranması |
| **İmkanlar** | **Təhlükələr** |
| • Filizçay, Söyüdlü (Zod) və digər perspektivli yataqların iqtisadi dövriyyəyə cəlb edilməsi | • Qlobal metal bazarlarında qiymətlərin yüksək dəyişkənliyi |
| • Strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) mövcud geoloji potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi | • Beynəlxalq ekoloji tələblərin və karbon tənzimləmə mexanizmlərinin, o cümlədən Avropa İttifaqının Karbon Sərhəd Tənzimləmə Mexanizminin (CBAM) tələblərinin sərtləşməsinin istehsal xərclərinə və ixrac imkanlarına təsiri |
| • Yaşıl enerji keçidi, yüksək texnologiyaların inkişafı və qlobal təchizat zəncirlərinin şaxələndirilməsi fonunda strateji əhəmiyyətli minerallara artan tələbat və Azərbaycan Respublikasının regional təchizat və emal mərkəzi kimi mövqeyinin gücləndirilməsi imkanları | |
| • Orta Dəhlizin inkişafı və Azərbaycan Respublikasının tranzit-logistika potensialının gücləndirilməsi | • Böyük ehtiyatlara və inkişaf etmiş emal sənayesinə malik ölkələrlə rəqabətin güclənməsi |
| • Sənaye parklarının, sənaye klasterlərinin və dəyər zəncirlərinin inkişaf etdirilməsi | • Regional geosiyasi risklərin investisiya, logistika və ixrac marşrutlarına mümkün təsirləri |
| • Özəl və xarici investisiyaların, texnologiya transferinin və beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi | • Qlobal iqtisadi artımın zəifləməsi nəticəsində metallurgiya məhsullarına tələbatın azalması |
| • Dairəvi iqtisadiyyatın və metal tullantılarının təkrar emalının inkişaf etdirilməsi | • Strateji əhəmiyyətli minerallar üzrə qlobal rəqabətin, texnoloji və ticarət məhdudiyyətlərinin güclənməsi və qabaqcıl emal texnologiyalarına çıxış imkanlarının məhdudlaşması |
| | • Su resurslarının məhdudluğu və iqlim dəyişikliklərinin istehsal proseslərinə mümkün təsirləri |

GZİT təhlili göstərir ki, müvafiq sahənin inkişafı üçün əlverişli resurs, institusional və makroiqtisadi baza formalaşmışdır. Bununla yanaşı, emal zəncirinin dərinləşdirilməsi, geoloji kəşfiyyatın genişləndirilməsi, texnoloji modernləşmə, ixtisaslı kadr hazırlığı və rəqabətqabiliyyətli istehsalın inkişafı müvafiq sahənin əsas çağırışları olaraq qalır. Dövlət Proqramında nəzərdə tutulan tədbirlər bu çağırışların aradan qaldırılmasına, mövcud imkanlardan səmərəli istifadəyə və xarici risklərin təsirinin azaldılmasına yönəlmişdir.

Beləliklə, qarşıdakı dövrdə mineral-xammal potensialından səmərəli istifadə, strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla), qara və əlvan metalların hasilatı və emalının genişləndirilməsi, yüksək əlavə dəyər yaradan istehsalın inkişafı və Azərbaycan Respublikasının qlobal əlavə dəyər zəncirində mövqeyinin gücləndirilməsi dövlət siyasətinin əsas prioritetləri olacaqdır.

## 4. Dövlət Proqramının hədəf göstəriciləri

Dövlət Proqramının icrası nəticəsində 2030-cu ilədək müvafiq sahənin inkişafı üzrə aşağıdakı əsas hədəf göstəricilərinə nail olunması nəzərdə tutulur:

**4.1. hasilat və mineral-xammal bazasının inkişafı:**

4.1.1. "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın nəticələri nəzərə alınmaqla, geoloji kəşfiyyat işlərinin aparıldığı ərazilərin ümumi əhatə dairəsinin 15 000 $km^2$-ə çatdırılması;

4.1.2. yeni faydalı qazıntı yataqlarının aşkar edilməsi, mövcud yataqların ehtiyatlarının dəqiqləşdirilməsi və sənaye üçün etibarlı xammal bazasının formalaşdırılması;

4.1.3. geoloji kəşfiyyat və mineral resursların qiymətləndirilməsi üzrə beynəlxalq hesabatlılıq standartlarının tətbiqi;

4.1.4. Filizçay polimetal yatağı və Söyüdlü (Zod) qızıl yatağı daxil olmaqla, Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, habelə ölkənin digər regionlarında yerləşən perspektivli yataqların istismara hazırlanması və filiz emalı imkanlarının genişləndirilməsi;

4.1.5. metal filizlərinin hasilatı və emalı üzrə layihələrə yerli və xarici investisiyaların cəlb edilməsi;

**4.2. alüminium sənayesinin inkişafı:**

4.2.1. "Azəralüminium" MMC-nin elektroliz zavodunun illik istehsal gücünün 100 min tona çatdırılması;

4.2.2. alüminium yayma məhsullarının illik istehsal gücünün 50 min tona çatdırılması;

4.2.3. texniki-iqtisadi əsaslandırmanın (bundan sonra - TİƏ) nəticələri əsasında kalsinasiya və anodbişirmə zavodunun istismara verilməsi və anod istehsalının təmin edilməsi;

4.2.4. alüminium sənayesində dəyər zəncirinin dərinləşdirilməsi və yüksək əlavə dəyər yaradan məhsulların (alüminium profil, naqil, kabel, folqa, lövhə, lent, içki qabları) istehsalının qurulması və genişləndirilməsi;

4.2.5. özəl sektor tərəfindən illik istehsal gücü təqribən 200 min ton olan yeni ilkin alüminium istehsalı müəssisəsinin yaradılması imkanlarının araşdırılması və bu istiqamətdə investorların cəlb edilməsi;

4.2.6. Zəylik-Alunit yataqları əsasında alüminium xammal bazasının inkişaf etdirilməsi imkanlarının qiymətləndirilməsi;

**4.3. qara metallurgiya sənayesinin inkişafı:**

4.3.1. Qərb Sənaye Parkının fəaliyyətə başlaması;

4.3.2. Daşkəsən dəmir filizi yataqları əsasında illik 1 milyon ton İsti Briketlənmiş Dəmir (bundan sonra -İBD) istehsalını təmin edəcək xammal bazasının yaradılması;

4.3.3. Qərb Sənaye Parkında Pellet və İBD istehsalı müəssisələrinin fəaliyyətə başlaması nəticəsində yerli və idxal olunan xammal hesabına illik 2 milyon ton İBD istehsal gücünün yaradılması;

4.3.4. istehsal olunan İBD-nin bir hissəsinin ölkədaxili metallurgiya müəssisələrində mərhələli şəkildə xammal kimi istifadəsi;

4.3.5. qara metallurgiya sahəsində yeni yayma zavodlarının və boru istehsalı sahələrinin yaradılmasının, habelə mövcud istehsal güclərinin genişləndirilməsinin dəstəklənməsi;

4.3.6. idxaldan asılılığın mərhələli şəkildə azaldılması və qara metallurgiya məhsullarının ixrac potensialının gücləndirilməsi;

**4.4. dayanıqlı inkişaf, innovasiya və insan kapitalı:**

4.4.1. istehsal tullantılarının azaldılması, təkrar emal imkanlarının artırılması və istehsal proseslərinin ətraf mühitə təsirinin minimuma endirilməsi;

4.4.2. müvafiq sahənin tələbatına uyğun peşəkar mütəxəssislərin hazırlanması və kadr potensialının gücləndirilməsi;

4.4.3. ali təhsil müəssisələri və sənaye subyektləri arasında birgə elmi-tədqiqat və innovasiya layihələrinin həyata keçirilməsi və onların nəticələrinin istehsalata tətbiqinin genişləndirilməsi;

4.4.4. hasilat və emal proseslərində müasir, rəqəmsal və ekoloji baxımdan təhlükəsiz texnologiyaların tətbiqinin genişləndirilməsi;

**4.5. müvafiq sahə üzrə əsas iqtisadi hədəflər:**

4.5.1. müvafiq sahədə yeni istehsal güclərinin yaradılması, o cümlədən emal və metallurgiya müəssisələrinin istismara verilməsi (Daşkəsən dəmir filizi layihəsi üzrə Zənginləşdirmə zavodu, Pellet istehsalı zavodu, İBD istehsalı zavodu, "BakuSteelCompany" Qapalı Səhmdar Cəmiyyətinin yeni yayma zavodu, "Azəralüminium" MMC-nin Gəncə şəhərində elektroliz zavodu, TİƏ əsasında Kalsinasiya və anodbişirmə zavodu, Söyüdlü (Zod) yatağı üzrə flotasiya zavodu);

4.5.2. müvafiq sahəyə xarici investisiyaların cəlb edilməsi;

4.5.3. yaradılması nəzərdə tutulan istehsal gücləri nəzərə alınmaqla, müvafiq sahədə yaradılan əlavə dəyərin 2 dəfədən çox artırılması;

4.5.4. müvafiq sahənin illik ixrac potensialının 2025-ci ilin orta dünya qiymətləri əsasında təqribən 2 milyard ABŞ dollarına çatdırılması.

## 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. müvafiq sahədə dayanıqlı və rəqabətqabiliyyətli istehsalın inkişaf etdirilməsi;

5.1.2. mineral-xammal bazasının genişləndirilməsi, geoloji kəşfiyyat işlərinin inkişaf etdirilməsi və mövcud yataqların səmərəli istismarının təmin edilməsi;

5.1.3. filizdən son məhsuladək inteqrə olunmuş istehsal və emal zəncirinin formalaşdırılması;

5.1.4. yüksək əlavə dəyər yaradan metallurgiya məhsullarının istehsalının və ixrac potensialının artırılması;

5.1.5. emal olunmuş metallurgiya məhsullarının sənayenin digər sahələrinə xammal və yarımfabrikat kimi inteqrasiyasının təmin edilməsi;

5.1.6. müasir texnologiyaların, rəqəmsal həllərin və innovativ istehsal metodlarının tətbiqinin genişləndirilməsi;

5.1.7. müvafiq sahəyə investisiyaların cəlb edilməsinin təşviq olunması;

5.1.8. müvafiq sahə üzrə insan kapitalının və ixtisaslı kadr potensialının gücləndirilməsi;

5.1.9. Azərbaycan Respublikasının regional strateji əhəmiyyətli minerallar (nadir torpaq elementləri daxil olmaqla) emalı mərkəzi kimi formalaşması imkanlarının araşdırılması və bu istiqamətdə institusional, infrastruktur və investisiya əsaslarının qiymətləndirilməsi.

## 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Müvafiq sahənin dayanıqlı, rəqabətqabiliyyətli və yüksək əlavə dəyər yaradan istehsal əsasında inkişafının təmin edilməsi məqsədilə aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

6.1.1. institusional və normativ hüquqi bazanın, habelə texniki infrastrukturun gücləndirilməsi:

**6.1.1.1. əsaslandırma:** müvafiq sahənin dayanıqlı inkişafı müasir tələblərə uyğun institusional və normativ hüquqi bazanın gücləndirilməsini tələb edir. Bu baxımdan normativ hüquqi bazanın və yerin təkindən istifadə mexanizmlərinin inkişaf etdirilməsi, geoloji məlumatların hazırlanması və təqdim edilməsinin beynəlxalq standartlara uyğunlaşdırılması və rəqəmsallaşdırılması, habelə müasir iqtisadi, ekoloji və texnoloji çağırışlara uyğunlaşma mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda beynəlxalq standartlara uyğun olaraq laboratoriya imkanlarının yaradılması müvafiq sahənin rəqabət qabiliyyətinin və investisiya cəlbediciliyinin gücləndirilməsinə xidmət edəcəkdir;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1.dağ-mədən (metal filizləri) və metallurgiya sənayesində, o cümlədən əlaqəli sahələr üzrə ESG prinsipləri və beynəlxalq məsul mədənçilik standartları nəzərə alınmaqla normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.1.2.2. "Yerin təki haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsinin hazırlanması;

6.1.1.2.3. sənaye məqsədilə istifadə üçün torpaqların kateqoriyasının dəyişdirilməsi mexanizminin təkmilləşdirilməsi;

6.1.1.2.4. geoloji kəşfiyyat və mineral resursların qiymətləndirilməsi üzrə beynəlxalq hesabatlılıq standartlarının tətbiqi, geoloji məlumatların hazırlanması və təqdim edilməsinin həmin standartlara uyğunlaşdırılması;

6.1.1.2.5. dağ-mədən (metal filizləri) sənayesi üzrə geoloji məlumatların rəqəmsallaşdırılması;

6.1.1.2.6. karbon tənzimləmə mexanizmləri, dairəvi iqtisadiyyat, enerji keçidi və rəqəmsallaşma kimi müasir çağırışların dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına təsirlərinin araşdırılması və uyğunlaşma tədbirlərinə dair təkliflər hazırlanması;

6.1.1.2.7. dağ-mədən (metal filizləri) və metallurgiya sənayesində beynəlxalq standartlara uyğun laboratoriyanın yaradılması;

**6.1.1.3. gözlənilən nəticələr və nəticə indikatorları:**

6.1.1.3.1. normativ hüquqi baza təkmilləşdiriləcəkdir;

6.1.1.3.2. "Yerin təki haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsinin razılaşdırılması yekunlaşdırılacaq və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada aidiyyəti üzrə təqdim ediləcəkdir;

6.1.1.3.3. sənaye məqsədilə istifadə üçün torpaqların kateqoriyasının dəyişdirilməsi prosedurlarının sadələşdirilməsi ilə bağlı müvafiq normativ hüquqi aktlar qəbul ediləcəkdir;

6.1.1.3.4. geoloji kəşfiyyat və mineral resursların qiymətləndirilməsi üzrə beynəlxalq hesabatlılıq standartlarının tətbiqi və prioritet yataqlar üzrə geoloji məlumatların hazırlanması və təqdim edilməsinin həmin standartların tələblərinə uyğunlaşdırılması təmin ediləcəkdir;

6.1.1.3.5. rəqəmsallaşdırılmış geoloji məlumatları əhatə edən vahid elektron geoloji informasiya ehtiyatı formalaşdırılacaq və istifadəyə veriləcəkdir;

6.1.1.3.6. müvafiq sahənin qlobal çağırışlara uyğunlaşması və rəqabət qabiliyyətinin gücləndirilməsi üzrə tədbirlərə dair təkliflər hazırlanaraq aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim ediləcəkdir;

6.1.1.3.7. müvafiq sahədə beynəlxalq standartlara uyğun laboratoriya fəaliyyətə başlayacaq, laboratoriya analizləri aparılacaq və xidmətlərin göstərilməsi təmin ediləcəkdir;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. normativ hüquqi aktların hazırlanması və qəbulunun gecikməsi, habelə qurumlararası koordinasiya çətinlikləri tədbirlərin icrasına təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiya və icranın monitorinqi gücləndiriləcəkdir;

6.1.1.4.2. geoloji məlumatların hazırlanması və təqdim edilməsinin beynəlxalq standartlara uyğunlaşdırılması və rəqəmsallaşdırılması, habelə laboratoriyanın yaradılması və akkreditasiyası zamanı texniki, metodoloji və kadr təminatı ilə bağlı çətinliklər yarana bilər. Bu riskin azaldılması məqsədilə beynəlxalq standartlar və ekspert dəstəyi əsasında zəruri texniki və kadr təminatı həyata keçiriləcəkdir;

6.1.1.4.3. karbon tənzimlənməsi, enerji keçidi, dairəvi iqtisadiyyat və rəqəmsallaşma üzrə beynəlxalq tələblərin sürətli dəyişməsi müvafiq sahənin uyğunlaşmasını çətinləşdirə bilər. Bu riskin azaldılması məqsədilə beynəlxalq meyillər izləniləcək və uyğunlaşma tədbirləri mütəmadi təkmilləşdiriləcəkdir;

**6.1.2. geoloji kəşfiyyat işlərinin genişləndirilməsi:**

**6.1.2.1. əsaslandırma:** müvafiq sahənin inkişafı mineral-xammal bazasının genişləndirilməsini və geoloji kəşfiyyat işlərinin sistemli şəkildə aparılmasını tələb edir. Bu məqsədlə perspektivli metal filizi sahələrinin müəyyən edilməsi, mövcud yataqlar üzrə geoloji məlumatların və ehtiyatların dəqiqləşdirilməsi, strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) geoloji potensialının öyrənilməsi və geoloji kəşfiyyat işlərinə özəl sektorun cəlbinin genişləndirilməsi zəruridir. Geoloji kəşfiyyat işlərinin müasir metodlarla genişləndirilməsi və ehtiyatların beynəlxalq hesabatlılıq standartlarına uyğun qiymətləndirilməsi yeni yataqların müəyyən edilməsi və metallurgiya sənayesinin dayanıqlı xammal təminatının gücləndirilməsi baxımından önəmlidir;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. Daşkəsən dəmir filizi yataqlarında perspektivli geoloji kəşfiyyat sahələrinin müəyyən edilməsi və prioritet sahələr üzrə geoloji kəşfiyyat proqramının hazırlanması;

6.1.2.2.2. metallurgiya sənayesi üçün əhəmiyyət kəsb edən perspektivli sahələrdə və mövcud yataqlarda, o cümlədən strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) mövcud olduğu sahələrdə özəl sektor cəlb edilməklə geoloji axtarış, kəşfiyyat, ehtiyatların qiymətləndirilməsi və dəqiqləşdirilməsi işlərinin mərhələli şəkildə aparılması;

**6.1.2.3. gözlənilən nəticələr və nəticə indikatorları:**

6.1.2.3.1. Daşkəsən dəmir filizi yataqlarında prioritet sahələr üzrə geoloji kəşfiyyat proqramı təsdiq edilərək, icraya hazır vəziyyətə gətiriləcəkdir;

6.1.2.3.2. geoloji kəşfiyyat işləri aparılmış ərazilərin ümumi sahəsi 15 000 $km^2$-ə çatdırılacaq və perspektivli yataqlar üzrə mineral ehtiyatlar beynəlxalq hesabatlılıq standartlarına uyğun qiymətləndiriləcəkdir;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. mürəkkəb geoloji şərait, geoloji məlumatların yetərsizliyi, habelə maliyyə və texniki təminatla bağlı çətinliklər geoloji kəşfiyyat işlərinin icrasına və ehtiyatların qiymətləndirilməsinə təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə müasir geoloji tədqiqat metodları tətbiq olunacaq, işlər mərhələli şəkildə həyata keçiriləcək və ehtiyatların beynəlxalq standartlara uyğun qiymətləndirilməsi təmin ediləcəkdir;

6.1.2.4.2. özəl sektorun geoloji kəşfiyyat layihələrində iştirakının gözləniləndən aşağı olması işlərin genişləndirilməsini məhdudlaşdıra bilər. Bu riskin azaldılması məqsədilə geoloji məlumatların investorlar üçün əlçatanlığı artırılacaq və özəl sektorun geoloji kəşfiyyat layihələrində iştirakı təşviq ediləcəkdir;

**6.1.3. qara metallurgiya sənayesinin inkişafı:**

**6.1.3.1. əsaslandırma:** qara metallurgiya sənayesinin davamlı inkişafı yerli xammal bazasına əsaslanan inteqrə olunmuş istehsal zəncirinin formalaşdırılmasını və yüksək əlavə dəyərli məhsul istehsalının genişləndirilməsini tələb edir. Bu baxımdan Daşkəsən dəmir filizi layihəsi çərçivəsində filiz hasilatı, zənginləşdirmə, pellet və İBD istehsalının, habelə zəruri infrastrukturun yaradılması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda yerli İBD-dən istifadənin və yeni istehsal güclərinin genişləndirilməsi idxaldan asılılığın azaldılmasına və ixrac potensialının gücləndirilməsinə xidmət edəcəkdir;

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. Daşkəsən dəmir filizi layihəsi çərçivəsində filiz hasilatının təşkili;

6.1.3.2.2. Daşkəsən dəmir filizi layihəsi çərçivəsində Zənginləşdirmə zavodunun qurulması;

6.1.3.2.3. Daşkəsən dəmir filizi layihəsi çərçivəsində dəmir filizi konsentratının Zənginləşdirmə zavodundan Pellet istehsalı zavoduna nəqli üçün 45 km uzunluğunda boru kəmərinin qurulması;

Ardı 5-ci səh.

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasında dağ-mədən(metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 4-cü səh.*

6.1.3.2.4. Daşkəsən dəmir filizi layihəsi çərçivəsində Pellet istehsalı zavodunun qurulması;

6.1.3.2.5. Daşkəsən dəmir filizi layihəsi çərçivəsində İBD zavodunun qurulması;

6.1.3.2.6. qara metallurgiya sahəsində əlavə stimullaşdırıcı tədbirlərin və güzəştlərin, o cümlədən dəmir yolu yükdaşıma tarifləri üzrə güzəştlərin tətbiqinə dair təkliflər hazırlanması;

6.1.3.2.7. Qərb Sənaye Parkının zəruri infrastrukturla təmin edilməsi;

6.1.3.2.8. İBD zavodunun yüksək həcmli və fasiləsiz təbii qaz təchizatının təmin edilməsi məqsədilə "Qazıməmməd-Qazax" magistral qaz kəmərinin I xətti üzrə 69 km-lik hissəsinin əsaslı təmiri;

6.1.3.2.9. metal qırıntısı xammalı əsasında fəaliyyət göstərən müəssisələrin yerli xammaldan (İBD) istifadəsinin təşviqi məqsədilə daxili bazarda qiymət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması;

6.1.3.2.10. yüksək əlavə dəyərli qara metallurgiya məhsullarının istehsalının genişləndirilməsi ilə bağlı təkliflər hazırlanması;

6.1.3.2.11."BakuSteelCompany" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən polad məhsullarının istehsalı üzrə yeni yayma zavodunun yaradılmasının dəstəklənməsi;

6.1.3.2.12. "BakuSteelCompany" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən tikişsiz boru istehsalı sahəsində istehsal güclərinin yaradılmasının dəstəklənməsi;

**6.1.3.3. gözlənilən nəticələr və nəticə indikatorları:**

6.1.3.3.1. TİƏ-də nəzərdə tutulmuş istehsal həcmlərini təmin edəcək xammal bazası yaradılacaqdır;

6.1.3.3.2. Zənginləşdirmə zavodu istismara veriləcək və yüksək dəmir tərkibli konsentratın istehsalı təmin ediləcəkdir;

6.1.3.3.3. dəmir filizi konsentratının fasiləsiz nəqli üçün təqribən 45 km uzunluğunda boru kəməri istismara veriləcək və dəmir filizi konsentratının fasiləsiz nəqli təmin ediləcəkdir;

6.1.3.3.4. Pellet istehsalı zavodu istismara veriləcək və yüksək dəmir tərkibli pelletlərin istehsalına başlanılacaqdır;

6.1.3.3.5. İBD zavodu istismara veriləcək və illik 2 milyon ton İBD istehsal gücü yaradılacaqdır;

6.1.3.3.6. iqtisadi cəhətdən məqsədəuyğun stimullaşdırıcı tədbirlərin və güzəştlərin tətbiqinə başlanılacaq, habelə qara metallurgiya məhsullarının daşınması üzrə rəqabətli dəmir yolu yükdaşıma tarifi mexanizmi tətbiq ediləcəkdir;

6.1.3.3.7. Qərb Sənaye Parkı zəruri infrastrukturla tam təmin ediləcək və rezidentlərin fəaliyyəti üçün əlverişli mühit yaradılacaqdır;

6.1.3.3.8. İBD zavodunun fasiləsiz və etibarlı təbii qaz təchizatı təmin ediləcəkdir;

6.1.3.3.9. yerli İBD-dən istifadə genişləndiriləcək, istehsal olunan İBD-nin bir hissəsindən mərhələli şəkildə ölkədaxili metallurgiya müəssisələrində istifadə olunacaq və bunun nəticəsində idxaldan asılılıq azaldılacaqdır;

6.1.3.3.10. yüksək əlavə dəyərli qara metallurgiya məhsullarının ümumi istehsalda payı artırılacaq və ixrac məhsullarının rəqabət qabiliyyəti gücləndiriləcəkdir;

6.1.3.3.11. yüksək əlavə dəyərli polad məhsullarının istehsalı və ixrac imkanları genişləndiriləcəkdir;

6.1.3.3.12. tikişsiz boru istehsalı artırılacaq və ixracyönümlü yüksək əlavə dəyərli metal məhsullarının istehsalı genişləndiriləcəkdir;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. iri istehsal və infrastruktur layihələrinin icrasında maliyyələşdirmə, texniki təminat və tikinti-quraşdırma işləri ilə bağlı gecikmələr layihələrin nəzərdə tutulan müddətdə başa çatdırılmasına təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə layihələrin mərhələli icrası, maliyyə və texniki təminatın vaxtında təşkili və qurumlararası koordinasiya təmin ediləcəkdir;

6.1.3.4.2. enerji və nəqliyyat xərclərinin dəyişməsi, habelə zəruri qaz və logistika infrastrukturunun vaxtında təmin edilməməsi istehsalın iqtisadi səmərəliliyinə təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə zəruri infrastruktur layihələrinin əlaqələndirilmiş icrası və iqtisadi cəhətdən məqsədəuyğun stimullaşdırıcı mexanizmlərin tətbiqi təmin ediləcəkdir;

**6.1.4. alüminium sənayesinin inkişafı:**

**6.1.4.1. əsaslandırma:** alüminium sənayesinin davamlı inkişafı ilkin alüminium istehsalı və emal güclərinin artırılmasını, dəyər zəncirinin dərinləşdirilməsini, yüksək əlavə dəyər yaradan məhsulların istehsalının genişləndirilməsini və müvafiq sahənin xammal və material təminatının gücləndirilməsini tələb edir. Bu baxımdan elektroliz və alüminium yayma istehsalı üzrə yeni güclərin yaradılması, TİƏ əsasında kalsinasiya və anodbişirmə istehsalının təşkili, alüminiumun dərin emalı üzrə prioritet məhsul istiqamətlərinin müəyyən edilməsi, Zəylik-Alunit yataqlarının sənaye istifadəsi imkanlarının qiymətləndirilməsi və yeni ilkin alüminium istehsalı layihələrinə özəl sektorun cəlb edilməsi böyük əhəmiyyət kəsb edir;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1.Gəncə şəhərində "Azəralüminium" MMC-nin elektroliz zavodu layihəsinin tamamlanması və istehsal gücünün artırılması;

6.1.4.2.2. alüminium yayma məhsullarının istehsalı üzrə yeni layihə çərçivəsində istehsal güclərinin artırılması;

6.1.4.2.3. alüminiumun dərin emalı üzrə prioritet məhsulların müəyyən edilməsi, onların digər sənaye sahələrində xammal və yarımfabrikat kimi istifadəsi imkanlarının araşdırılması, habelə bu sahədə özəl sektor tərəfindən təqdim edilən layihələrin təşviqi;

6.1.4.2.4. Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan TİƏ-yə uyğun olaraq, maliyyələşmə mənbələrinin müəyyən olunması və aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə kalsinasiya və anodbişirmə zavodunun tikintisinin həyata keçirilməsi;

6.1.4.2.5. Zəylik-Alunit yataqlarında alunitin sənaye istifadəsi, ondan alüminium oksidi və alüminium istehsalı imkanlarının qiymətləndirilməsi;

6.1.4.2.6. özəl sektor tərəfindən illik istehsal gücü təqribən 200 min ton olan yeni ilkin alüminium istehsalı müəssisəsinin qurulması imkanlarının qiymətləndirilməsi;

**6.1.4.3. gözlənilən nəticələr və nəticə indikatorları:**

6.1.4.3.1."Azəralüminium" MMC-nin elektroliz zavodunun illik istehsal gücü 100 min tona çatdırılacaqdır;

6.1.4.3.2. yeni layihə çərçivəsində alüminium yayma məhsullarının illik istehsal gücü isə 50 min tona çatdırılacaqdır;

6.1.4.3.3. dərin emal məhsulları üzrə yerli istehsal genişləndiriləcəkdir;

6.1.4.3.4. TİƏ-nin nəticələriəsasında kalsinasiya və anodbişirmə zavodu istifadəyə veriləcək və anod istehsalı təmin ediləcəkdir;

6.1.4.3.5. Zəylik-Alunit yataqları üzrə TİƏ nəticələrinə uyğun olaraq alunit əsaslı sənaye istehsalının qurulması ilə bağlı təkliflər hazırlanacaqdır;

6.1.4.3.6. illik istehsal gücü təqribən 200 min ton olan yeni ilkin alüminium istehsalı müəssisəsinin yaradılması ilə bağlı qərar qəbul ediləcək və potensial investor müəyyən olunacaqdır;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. alüminium istehsalının yüksək enerji tutumluluğu və xammal-material təminatı ilə bağlı risklər layihələrin iqtisadi səmərəliliyinə təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə enerji səmərəliliyinin artırılması və təchizat mənbələrinin şaxələndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir;

6.1.4.4.2. qlobal alüminium bazarında qiymət dəyişkənliyi yeni layihələrin həyata keçirilməsinə təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə investisiya cəlbi mexanizmi təkmilləşdiriləcək və potensial investorlarla əməkdaşlıq genişləndiriləcəkdir;

6.1.4.4.3. Zəylik-Alunit yataqlarının sənaye istifadəsi üzrə texnoloji və iqtisadi nəticələrin ilkin gözləntilərdən fərqlənməsi layihənin həyata keçirilməsinə təsir göstərə bilər. Bu riskin azaldılması məqsədilə geoloji, texnoloji və texniki-iqtisadi qiymətləndirmələr mərhələli şəkildə həyata keçiriləcəkdir;

**6.1.5. əlvan və qiymətli metallar sənayesinin inkişafı:**

**6.1.5.1. əsaslandırma:** əlvan və qiymətli metallar, eləcə də strateji əhəmiyyətli minerallar (nadir torpaq elementləri daxil olmaqla) üzrə mövcud mineral-xammal potensialından səmərəli istifadə perspektivli yataqların sənaye istismarına cəlb edilməsini, hasilat və emal imkanlarının genişləndirilməsini tələb edir. Prioritet yataqların mərhələli şəkildə istismara hazırlanması, strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) və mis xammalının emalı imkanlarının qiymətləndirilməsi, habelə müvafiq sahənin investisiya cəlbediciliyinin artırılması yüksək əlavə dəyər yaradan istehsalın və ixrac potensialının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. Kəlbəcər rayonunda Söyüdlü (Zod) qızıl yatağı üzrə hasilat və emal prosesinin qurulması və sənaye istismarına başlanılması;

6.1.5.2.2. Balakən rayonunda Filizçay polimetal yatağının TİƏ sənədinin hazırlanması və bunun əsasında tikinti işlərinin aparılması üçün qərarın verilməsi;

6.1.5.2.3. Elbəydaş filiz yatağının minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi və istismara hazır vəziyyətə gətirilməsi;

6.1.5.2.4. "R.V. Investment Group Services, LLC" və onun əməliyyat şirkəti tərəfindən Ağdərə rayonunda Dəmirli mədən-filiz yatağının istismarının davam etdirilməsinin dəstəklənməsi;

6.1.5.2.5. "R.V. Investment Group Services, LLC" və onun əməliyyat şirkəti tərəfindən Xarxar və Qaradağ mədən-filiz yataqları üzrə işlənmə və hasilat dövrünə keçidin təmin edilməsinə dəstək göstərilməsi;

6.1.5.2.6. Naxçıvan Muxtar Respublikasında qızıl və mis yataqlarının istismara cəlb edilməsi;

6.1.5.2.7. strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) emalı imkanlarının və Azərbaycan Respublikasının bu sahədə regional mərkəz kimi formalaşması perspektivlərinin araşdırılması;

6.1.5.2.8. ölkə ərazisində yerli və idxal xammal əsasında mis emalı üzrə metaləritmə müəssisələrinin yaradılması imkanlarının araşdırılması və müvafiq təkliflər hazırlanması;

6.1.5.2.9. əlvan və qiymətli metallar, eləcə də strateji əhəmiyyətli minerallar (nadir torpaq elementləri daxil olmaqla) sahəsində inkişafın təşviqi məqsədilə əlavə stimullaşdırıcı tədbirlər və güzəşt mexanizmləri üzrə təkliflər hazırlanması;

**6.1.5.3. gözlənilən nəticələr və nəticə indikatorları:**

6.1.5.3.1. Söyüdlü (Zod) qızıl yatağında flotasiya zavodu və əlaqədar infrastruktur qurulacaq, zənginləşdirilmiş filiz (flotokonsentrat) istehsalına başlanacaq, satışı təşkil olunacaq, habelə yekun investisiya qərarına uyğun olaraq metal emalının təşkili və yatağın tam həcmdə sənaye istismarına başlanılması təmin ediləcəkdir;

6.1.5.3.2. Filizçay polimetal yatağı üzrə qəbul ediləcək yekun investisiya qərarına uyğun olaraq tikinti işləri həyata keçiriləcəkdir;

6.1.5.3.3. Elbəydaş filiz yataq ərazisiistismara hazır vəziyyətə gətiriləcəkdir;

6.1.5.3.4 Dəmirli mədən-filiz yatağında istismarın davamlılığına mane olan problemlərin aradan qaldırılması ilə bağlı zəruri dəstək tədbirləri həyata keçiriləcəkdir;

6.1.5.3.5. Xarxar və Qaradağ yataqları üzrə işlənmə və hasilat dövrünə keçidə mane olan problemlərin aradan qaldırılması ilə bağlı zəruri dəstək tədbirləri həyata keçiriləcəkdir;

6.1.5.3.6. Naxçıvan Muxtar Respublikasında Ortakənd yatağı üzrə hasilata başlanılacaq, digər prioritet yataqların istismara cəlb edilməsi üzrə yekun investisiya qərarları qəbul ediləcəkdir;

6.1.5.3.7. perspektivli emal istiqamətləri üzrə investisiya imkanları və Azərbaycan Respublikasının strateji əhəmiyyətli minerallar üzrə regional emal mərkəzi kimi formalaşması üçün zəruri institusional, texnoloji və investisiya mexanizmləri müəyyən ediləcəkdir;

6.1.5.3.8. aparılmış qiymətləndirmə nəticələri və hazırlanmış təkliflər əsasında mis emalı üzrə metaləritmə müəssisələrinin yaradılmasının məqsədəuyğunluğuna dair qərar qəbul ediləcəkdir;

6.1.5.3.9. hazırlanmış təkliflər əsasında iqtisadi cəhətdən məqsədəuyğun əlavə stimullaşdırıcı tədbirlərin və güzəşt mexanizmlərinin tətbiqinə dair qərarlar qəbul ediləcəkdir;

**6.1.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. yataqların istismara hazırlanması zamanı geoloji, texniki, infrastruktur və minalardan və digər partlayıcı sursatlardan təmizləmə ilə bağlı çətinliklər layihələrin icrasını ləngidə bilər. Risklərin azaldılması məqsədilə hazırlıq tədbirləri mərhələli həyata keçiriləcək və aidiyyəti qurumlar arasında koordinasiya təmin ediləcəkdir;

6.1.5.4.2. metal qiymətlərinin dəyişkənliyi, investisiya cəlbi, habelə emal layihələrinin texniki-iqtisadi səmərəliliyi ilə bağlı qeyri-müəyyənliklər layihələrin həyata keçirilməsinə təsir göstərə bilər. Bu məqsədlə texniki-iqtisadi qiymətləndirmələr aparılacaq və investisiya qərarları onların nəticələri əsasında qəbul ediləcəkdir;

**6.1.6. insan kapitalının və elmi potensialın gücləndirilməsi:**

**6.1.6.1. əsaslandırma:** müvafiq sahənin dayanıqlı və rəqabətqabiliyyətli inkişafı həmin sahənin tələbatına uyğun olaraq ixtisaslı kadrların hazırlanmasını, peşə bacarıqlarının və elmi potensialın inkişaf etdirilməsini, habelə elm-sənaye əməkdaşlığının gücləndirilməsini tələb edir. Bu baxımdan kadr hazırlığının sənayenin tələblərinə uyğunlaşdırılması, araşdırma və inkişaf fəaliyyətlərinin dəstəklənməsi və elm və ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığının genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir;

**6.1.6.2. görüləcək tədbirlər:**

6.1.6.2.1. dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin tələbatına uyğun ixtisaslı kadr hazırlığı və peşə bacarıqlarının inkişaf etdirilməsi;

6.1.6.2.2. dağ-mədən (metal filizləri) və metallurgiya sənayesi üzrə elmi potensialın artırılması, araşdırma və inkişafın dəstəklənməsi, ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığının gücləndirilməsi;

**6.1.6.3. gözlənilən nəticələr və nəticə indikatorları:**

6.1.6.3.1. müvafiq sahənin tələbatına uyğun ixtisaslı mütəxəssislərin hazırlanması və müəssisələrin ixtisaslı işçi qüvvəsi ilə təminatı gücləndiriləcəkdir;

6.1.6.3.2. elmi araşdırmalar dəstəklənəcəkvə elm, ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığı əsasında müvafiq sahədə innovasiya və kadr potensialı gücləndiriləcəkdir;

**6.1.6.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.4.1. ixtisaslı kadr hazırlığının və ali təhsil müəssisəsi-sənaye əməkdaşlığının müvafiq sahənin dəyişən tələblərinə uyğun inkişaf etməməsi insan kapitalının və innovasiya potensialının gücləndirilməsini ləngidə bilər. Bu riskin azaldılması məqsədilə kadr hazırlığı və ixtisasartırma proqramları müvafiq sahənin tələbatına uyğunlaşdırılacaq, elm və ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığı genişləndiriləcəkdir.

## 7. Dövlət Proqramının maliyyələşmə mexanizmləri

7.1. Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına həyata keçirilə bilər:

7.1.1. dövlət büdcəsi: dövlət büdcəsinin investisiya qoyuluşu hissəsi ilə birbaşa, eləcə də vergi və gömrük güzəştləri vasitəsilə dolayı maliyyə dəstəyi göstərilməsi, digər dövlət dəstəyi tədbirləri;

7.1.2. güzəştli kreditlər: Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən layihələrə güzəştli şərtlərlə uzunmüddətli kreditlər ayrılması;

7.1.3. investisiyalar: yerli özəl investisiyalar, dövlətin və ya dövlət müəssisələrinin səhmdar (payçı) iştirakı, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli570 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair Qaydalar"ın tələbləri nəzərə alınmaqla dövlət müəssisələrinin illik fəaliyyətinin nəticəsi olaraq əldə edilən xalis mənfəətinin istehsalın genişləndirilməsinə və yeni yataqların kəşfiyyatının maliyyələşdirilməsinə yönəldilməsi, xarici investisiyalar, birgə müəssisələrin yaradılması və dövlət-özəl tərəfdaşlığı modelləri;

7.1.4. beynəlxalq maliyyə resursları: layihələrin beynəlxalq maliyyə institutlarının kredit və qrant vəsaitləri hesabına dəstəklənməsi.

## 8. Dövlət Proqramının həyata keçirilməsinə dair TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum),fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Prioritet istiqamət 8.1. İnstitusional və normativhüquqibazanın, habelətexniki infrastrukturun gücləndirilməsi** | | | | | | | |
| 8.1.1. | Dağ-mədən (metal filizləri) və metallurgiya sənayesində, o cümlədən əlaqəli sahələr üzrə ESG prinsipləri və beynəlxalq məsul mədənçilik standartları nəzərə alınmaqla normativ hüquqi bazanın təkmilləşdirilməsi | ETSN | İN, ƏN, "AzerGold" QSC, ƏƏSMN | 2027–2030 | Müvafiq sahədə mövcud hüquqi tənzimləmənin qiymətləndirilməsi, çatışmazlıqların müəyyən edilməsi və təkmilləşdirmə istiqamətində təkliflər hazırlanması | Normativ hüquqi akt layihələrinin hazırlanması, aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi | Normativ hüquqi bazanın təkmilləşdirilməsi |
| 8.1.2. | "Yerin təki haqqında" Azərbaycan Respublikasınınyeniqanun layihəsinin hazırlanması | ETSN | İN,ƏN, "AzerGold" QSC | 2027 2028 | Qanun layihəsinin konsepsiyasının hazırlanması, mövcud hüquqi tənzimləmənin və beynəlxalq təcrübənin təhlili | Qanun layihəsinin hazırlanması və aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Qanun layihəsinin razılaşdırılmasınınyekunlaşdırılması və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.3. | Sənaye məqsədilə istifadə üçün torpaqların kateqoriyasının dəyişdirilməsi mexanizminin təkmilləşdirilməsi | İN | ETSN, "AzerGold" QSC | 2027–2028 | Sənaye təyinatlı torpaqlardan istifadə mexanizminin təkmilləşdirilməsi üzrə konseptual yanaşmaların müəyyən edilməsi | Mexanizmin təkmilləşdirilməsi üzrə normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi | Torpaqların kateqoriyasının dəyişdirilməsi prosedurlarının sadələşdirilməsiilə bağlı müvafiq normativ hüquqi aktların qəbul edilməsi |
| 8.1.4. | Geoloji kəşfiyyat və mineral resursların qiymətləndirilməsi üzrə beynəlxalq hesabatlılıq standartlarının tətbiqi və geoloji məlumatların hazırlanması və təqdim edilməsinin həmin standartlara uyğunlaşdırılması | ETSN | "AzerGold" QSC, AİBNDA | 2027 2030 | Tətbiq ediləcək beynəlxalq hesabatlılıq standartlarının müəyyən edilməsi,mövcud geoloji məlumatların hazırlanması və təqdim edilməsinin həmin standartlara uyğunluğunun qiymətləndirilməsi | Beynəlxalq hesabatlılıq standartlarının tətbiqi üzrə metodoloji çərçivənin hazırlanması, prioritet yataqlar üzrə geoloji məlumatların hazırlanması və təqdim edilməsinin həmin standartlarauyğunlaşdırılmasına başlanılması | Beynəlxalq hesabatlılıq standartlarının tətbiqinin təmin edilməsi və prioritet yataqlar üzrə geoloji məlumatların hazırlanması və təqdim edilməsinin həmin standartlara uyğunlaşdırılması |
| 8.1.5. | Dağ-mədən (metal filizləri) sənayesi üzrə geoloji məlumatların rəqəmsallaşdırılması | ETSN | İN, "AzerGold" QSC, RİNN | 2027–2028 | Dövlət Geoloji İnformasiya Fondunda mövcud məlumatlarıninventarlaşdırılması, rəqəmsallaşdırılacaqməlumatlarınprioritetləşdirilməsi və texniki tələblərin müəyyən edilməsi | Prioritet geoloji məlumatların mərhələli rəqəmsallaşdırılması, təsnifləşdirilməsi və vahid elektron geoloji informasiya ehtiyatında sistemləşdirilməsi | Rəqəmsallaşdırılmış geoloji məlumatları əhatə edən vahid elektron geoloji informasiya ehtiyatının formalaşdırılması və istifadəyə verilməsi |
| 8.1.6. | Karbon tənzimləmə mexanizmləri, dairəvi iqtisadiyyat, enerji keçidi və rəqəmsallaşma kimi müasir çağırışların dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına təsirlərinin araşdırılması və uyğunlaşma tədbirlərinə dair təkliflər hazırlanması | İN | ETSN, RİNN, AİH | 2027 | Müasir çağırışların müvafiq sahəyə təsirləri üzrə mövcud vəziyyətin təhlili | Müəyyən edilmiş meyillərin müvafiq sahənin rəqabət qabiliyyətinə, ixrac imkanlarına, istehsal texnologiyalarına və investisiya cəlbediciliyinə təsirlərinin qiymətləndirilməsi | Müvafiq sahənin qlobal çağırışlara uyğunlaşması və rəqabət qabiliyyətinin gücləndirilməsi üzrə tədbirlərə dair təkliflər hazırlanması və aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edilməsi |
| 8.1.7. | Dağ-mədən (metal filizləri) və metallurgiya sənayesində beynəlxalq standartlara uyğun laboratoriyanın yaradılması | ETSN | İN, AİBNDA, "AzerGold" QSC | 2027 2030 | Müvafiq sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla laboratoriyanın qurulması istiqamətində mövcud vəziyyətin qiymətləndirilməsi və TİƏ-nin hazırlanması | Beynəlxalq standartlara uyğun laboratoriyanın yaradılması məqsədilə maddi-texniki bazanın təmin edilməsi və akkreditasiyadan keçirilməsi | Müvafiq sahədə laboratoriya analizlərinin aparılması və xidmətlər göstərilməsi |
| **Prioritet istiqamət 8.2. Geoloji kəşfiyyat işlərinin genişləndirilməsi** | | | | | | | |
| 8.2.1. | Daşkəsən dəmir filizi yataqlarında perspektiv geoloji kəşfiyyat sahələrinin müəyyən edilməsi və geoloji kəşfiyyat proqramının hazırlanması | "AzerGold" QSC | ETSN | 2027–2028 | Mövcud geoloji məlumatların təhlili və perspektivli kəşfiyyat sahələrinin müəyyən edilməsi | Prioritet sahələr üzrə geoloji kəşfiyyat proqramının hazırlanması | Geoloji kəşfiyyat proqramının təsdiq edilməsi və icraya hazır vəziyyətə gətirilməsi |
| 8.2.2. | Metallurgiya sənayesi üçün əhəmiyyət kəsb edən perspektivli sahələrdə və mövcud yataqlarda, o cümlədən strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) mövcud olduğu sahələrdə özəl sektor cəlb edilməklə geoloji axtarış, kəşfiyyat, ehtiyatların qiymətləndirilməsi və dəqiqləşdirilməsi işlərinin mərhələli şəkildə aparılması | ETSN, "AzerGold" QSC | İN | 2027–2030 | "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020–2024-cü illər üçün Dövlət Proqramı"nın və 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I DövlətProqramı"nın nəticələri nəzərə alınmaqla, müəyyən edilmiş prioritet sahələrdə ilkin geoloji tədqiqatlar və xəritələşdirmə işləri aparılması | Geoloji kəşfiyyat işlərinin mərhələli şəkildə genişləndirilməsi, beynəlxalq standartlara uyğun ehtiyatların ilkin qiymətləndirilməsi və perspektivli yataqların müəyyən edilməsi | Geoloji kəşfiyyat işlərinin ümumi əhatə dairəsinin 15 000 km²-ə çatdırılması və perspektivli yataqlar üzrə mineral ehtiyatların beynəlxalq hesabatlılıq standartlarına uyğun qiymətləndirilməsinin təmin edilməsi |
| **Prioritet istiqamət 8.3. Qara metallurgiya sənayesinin inkişafı** | | | | | | | |
| 8.3.1. | Daşkəsən dəmir filizi layihəsi çərçivəsində filiz hasilatının təşkili | "AzerGold" QSC | İN, AİII | 2027–2030 | TİƏ-nin tamamlanması və nəticədən asılı olaraq layihənin həyata keçirilməsi üzrə hazırlıq işləri görülməsi | Üstaçma işlərinə mərhələli şəkildə başlanılması və filiz hasilatı üçün mədən infrastrukturunun formalaşdırılması | TİƏ-də nəzərdə tutulmuş istehsal həcmlərini təmin edəcək xammal bazasının yaradılması |
| 8.3.2. | Daşkəsən dəmir filizi layihəsi çərçivəsində Zənginləşdirmə zavodunun qurulması | "AzerGold" QSC | İN, AİH | 2027–2030 | Zavodun qurulması üzrə TİƏ-nin tamamlanması və nəticədən asılı olaraq hazırlıq işlərinin görülməsi | Zavoduntikintisi işlərinə başlanılması və əsas texnoloji avadanlıqların qurulması | Zavodun istismara verilməsi və yüksək dəmir tərkibli konsentratın istehsalının təmin edilməsi |
| 8.3.3. | Daşkəsən dəmir filizi layihəsi çərçivəsində dəmir filizi konsentratının Zənginləşdirmə zavodundan Pellet istehsalı zavoduna nəqli üçün təqribi 45 kilometr uzunluğunda boru kəmərinin qurulması | "AzerGold" QSC | İN, AİH | 2027–2030 | Boru kəmərinin qurulması üzrə TİƏ-nin tamamlanması və nəticədən asılı olaraq hazırlıq işlərinin görülməsi | Boru kəmərinin tikintisi işlərinə başlanılması və əlaqədar texnoloji infrastrukturun quraşdırılması | Təqribən 45 kilometr uzunluğunda boru kəmərinin istismara verilməsi və dəmir filizi konsentratının nəqlinin təmin edilməsi |
| 8.3.4. | Daşkəsən dəmir filizi layihəsi çərçivəsində Pellet istehsalı zavodunun qurulması | "AzerGold" QSC | İN, AİH | 2027–2030 | Zavodun qurulması üzrə TİƏ-nin tamamlanması və nəticədən asılı olaraq hazırlıq işlərinin görülməsi | Zavodun tikinti-quraşdırma işlərinə başlanılması və əsas texnoloji avadanlıqların qurulması | Zavodun istismara verilməsi və yüksək dəmir tərkibli pellet istehsalına başlanılması |
| 8.3.5. | Daşkəsən dəmir filizi layihəsi çərçivəsində İBD zavodunun qurulması | "AzerGold" QSC | İN, AİH | 2027–2030 | Zavodun baza layihələndirməsinin həyata keçirilməsi | Zavodun tikintisi işlərinə başlanılması və əsas texnoloji avadanlıqların qurulması | Zavodun istismara verilməsi və illik 2 milyon ton İBD istehsal gücünün yaradılması |
| 8.3.6. | Qara metallurgiya sahəsində əlavə stimullaşdırıcı tədbirlərin və güzəştlərin, o cümlədən dəmir yolu yükdaşıma tarifləri üzrə güzəştlərin tətbiqinə dair təkliflər hazırlanması | İN | RİNN, MN | 2027–2029 | Qara metallurgiya sahəsində mövcud bazar şəraitinin, istehsal və logistika xərclərinin qiymətləndirilməsi, tətbiq oluna biləcək stimullaşdırıcı tədbirlərin və güzəştlərin müəyyən edilməsi | Müəyyən edilmiş stimullaşdırıcı tədbirlərin və güzəştlərin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, iqtisadi cəhətdən məqsədəuyğun dəstək alətlərinin və rəqabətli dəmir yolu yükdaşıma tarifi mexanizminin formalaşdırılması | İqtisadi cəhətdən məqsədəuyğun stimullaşdırıcı tədbirlərin və güzəştlərin tətbiqinə başlanılması, habelə qara metallurgiya məhsullarının daşınması üzrə rəqabətli dəmir yolu yükdaşıma tarifi mexanizminin tətbiqi |
| 8.3.7. | Qərb Sənaye Parkının zəruri infrastrukturla təmin edilməsi | İN | MN | 2027–2028 | Sənaye parkının infrastruktur ehtiyaclarının müəyyənləşdirilməsi və layihələndirmə işlərinin həyata keçirilməsi | Sənaye Parkı ərazisində əsas mühəndis-kommunikasiya və nəqliyyat infrastrukturunun qurulması | Qərb Sənaye Parkının zəruri infrastrukturla tam təmin edilməsi və rezidentlərinfəaliyyəti üçün əlverişli mühitin yaradılması |
| 8.3.8. | İBD zavodunun yüksək həcmli və fasiləsiz təbii qaz təchizatının təmin edilməsi məqsədilə "Qazıməmməd-Qazax" magistral qaz kəmərinin I xətti üzrə 69 kilometrlik hissəsinin əsaslı təmiri | SOCAR | AİH, İN | 2027–2028 | Magistral qaz kəmərinin texniki vəziyyətinin qiymətləndirilməsi və əsaslı təmir layihəsinin hazırlanması | 69 km-lik hissədə əsaslı təmir işlərinin həyata keçirilməsi | İBD zavodunun fasiləsiz və etibarlı təbii qaz təchizatının təmin edilməsi |
| 8.3.9. | Metal qırıntısı xammalı əsasında fəaliyyət göstərən müəssisələrin yerli xammaldan (İBD) istifadəsinin təşviqi məqsədilə daxili bazarda qiymət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | İN | MN, "AzerGold" QSC, AİBNDA | 2029–2030 | Metal qırıntısı xammalı əsasında fəaliyyət göstərən müəssisələrin mövcud vəziyyətinin təhlil edilməsi | Daxili bazarda qiymət tənzimlənməsi mexanizmləri ilə bağlı təkliflər hazırlanması | Yerli İBD-dən istifadənin genişləndirilməsi, istehsal olunan İBD-nin bir hissəsindən mərhələli şəkildə ölkədaxili metallurgiya müəssisələrində istifadə olunması və bunun nəticəsində idxaldan asılılığın azaldılması |
| 8.3.10. | Yüksək əlavə dəyərli qara metallurgiya məhsullarının istehsalının genişləndirilməsiilə bağlıtəkliflər hazırlanması | İN | | 2027–2030 | Yüksək əlavə dəyərli qara metallurgiya məhsullarının istehsalına keçid imkanlarının qiymətləndirilməsi | Təhlillər əsasında müəyyən ediləcək prioritet məhsul istiqamətlərinin istehsalı ilə bağlı təkliflər hazırlanması | Yüksək əlavə dəyərli qara metallurgiya məhsullarınınümumi istehsalda payının artırılması və ixrac məhsullarının rəqabət qabiliyyətinin gücləndirilməsi |
| 8.3.11. | "BakuSteelCompany" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən polad məhsullarının istehsalı üzrə yeni yayma zavodunun yaradılmasının dəstəklənməsi | İN | | 2027–2030 | Yeni yayma zavodunun yaradılmasının mövcud təşviq mexanizmləri çərçivəsində dəstəklənməsi | Yüksək əlavə dəyərli polad məhsullarının istehsalı və ixrac imkanlarının genişləndirilməsi | |
| 8.3.12. | "BakuSteelCompany" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən tikişsiz boru istehsalı sahəsində istehsal güclərinin yaradılmasının dəstəklənməsi | İN | | 2027–2030 | Tikişsiz boru istehsalı zavodunun yaradılmasının mövcud təşviq mexanizmləri çərçivəsində dəstəklənməsi | Tikişsiz boru istehsalının artırılması və ixracyönümlü yüksək əlavə dəyərli metal məhsullarının istehsalının genişləndirilməsi | |
| **Prioritet istiqamət 8.4. Alüminium sənayesinin inkişafı** | | | | | | | |
| 8.4.1. | Gəncə şəhərində "Azəralüminium" MMC-nin elektroliz zavodu layihəsinin tamamlanması və istehsal gücünün artırılması | AİH | İN | 2027–2030 | TİƏ hazırlanması, ilkin layihələndirmə işlərinin tamamlanması | Təfsilatlı layihələndirmə işlərinin tamamlanması, əsas avadanlıqlarla təchizat | Elektroliz zavodunun illik istehsal gücünün 100 min tona çatdırılması |
| 8.4.2. | Alüminium yayma məhsullarının istehsalı üzrə yeni layihə çərçivəsində istehsal güclərinin artırılması | AİH | İN | 2027–2030 | TİƏ hazırlanması, ilkin layihələndirmə işlərinin tamamlanması | Təfsilatlılayihələndirmə işlərinintamamlanması, əsas avadanlıqlarla təchizat | Alüminium yayma məhsullarının illik istehsal gücünün50 min tona çatdırılması |
| 8.4.3. | Alüminiumun dərin emalı üzrə prioritet məhsulların müəyyən edilməsi, onların digər sənayesahələrində xammal və yarımfabrikat kimi istifadəsi imkanlarının araşdırılması, habelə bu sahədə özəl sektor tərəfindən təqdim edilən layihələrin təşviqi | İN | AİH | 2027–2029 | Bazar tələbatı və məhsul istiqamətləri üzrə təhlillər aparılması | Prioritet məhsullar üzrə investisiya layihələrinin həyata keçirilməsinə və stimullaşdırıcı mexanizmlərin tətbiqinə başlanılması | Dərin emal məhsulları üzrə yerli istehsalın genişləndirilməsi |
| 8.4.4. | Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan TİƏ sənədinəuyğun olaraq, maliyyələşdirmə mənbələrinin müəyyən olunması və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə kalsinasiya və anodbişirmə zavodunun tikintisinin həyata keçirilməsi | AİH | İN, MN | 2027–2030 | Azərbaycan İnvestisiya Holdinqi tərəfindən TİƏ-nin hazırlanması, maliyyələşdirmə mənbələrinin müəyyən olunması və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə zavodun tikintisi üçün ilkin hazırlıq işlərinin görülməsi | Zavod üzrə tikinti-quraşdırma işlərinin aparılması və əsas avadanlıqların tədarükünün təmin edilməsi | TİƏ-nin nəticələri əsasında kalsinasiya və anodbişirmə zavodunun istifadəyə verilməsi və anod istehsalının təmin edilməsi |
| 8.4.5. | Zəylik-Alunit yataqlarında alunitin sənaye istifadəsi və ondan alüminium oksidi və alüminium istehsalı imkanlarının qiymətləndirilməsi | AİII | ETSN, İN | 2027 2030 | Geoloji və texnoloji tədqiqatların aparılması | TİƏ hazırlanması və sənaye tətbiqi üzrə qiymətləndirmənin aparılması | TİƏ-nin nəticələrinə uyğun olaraq, alunit əsaslı sənaye istehsalının qurulması ilə bağlı təkliflər hazırlanması |
| 8.4.6. | Özəl sektor tərəfindən illik istehsal gücü təqribən 200 min ton olan yeni ilkin alüminium istehsalı müəssisəsinin qurulması imkanlarının qiymətləndirilməsi | İN | AİH | 2027–2030 | Layihənin həyata keçirilməsi imkanlarının və potensial investorların müəyyən edilməsi | Potensial investorlarla danışıqlar aparılması və investisiya modelinin formalaşdırılması | İllik istehsal gücü təqribən 200 min ton olan yeni ilkin alüminium istehsalı müəssisəsinin yaradılması ilə bağlı qərar qəbul edilməsi və potensial investorunmüəyyənolunması |
| **Prioritet istiqamət 8.5. Əlvan və qiymətli metallar sənayesinin inkişafı** | | | | | | | |
| 8.5.1. | Kəlbəcər rayonunda Söyüdlü (Zod) qızıl yatağı üzrə hasilatın və emal prosesinin qurulması və sənaye istismarına başlanılması | "AzerGold" QSC | ETSN | 2027–2030 | Geotexniki və hidro-geoloji tədqiqat işlərinin aparılması,yatağın mövcud ehtiyatlarının dəqiqləşdirilməsi üzrəqiymətləndirmə hesabatının, maliyyə modelinin hazırlanması, dağ-mədən işlərinin inkişaf planının tərtib edilməsi | Filizin zənginləşdirilməsi (flotasiya) üsulunun qiymətləndirilməsi, TİƏ hazırlanması və yekun investisiya qərarının qəbul edilməsi ilə bağlı təkliflərin təqdim olunması | Flotasiya zavodunun və əlaqədar infrastrukturun qurulması, zənginləşdirilmiş filiz (flotokonsentrat) istehsalına başlanılması və satışının təşkili, habelə yekun investisiya qərarına uyğun olaraq metal emalının təşkili və yatağın tam həcmdə sənaye istismarına başlanılması |
| 8.5.2. | Balakən rayonunda Filizçay polimetal yatağının TİƏ sənədinin hazırlanması və bunun əsasında tikinti işlərinin aparılması üçün qərar verilməsi | "AzerGold" QSC | ETSN | 2027–2030 | Tədqiqatlar aparılması və optimal emal üsulunun təyin edilməsi | TİƏ sənədinin hazırlanması və yekun investisiya qərarının qəbul edilməsi | Yekun investisiya qərarına uyğun olaraq tikinti işlərinin həyata keçirilməsi |
| 8.5.3. | Elbəydaş filiz yatağının minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi və istismara hazır vəziyyətə gətirilməsi | ANAMA | ETSN | 2027 2028 | Yataq ərazisində mina və partlayıcı sursatlarla çirklənmiş sahələrin müəyyənləşdirilməsi | Müəyyən edilmiş sahələrin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi | Təmizlənmiş yataq ərazisinin istismara hazır vəziyyətə gətirilməsi |
| 8.5.4. | "R.V. Investment Group Services, LLC" və onun əməliyyat şirkəti tərəfindən Ağdərə rayonunda Dəmirli mədən-filiz yatağının istismarının davam etdirilməsinin dəstəklənməsi | "AzerGold" QSC | İN, ETSN | 2027 2030 | "R.V. Investment Group Services, LLC" ilə bağlanmış müvafiq sazişə uyğun olaraq Dəmirli mədən-filiz yatağının istismarının davamlılığına mane olan problemlərin müəyyən edilməsi | Müəyyən edilmiş problemlərin aradan qaldırılması ilə bağlı zəruri dəstək tədbirlərinin həyata keçirilməsi | |

*Ardı 6-cı səh.*

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasında dağ-mədən(metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 5-ci səh.*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.5.5. | "R.V. Investment Group Services, LLC" və onun əməliyyat şirkəti tərəfindən Xarxar və Qaradağ mədən-filiz yataqları üzrə işlənmə və hasilat dövrünə keçidin təmin edilməsinə dəstək göstərilməsi | "AzerGold" QSC | İN, ETSN | 2027–2028 | "R.V. Investment Group Services, LLC" ilə bağlanmış müvafiq sazişə uyğun olaraq Xarxar və Qaradağ yataqları üzrə işlənmə və hasilat dövrünə keçidin təmin edilməsi məqsədilə problemlərin müəyyən edilməsi | Müəyyən edilmiş problemlərin aradan qaldırılması ilə bağlı zəruri dəstək tədbirlərinin həyata keçirilməsi | |
| 8.5.6. | Naxçıvan Muxtar Respublikasında qızıl və mis yataqlarının istismara cəlb edilməsi | "AzerGold" QSC | ETSN, İN | 2027–2030 | Ortakənd qızıl yatağı üzrə TİƏ sənədinin yekunlaşdırılması və yekun investisiya qərarının verilməsi | Ortakənd qızıl yatağı üzrə emal müəssisəsinin tikintisinə başlanılması, digər prioritet yataqlar üzrə ilkin qiymətləndirmə aparılması | Ortakənd yatağı üzrə hasilata başlanılması və digər prioritet yataqların istismara cəlbi ilə bağlı yekun investisiya qərarının qəbul olunması |
| 8.5.7. | Strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla)emalı imkanlarının və Azərbaycan Respublikasının bu sahədə regional mərkəz kimi formalaşması perspektivlərinin araşdırılması | İN | ETSN | 2027–2030 | Strateji əhəmiyyətli mineralların (nadir torpaq elementləri daxil olmaqla) prioritet siyahısının müəyyən edilməsi və onların emalı üzrə mövcud potensialının qiymətləndirilməsi | Prioritet minerallar üzrə potensial məhsul qruplarının, emal texnologiyalarının, xammal təminatının, investisiya və ekoloji tələblərin qiymətləndirilməsi və perspektivli istehsal istiqamətlərinin seçilməsi | Perspektivli emal istiqamətləri üzrə investisiya imkanlarının və Azərbaycan Respublikasının regional emal mərkəzi kimi formalaşması üçün zəruri institusional, texnoloji və investisiya mexanizmlərinin müəyyən edilməsi |
| 8.5.8. | Ölkə ərazisində yerli və idxal xammal əsasında mis emalı üzrə metaləritmə müəssisələrinin yaradılması imkanlarının araşdırılması və müvafiq təkliflər hazırlanması | İN | "AzerGold" QSC | 2027–2028 | Yerli və idxal xammalı əsasında mis emalının mövcud vəziyyətinin, xammal təminatı imkanlarının, daxili və xarici bazar tələbinin araşdırılması və qiymətləndirilməsi | Mis emalı üzrə metaləritmə müəssisələrinin yaradılmasının texniki-iqtisadi səmərəliliyinin, potensial istehsal güclərinin və məhsulların daxili və xarici bazarlarda satış imkanlarının qiymətləndirilməsi və müvafiq təkliflər hazırlanması | Aparılmış qiymətləndirmənin nəticələri və hazırlanmış təkliflər əsasında mis emalı üzrə metaləritmə müəssisələrinin yaradılmasının məqsədəuyğunluğuna dair qərar qəbul edilməsi |
| 8.5.9. | Əlvan və qiymətli metallar, eləcə də strateji əhəmiyyətli minerallar (nadir torpaq elementləri daxil olmaqla) sahəsində inkişafın təşviqi məqsədilə əlavə stimullaşdırıcı tədbirlər və güzəşt mexanizmləri üzrə təkliflər hazırlanması | İN | "AzerGold" QSC, ETSN, MN | 2027–2030 | Müvafiq sahədə mövcud bazar şəraitinin, investisiya mühitinin təhlil edilməsi və əlavə stimullaşdırma ehtiyaclarının qiymətləndirilməsi | Əlavə stimullaşdırıcı tədbirlərin və güzəşt mexanizmlərinin iqtisadi səmərəliliyinin və tətbiqi imkanlarının qiymətləndirilməsi, məqsədəuyğun mexanizmlər üzrə təkliflər hazırlanması və aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Hazırlanmış təkliflər əsasında iqtisadi cəhətdən məqsədəuyğun hesab edilən əlavə stimullaşdırıcı tədbirlərin və güzəşt mexanizmlərinin tətbiqinə dair qərarların qəbul edilməsi |
| **Prioritet istiqamət 8.6. İnsan kapitalının və elmi potensialın gücləndirilməsi** | | | | | | | |
| 8.6.1. | Dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin tələbatına uyğun ixtisaslı kadr hazırlığının və peşə bacarıqlarının inkişaf etdirilməsi | ETN | İN | 2027–2030 | Müvafiq qurumların sifarişi əsasında ixtisasartırma və təlim proqramlarının hazırlanması | İxtisasartırma və təlim proqramlarının tətbiq edilməsi | Müvafiq sahənin tələblərinə uyğun ixtisaslı mütəxəssislərin hazırlanması və müəssisələrin ixtisaslı işçi qüvvəsi ilə təminatının gücləndirilməsi |
| 8.6.2. | Dağ-mədən (metal filizləri) və metallurgiya sənayesi üzrə elmi potensialın artırılması, araşdırma və inkişafın dəstəklənməsi, ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığının gücləndirilməsi | ETN | İN | 2027–2030 | Müvafiq sahədə elmi potensial və ali təhsil müəssisələri-sənaye əməkdaşlığının mövcud vəziyyətinin təhlil edilməsi | Araşdırma və inkişafın dəstəklənməsi və elm, ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığının genişləndirilməsi üzrə proqram və təşəbbüslərin hazırlanması | Elmi araşdırmaların dəstəklənməsi və elm, ali təhsil müəssisələrinin sənaye ilə əməkdaşlığı əsasında müvafiq sahədə innovasiya və kadr potensialının gücləndirilməsi |

**9. Akronimlər və ixtisarlar**

| | | |
|---|---|---|
| AİBNDA | - | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |
| AİH | - | Azərbaycan İnvestisiya Holdinqi |
| ANAMA | - | Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi |
| "AzerGold" QSC | - | "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti |
| ETN | - | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| ETSN | - | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| ƏN | - | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| ƏƏSMN | - | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| İN | - | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| MN | - | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| RİNN | - | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| SOCAR | - | Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti |

## Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslərin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat və Dendrologiya Bağı" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməsi yolu ilə yenidən təşkili haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 310** **Bakı şəhəri, 22 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.2-ci bəndinə və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslər Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat və Dendrologiya Bağı" Məhdud Məsuliyyətli Cəmiyyətinə (bundan sonra - Cəmiyyət) çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. Cəmiyyətin işçilərinin say həddi 230 ştat vahidi müəyyən edilsin.

3. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

3.2.1. Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən olunması, onlarda dəyişiklik edilməsi;

3.2.2. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, törəmə cəmiyyətlərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

3.3. Bakı Şəhər İcra Hakimiyyətinə:

3.3.1. bu Qərarın 3.1.1-ci, 3.2.1-ci və 3.2.2-ci yarımbəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Bakı Şəhər İcra Hakimiyyəti:

4.1. Cəmiyyətin nizamnaməsi və nizamnamə kapitalının miqdarı ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

4.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Cəmiyyətin strukturunu, əməkhaqqı sistemini və xərclər smetasını üç ay müddətində təsdiq etsin;

4.3. Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

4.4. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Cəmiyyətin nizamnaməsinin təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi və dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

6. "Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslərin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 7 yanvar tarixli 5 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 1, maddə 57 (Cild I) 3-cü, 4-cü və 8-ci hissələri ləğv edilsin.

7. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

8. Bu Qərarın 6-cı hissəsi Cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 311** **Bakı şəhəri, 22 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, № 1, maddə 80, № 2, maddə 178, № 4, maddə 383, № 5 (II kitab), maddələr 452, 466; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 15 iyul tarixli 216 nömrəli, 20 iyul tarixli 221 nömrəli və 9 sentyabr tarixli 282 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə 7415 33 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (1000 kq - 15 ABŞ dolları*) " sözləri "15 (1000 kq - 15 ABŞ dolları, 31.12.2029-cu il tarixinədək 1000 kq - 300 ABŞ dolları*)" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycanın və Fransanın xarici işlər nazirləri qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Barro ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, nazirlər ikitərəfli gündəliyi nəzərdən keçirib, Azərbaycan-Aİ münasibətlərini müzakirə edib, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran məsələlər daxil olmaqla, əsas regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Azərbaycan və Belarus konsulluq əməkdaşlığı üzrə memorandum imzalayıb

**BMT-nin Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Belarusun xarici işlər naziri Maksim Rıjenkov ilə görüşərək, Azərbaycan-Belarus strateji tərəfdaşlığını və onun gələcək inkişaf perspektivlərini müzakirə edib.**



AZƏRTAC xəbər verir ki, tərəflər ikitərəfli əlaqələrin möhkəmləndirilməsində yüksəksəviyyəli siyasi dialoqun və hər iki ölkənin liderləri arasındakı təmasların, eləcə də ticarət-iqtisadi əməkdaşlığın inkişafında Birgə Hökumətlərarası Komissiyanın mühüm rolunu vurğulayıblar. Həmçinin BMT, MDB, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalar çərçivəsində sıx əlaqələndirmənin əhəmiyyəti qeyd olunub.

İkitərəfli danışıqlardan sonra nazirlər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında 2027-2028-ci illər üçün Əməkdaşlıq Planı"nı imzalayıblar.

Bundan əlavə, tərəflər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq məsələləri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

Bu sənədlər tərəfdaşlığımızın institusional əsaslarını daha da möhkəmləndirəcək və qarşıdakı illərdə ikitərəfli əlaqələndirməni yeni səviyyəyə qaldıracaq.

**Bağışlamaq qəlbin böyüklüyüdür**

## Humanizm prinsiplərinə sadiqlik

**Dünəndən kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yer alan bu xoş xəbər ölkəmizin şəhər və kəndlərini dolaşmaqdadır. İnsanlar bu böyüklüyü alqışlayırlar. Axı, bağışlamaq çox yüksək insani keyfiyyətdir. Onlar bu xeyirxahlığı göstərərək neçə ailəyə sevinc bəxş edən dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.**

Məlum olduğu kimi, Prezident İlham Əliyev məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında 23 sentyabr tarixli sərəncam imzalayıb.

Humanizm prinsiplərinə əsaslanan sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 19 şəxs, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş bir nəfər isə cəzasının çəkilməmiş hissəsindən azad edilib.

Azərbaycan Prezidentinin bu sərəncamı istər-istəməz insanlarda xoş əhvali-ruhiyyə yaradıb. İlk olaraq redaksiyamıza telefon açıb, ürək sözlərini bildirən akademik Nizami Cəfərovun dediklərindən: "İlk əvvəl cənab Prezidentə qəbul etdiyi belə bir humanist qərara görə təşəkkürümü bildirir, əfv olunanları və onların ailə üzvlərini təbrik edirəm. Ölkə rəhbərimiz onlara rəhm eləməklə, gözü yolda qalanları sevindirdi, çırağı sönmüş ailələrin evinin işığı yenidən yandı... Mən bunu çox yüksək qiymətləndirirəm. Biz artıq bir neçə ildir ki, cənab Prezident tərəfindən əhalinin bu cür sevindirilməsinin şahidi oluruq. Günahı olanın günahı bağışlanır. Bunu mən ölkə başçısının böyüklüyü hesab edirəm".



Paytaxt Bakıdan, eləcə də respublikamızın ayrı-ayrı bölgələrindən, xüsusən də ziyalılar, ağsaqqal və ağbirçəklər tərəfindən redaksiyamıza daxil olan telefon zənglərində, internet vasitəsilə müraciətlərində onlar əfv sərəncamı ilə əlaqədar cənab Prezidentə öz təşəkkürlərini bildirməklə yanaşı, ölkəmizdə, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng işlərə görə dövlət başçısına uğurlar arzulayırlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# 6 il əvvəlki xəbərdarlıq və "dəmir yumruğ"un təntənəsi

**Otuz ilə yaxın ərazilərinin 20 faizi işğal altında saxlanılan Azərbaycan təcavüzkar Ermənistanla danışıqlar apararaq münaqişəni ilk növbədə sülh yolu ilə nizamlamağa çalışırdı. Bakı öz torpaqlarının müharibəsiz qaytarılmasının tərəfdarı olsa da, vasitəçilik effekt vermir, müzakirələr nəticəsiz qalırdı. Üstəlik, Ermənistan tərəfinin ozamankı status-kvonu möhkəmləndirmək və yeni ərazilər zəbt etmək niyyəti aydın şəkildə üzə çıxırdı. Təbii ki, Azərbaycan işğalla barışa bilməzdi və barışmadı. Bu səbəbdən, ölkəmiz sülh danışıqlarına paralel olaraq öz imkanlarını, iqtisadi müstəqilliyini, hərbi qüdrətini və beynəlxalq nüfuzunu artırmağa davam edirdi.**

Düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə zənginləşdirilir, hərbçilərin bilik və bacarıqları artırılırdı. Eyni zamanda diplomatik müstəvidə yürüdülən çoxşaxəli və prinsipial xarici siyasət, beynəlxalq təşkilatlar, xarici dövlətlərlə fəal işin aparılması, habelə regional enerji və kommunikasiya layihələri Azərbaycanın mövqeyini daha da möhkəmləndirirdi. Ölkəmizin nüfuzu artır, bölgədə Azərbaycanın iradəsi həlledici olurdu. Bütün bu amillər torpaqlarımızın işğaldan azad edilməsini sadəcə zaman məsələsinə çevirirdi. Real güc nisbəti qarşısında belə Bakı son ana qədər məsələnin qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həllinə şans verirdi. Təəssüf ki, rəsmi İrəvan konstruktiv mövqe nümayiş etdirmək əvəzinə, vəziyyəti daha da gərginləşdirmək yolunu tuturdu.

Azərbaycanın dəfələrlə Ermənistanı işğal etdiyi əraziləri azad etməyə çağırmasına baxmayaraq, qarşı tərəf buna məhəl qoymur, yeni torpaqlar işğal etmək niyyətinə düşür, ardıcıl hərbi təxribatlar yolunu seçirdi. Həmçinin danışıqlar prosesinin formatını və məzmununu məhv edərək, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməkdən boyun qaçırır, sülh tərəfdarı olmadığını açıq şəkildə ortaya qoyurdu. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" bəyanatı işğalçılıq siyasətinin ən bariz etirafı oldu. Paralel olaraq, İrəvan qondarma rejimi "dövlət" adlandırır, şəhər və kəndlərimizin adlarını dəyişdirir, ölkəmizi yeni müharibə ilə hədələyirdi. Həmin dövrdə müdafiə naziri olmuş D.Tonoyan açıq şəkildə bəyan edirdi ki, Ermənistan yeni əraziləri zəbt etmək uğrunda müharibəyə hazırlaşır.

İrəvanın təxribatçı addımları tezliklə hərbi müstəviyə keçdi. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, işğal faktını ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək idi. Lakin Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək bu planı boşa çıxardı. İrəvan bundan nəticə çıxarmayaraq 2020-ci ilin avqust ayında terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi, lakin bu təxribat planı da hərbçilərimiz tərəfindən pozuldu. Baş verənlər fonunda danışıqlar prosesi tamamilə dalana dirəndi, demək olar ki, nəticəsiz şəkildə dayanmışdı. Çünki Ermənistan rəhbərliyi prosesi imitasiya xatirinə aparırdı.

Gedişatı düzgün dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il sentyabrın 24-də, yəni hərbi əməliyyatların başlamasından bir neçə gün öncə BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı zamanı dünya birliyinin diqqətini baş verən hadisələrə yönəltdi. Dövlətimizin başçısı Ermənistanın yeni təxribatları və təcavüzkar siyasəti barədə xəbərdarlıq edərək, beynəlxalq aləmi İrəvana təzyiq göstərməyə və təxribatlardan çəkindirməyə çağırdı. Prezident İlham Əliyev Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadığını, işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasəti yürütdüyünü, Azərbaycan xalqına məxsus mədəni irsi talan etdiyini və təmas xətti boyunca mülki vətəndaşlarımızı məqsədyönlü şəkildə hədəfə aldığını diqqətə çatdırdı.

İyul təxribatına toxunan dövlətimizin başçısı bildirdi ki, 2020-ci il iyulun 12-də Ermənistanın növbəti təxribatı nəticəsində hərbçilərimiz və 76 yaşlı mülki vətəndaşımız həlak oldu, mülki infrastruktura ciddi zərər dəydi. Daha sonra avqust ayındakı diversiya cəhdini xatırladan Prezident İlham Əliyev yaxalanan dəstə başçısının mülki vətəndaşlara qarşı terror aktları planlaşdırdığını etiraf etdiyini vurğuladı. Dövlətimizin başçısı həmin ilin mart ayında Azərbaycanın işğal olunmuş torpaqlarında təşkil edilmiş qondarma "seçkiləri", Ermənistan rəsmilərinin hədələrini, Mingəçevir su anbarı və neft-qaz terminalları kimi strateji obyektlərin hədəf seçilməsini növbəti təxribat cəhdləri adlandırdı.

Bütün bu faktları beynəlxalq ictimaiyyətin nəzərinə çatdıran Azərbaycan Prezidenti Ermənistanın irimiqyaslı müharibəyə hazırlaşdığını aydın şəkildə bəyan etdi: "Ermənistan rəhbərliyinin düşməncəsinə verilən bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Ermənistan rəhbərliyi bu xəbərdarlıqdan dərs çıxarmadı, beynəlxalq ictimaiyyət isə İrəvana təzyiq etmədi. Beynəlxalq birliyin seyrçi mövqeyi və hüququn aliliyini təmin etməkdə acizliyi Ermənistanın arxayınlaşmasına və növbəti avantüralara əl atmasına zəmin yaratdı. Düşmən tərəfin hərbi-siyasi rəhbərliyinin israrlı və davamlı təxribatları müharibəni qaçılmaz etdi.

Nəticədə 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına cavab olaraq Azərbaycan Ordusu əks-hücuma keçdi və "Dəmir yumruq" əməliyyatı Vətən müharibəsinə çevrildi. Bütün cəbhələrdə erməni silahlı qüvvələrini darmadağın edən Azərbaycan öz doğma torpaqlarını otuzillik düşmən işğalından azad etdi. Dövlətimizin başçısı İlham Əliyevin xəbərdarlıqlarından dərs çıxartmayan işğalçı Ermənistan öz təcavüzkar siyasətinin acı nəticələri ilə üz-üzə qalaraq kapitulyasiya sənədinə imza atmağa məcbur oldu.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Sülhün və təhlükəsizliyin ünvanı

**Dünyanın müxtəlif yerlərində müharibələrin getdiyi, geosiyasi gərginliyin artdığı, etimad böhranının kəskinləşdiyi bir dövrdə Azərbaycan sabitliyi, təhlükəsizliyi ilə seçilən nadir ölkələrindəndir. Bu gün Bakı təkcə regional deyil, qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu əsas dialoq platformalarından biri kimi qəbul edilir.**



Ölkəmizin formalaşdırdığı bu etibarlı mühit beynəlxalq birliyin diqqətini mütəmadi olaraq paytaxtımıza cəlb edir. Müasir təhdidlərə qarşı birgə həll yollarının axtarılması Bakını qlobal təhlükəsizlik ictimaiyyətinin mərkəzi ünvanına çevirib və burada ardıcıl keçirilən mötəbər tədbirlər mövcud sabitliyin və qazanılan diplomatik etimadın bariz göstəricisidir.

## Bakı platformasının beynəlxalq səviyyədə artan nüfuzu

Bu günlərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı ilə beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumu öz işinə başlayıb.

İlkin müzakirələr zamanı vurğulanıb ki, Bakıda keçirilən beynəlxalq forum xüsusi xidmət və təhlükəsizlik orqanları üçün vacib dialoq platformasıdır. 600-ə yaxın yüksəksəviyyəli nümayəndənin iştirakı qlobal təhlükələrə qarşı forum çərçivəsində 2023-cü ildən başlanan davamlı dialoqun coğrafi miqyasının genişləndiyini göstərir, milli təcrübələrin müqayisəsi, peşəkar əlaqələrin inkişafı və birgə həllərin axtarışı üçün geniş imkanlar yaradır. Tərəfdaş qurumların rəhbərlərinin bu tədbirdə geniş iştirakı Bakı platformasına olan etimadı göstərir və müzakirələrin praktiki əməkdaşlığa çevrilməsi imkanlarını artırır.

Diqqətə çatdırılıb ki, kiberimkanlar, süni intellekt və kosmik sistemlər uğrunda qlobal rəqabət güclənir. Silahlanma xərcləri və münaqişələr regional proseslərə, enerji və ərzaq təhlükəsizliyinə ciddi təsir edərək, terrorçuluq üçün əlverişli zəmin yaradır. Dünyanın istənilən regionundakı böhranlar qısa müddətdə qlobal təhlükəyə çevrilə bilər. Bakı Təhlükəsizlik Forumunda risklərin və təhdidlərin qarşılıqlı əlaqədə qiymətləndirilməsi isə ölkələrin daha hazırlıqlı olmasına xidmət edir.

100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərini və yüksəksəviyyəli nümayəndəni bir araya gətirən bu tədbir öz miqyasına görə unikal bir formata sahibdir. Bu göstərici Bakı platformasının beynəlxalq təhlükəsizlik qurumları üçün nə qədər etibarlı dialoq məkanı olduğunu aydın sübut edir.

Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciətdə də deyilir ki, artıq dördüncü dəfə Bakıda keçirilən bu forum müxtəlif ölkələrin xüsusi xidmət və təhlükəsizlik orqanlarının rəhbər və nümayəndələrini bir araya gətirməklə beynəlxalq təhlükəsizlik sahəsində fikir mübadiləsi və qarşılıqlı əməkdaşlığın inkişafı üçün mühüm imkan yaradır: "Forumun iştirakçı coğrafiyasının ildən-ilə genişlənməsi və müzakirə olunan məsələlərin aktuallığı Bakı platformasının beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir".

Ölkəmizin rəhbəri bildirib ki, etimad böhranının kəskinləşməsi və qarşılıqlı anlaşmanın çətinləşməsi milli təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsini və beynəlxalq sabitliyin qorunmasını bütün ölkələrin qarşısında duran fundamental və təxirəsalınmaz prioritetə çevirir.

Dövlət başçısı xüsusilə vurğulayıb ki, bu şəraitdə terrorçuluğa qarşı mübarizə yalnız ayrı-ayrı ölkələrin səyləri ilə məhdudlaşmamalı, beynəlxalq əməkdaşlığın və birgə fəaliyyətin mühüm istiqamətlərindən biri olaraq qalmalıdır.

## Diqqət Azərbaycana yönəlib

IV Bakı Təhlükəsizlik Forumu Azərbaycanın qlobal sülh və sabitliyə töhfə verən əsas mərkəzlərdən biri olduğunu təsdiqlədi.

Bakının belə bir mötəbər toplantıya evsahibliyi etməsi təsadüfi deyil. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər və 2023-cü ildə suverenliyini tam təmin etməsi Cənubi Qafqazın təhlükəsizlik xəritəsini kökündən dəyişdi. İllərlə davam edən münaqişəyə son qoyan rəsmi Bakı regionda uzunmüddətli sülhün bünövrəsini qoydu. Ötən il Vaşinqtonda Birgə Bəyannamənin imzalanması, sülh müqaviləsi mətninin paraflanması bölgənin inkişafı və daha geniş coğrafiyalarla əməkdaşlıq üçün geniş imkanlar yaratdı. Azərbaycanın öz gücü və qətiyyətli siyasəti ilə yaratdığı bu yeni reallıq hazırda beynəlxalq aləm tərəfindən də açıq şəkildə etiraf olunur.

Ölkədəki sabitlik və etibarlı tərəfdaş imici dünya güclərinin diqqətini Azərbaycana yönəldir. Belə ki, Çin, Avropa İttifaqı rəsmi Bakı ilə əlaqələrə xüsusi önəm verir. Məlumdur ki, Azərbaycan Avropanın enerji təchizatında kritik rol oynayır. Bu mənada etibarlı tərəfdaş olan Azərbaycanla əməkdaşlıq Aİ üçün böyük əhəmiyyət kəsb edir. Eyni zamanda Asiya ilə Avropanı birləşdirən və strateji nəqliyyat marşrutu olan Orta dəhlizin təhlükəsiz fəaliyyəti məhz Azərbaycanın coğrafi və siyasi mövqeyindən birbaşa asılıdır.

Bütün bunlar dünya güclərinin, eləcə də çoxsaylı ölkələrin nədən Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirmələrinin izahıdır.

Son günlər paytaxtda təşkil olunan digər beynəlxalq görüşlər də Azərbaycanın həm siyasi, həm də təhlükəsizlik sahəsindəki nüfuzunun göstəricisidir.

Türk Dövlətləri Təşkilatının (TDT) Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci iclası, Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans, TDT-yə üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 5-ci toplantısı kimi beynəlxalq tədbirlərin ard-arda Bakıda həyata keçirilməsi ölkəmizin regional liderliyinin məntiqi nəticəsidir.

Bu mötəbər görüşlər, xüsusən də IV Bakı Təhlükəsizlik Forumu göstərir ki, Azərbaycan milli maraqlarını qətiyyətlə qorumaqla yanaşı, qlobal miqyasda dialoqu, qarşılıqlı etimadı və sülhü təşviq edən strateji mərkəzdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bakı Təhlükəsizlik Forumu dünyanı narahat edən təhdidlərlə mübarizəyə mühüm töhfələr verəcək

**Ölkəmiz bu günlər mühüm bir beynəlxalq tədbirə - IV Bakı Təhlükəsizlik Forumuna evsahibliyi edir. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı ilə beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumu keçirilir.**

Təəssüflər olsun ki, hazırda hamımızın ümumi evi olan dünyamız müxtəlif çağırışlarla, təhlükəsizlik problemləri, o cümlədən müharibələr, münaqişələr, terror hücumları, separatizm və başqa təhdidlər içində çalxalanmaqdadır. Təbiidir ki, dünyamızı insanlara ölüm və səfalət gətirən bu qlobal xarakterli təhlükəli hadislərdən xilas etmək üçün aparılan mübarizə əlaqələndirilmiş şəkildə olmalıdır. Bu və ya digər məsələlərin müzakirə olunacağı, müvafiq qərarların qəbul ediləcəyi IV Bakı Təhlükəsizlik Forumu dünyamız üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Ölkəmizdə keçirilən bu tədbiri dünya ictimaiyyəti də maraqla izləyir. Bu da ondan irəli gəlir ki, Bakı Təhlükəsizlik Forumu dünya ölkələrinin xüsusi xidmət orqanlarının nümayəndə heyətlərinin təmsil olunduğu, beynəlxalq münaqişələri qarşılıqlı anlayış əsasında müzakirə etmələrinə əlverişli şərait yaradan yüksək dəyərli bir platformadır. Həmçinin forum dünyamızın təhlükəsizlik məsələlərinin ətraflı müzakirə olunduğu qlobal təhlükəsizlik mühitinin üzləşdiyi müasir çağırış və təhdidlərlə effektiv mübarizənin aparılması, onun mənfi təzahürlərdən qorunması sahəsində vahid yanaşmaların formalaşması, səylərin birləşdirilməsi və artırılması üçün beynəlxalq əhəmiyyətli tədbirdir.

Prezident İlham Əliyev IV Bakı Təhlükəsizlik Forumunun iştirakçılarına müraciət edib. Dövlətimizin başçısı iştirakçıları salamlayaraq forumun beynəlxalq təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı, fikir və təcrübə mübadiləsinin aparılması baxımından böyük əhəmiyyəti olduğunu vurğulayıb. Prezident İlham Əliyev müraciətində bildirib ki, "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusuna həsr olunan IV Bakı Təhlükəsizlik Forumu aktual məsələlərin müzakirəsi baxımından mühüm platformadır.

Məlum həqiqətdir ki, dünyanın ayrı-ayrı bölgələrində baş verən hadisələr, beynəlxalq təhlükəsizlik sistemində müəyyən çətinlik və gərginliklər yaradır. Terrorçuluq, transmilli cinayətkarlıq, qeyri-qanuni miqrasiya halları, narkotik maddələrin dövriyyəsi və başqa cinayət halları durmadan artır. Təbiidir ki, belə qlobal xarakterli cinayətkarlıqla təkbaşına mübarizə aparmaq o qədər də asan iş deyil. Deməli, bu neqativ halların qarşısının qətiyyətlə alınmasında etibarlı tərəfdaşlıq olduqca vacibdir.

Prezident İlham Əliyev müraciətində dünyamız və cəmiyyətimiz üçün bu mühüm məqama xüsusi diqqət çəkərək qeyd edib ki, dünyada sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması bütün dövlətlərin ortaq məsuliyyətidir. Müasir çağırışların miqyası və təhdidedici xarakteri qarşılıqlı əməkdaşlığın gücləndirilməsini, çevik və əlaqələndirilmiş yanaşmaların tətbiqini zəruri edir. Çünki təhlükəsizlik anlayışı artıq ayrı-ayrı dövlətlərin sərhədləri ilə məhdudlaşmır. Hər hansı bir regionda meydana gələn böhran və ya gərginlik ocağı qısa müddət ərzində digər regionlara təsir göstərə, siyasi və iqtisadi sabitliyə, enerji və ərzaq təhlükəsizliyinə xələl gətirə, nəqliyyat və kommunikasiya əlaqələrində ciddi fəsadlara yol aça bilir. Terrorçuluq və ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, qanunsuz silah və narkotik dövriyyəsi, kibercinayətkarlıq və digər transsərhəd təhdidlər də məhz bu qarşılıqlı bağlılıqdan istifadə edərək daha mürəkkəb xarakter alır.

IV Bakı Təhlükəsizlik Forumunda dünyamız üçün həlli vacib olan qlobal məsələlər müzakirə olunub. Müzakirələr zamanı vurğulanıb ki, Bakıda keçirilən beynəlxalq forum xüsusi xidmət və təhlükəsizlik orqanları üçün olduqca vacib dialoq və qarşılıqlı əməkdaşlıq üçün yaradılmış geniş imkandır. Forumda 600-ə yaxın yüksəksəviyyəli nümayəndənin iştirak etməsi qlobal təhlükələrə qarşı 2023-cü ildən başlanan davamlı dialoqun coğrafi miqyasının genişləndiyini aydın şəkildə göstərir.

Təhlükəsizlik qurumlarının rəhbərlərinin forumda iştirakı Bakı platformasına olan etimadın, inamın daha da artdığını nümayiş etdirir və qarşılıqlı səmərəli müzakirələrin praktiki əməkdaşlığa gətirib çıxarmasını yüksək səviyyədə təmin edir. Forum həm də mövcud təhdidlərə qarşı indiyə qədər əldə olunan milli təcrübələrin birgə müqayisə olunması, peşəkar əlaqələrin inkişafı və birgə həllərin axtarışı üçün geniş imkanlar yaradır. Qarşılıqlı əlaqələrin daha da artırılmasına, əməkdaşlığın sistemləşdirilməsinə, nizamlanmasına güclü təkan verir. Forum siyasi yanaşmalardakı fərqlərinə baxmayaraq, əməkdaşlığı təşviq etməsi, ortaq təhlükələrə qarşı ünsiyyət kanallarının etibarlı şəkildə qorunması baxımından da əhəmiyyətlidir.

Forumdakı çıxışlar zamanı o da vurğulanıb ki, təhlükəsizlik yalnız sərhədlərin qorunması deyil, enerji, nəqliyyat, bank, su ehtiyatları, rabitə və informasiya məkanı dövlət xidmətlərinin dayanıqlılığının mühüm tərkib hissələridir. Zaman keçdikcə süni intellekt və kosmik sistemlər uğrunda qlobal rəqabət güclənir. Gözlənilmədən baş verən münaqişələr, qarşıdurmalar, dünyada gedən regional proseslərə, enerji və ərzaq təhlükəsizliyinə ciddi təsir göstərir. Bütün bu hallar da terrorçuluq üçün əlverişli zəmin yaradır. Buna görə də dünyanın istənilən regionunda baş verən böhranların qlobal təhlükəyə çevrilə biləcəyinin qarşısının alınması üçün təhlükəsizlik orqanlarının qarşılıqlı əməkdaşlıq etməsi zərurətə çevrilməlidir.

Məhz IV Bakı Təhlükəsizlik Forumunun keçirilməsində də məqsəd ölkələrin gözlənilmədən risklər və təhdidlərlə qarşılaşdıqları zaman onunla mübarizə aparmaq üçün sistemli və etibarlı dialoqun inkişaf etdirilməsini təşkil və təmin etməkdir. Məqsəd müxtəlif ölkələrin xüsusi xidmət və təhlükəsizlik orqanları arasında əməkdaşlığın genişləndirilməsi, müasir təhdidlərə qarşı birgə yanaşmaların müəyyənləşdirilməsi və etibarlı əlaqələrin yaradılmasıdır.

Artıq dördüncü dəfədir ki, Bakıda keçirilən forumda beynəlxalq təhlükəsizlik sahəsində ciddi fikir mübadiləsi aparılır, mövcud imkanlar götür-qoy edilir və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi üçün mühüm qərarlar qəbul olunur. İnanırıq ki, bu dəfə qəbul olunan qərarlar daha da təhlükəsiz, əmin-amanlıq hökm sürən bir dünyada yaşamağımıza və fəaliyyət göstərməyimizə böyük töhfələr verəcək. Bakı Təhlükəsizlik Forumu müxtəlif siyasi sistemlərə malik ölkələrin bir araya gəlməsində, dünyamızı narahat edən təhdidlərə qarşı birgə mübarizə aparılmasında mühüm rol oynayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Yeni dövlət proqramı iqtisadiyyatın inkişafına böyük imkanlar yaradacaq

**Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş hər bir dövlət proqramı, imzalanan fərman və sərəncamlar dövlətimizin və xalqımızın milli maraqlarına əsaslanır, iqtisadiyyatımızın inkişafına, təhlükəsizliyimizin təmin edilməsinə, ölkə vətəndaşlarının rifahının yüksəldilməsinə xidmət edir. Son aylarda qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarınn istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı" bunu deməyə əsas verir.**



**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir RZAYEV** qəzetimizə açıqlamasında deyib ki, bu proqramları iqtisadi inkişafımızın yol xəritəsi adlandırmaq olar. Proqramlar konkretdir, icra və nəzarət mexanizmləri də hazırdır. "Ölkəmizin rəhbəri dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirədəki çıxışında bildirdi ki, bu sahə ölkə iqtisadiyyatı üçün, xüsusilə qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyır, çox perspektivli sahədir.

Qəbul olunmuş proqramlar həm ölkə iqtisadiyyatını gücləndirəcək, həm də vətəndaşların sosial vəziyyətini və müasir infrastrukturla təmin olunmasını təmin edəcək. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə dağ-mədən və metallurgiya sənayesinin qarşıdakı illərdə inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət proqramının hazırlanması bu sahəyə dövlət səviyyəsində göstərilən diqqətin və uzunmüddətli inkişaf strategiyasının növbəti göstəricisidir", - deyə deputat bildirib.

Komitə sədri qeyd edib ki, Prezidentin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətdə qeyri-neft sektorunun inkişafı, sənaye istehsalının genişləndirilməsi, regionların iqtisadi potensialından səmərəli istifadə və yeni iş yerlərinin yaradılması əsas istiqamətlərdəndir. Dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair yeni Dövlət Proqramı da bu məqsədlərlə uzlaşır. Burada söhbət yalnız yeni mədənlərin istismarından və xammal hasilatının artırılmasından getmir. Əsas məsələ Azərbaycanın mineral-xammal ehtiyatlarının daha səmərəli istifadəsi, hasil olunan xammalın ölkə daxilində emalının genişləndirilməsi və yüksək əlavə dəyər yaradan məhsulların istehsalının artırılmasıdır. Bu baxımdan xammaldan hazır məhsula qədər vahid istehsal zəncirinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Sənəddə mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında əlaqələrin gücləndirilməsi, metal emalının genişləndirilməsi və metallurgiya məhsullarının ixrac potensialının artırılması kimi mühüm istiqamətlər müəyyənləşdirilib.

"Dövlət proqramında alüminium sənayesinin inkişafı da xüsusi yer tutur. "Xammal-emal-son məhsul" prinsipinin tətbiqi ilə istehsal imkanlarının genişləndirilməsi, elektroliz və alüminium yayma məhsullarının istehsal gücünün artırılması ölkənin sənaye potensialının gücləndirilməsinə xidmət edən mühüm addımlardır. Prezident İlham Əliyevin regionların sənaye potensialının artırılması ilə bağlı həyata keçirdiyi siyasət də bu prosesin mühüm hissəsidir. Gəncə və Şəmkir ərazilərində Qərb Sənaye Parkının yaradılması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması və sənaye infrastrukturunun genişləndirilməsi regionların iqtisadi fəallığının artırılmasına hesablanıb. Dağ-mədən sənayesinin inkişafında işğaldan azad edilmiş ərazilərin potensialından istifadə də mühüm istiqamətdir. Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyətə başlaması bunun konkret nümunələrindən biridir. Burada filizin emalı və mis konsentratının istehsalı həyata keçirilir. Belə layihələr həm ərazilərin iqtisadi potensialının reallaşdırılması, həm də ölkənin sənaye imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir", - deyə Tahir Rzayev bildirib.

Komitə sədri əlavə edib ki, dövlət proqramının qarşıya qoyduğu hədəflər kifayət qədər genişdir. 2030-cu ilədək dağ-mədən və metallurgiya sektorunun ümumi daxili məhsula töhfəsinin 700 milyon manatdan 1,8 milyard manata, illik ixrac potensialının isə 1,3 milyard manatdan 3,4 milyard manata çatdırılması nəzərdə tutulur. 2027-2030-cu illərdə sektora 5,3 milyard manat investisiyanın yatırılması və 5 mindən çox daimi iş yerinin açılması planlaşdırılır.

İnvestisiyaların həm dövlət, həm də özəl sektor hesabına həyata keçirilməsi bu sahənin inkişafında müxtəlif maliyyə mənbələrinin səfərbər edilməsinə imkan verəcək. Özəl sektorun bu prosesə cəlb edilməsi xüsusilə əhəmiyyətlidir, çünki iri investisiya layihələrinin həyata keçirilməsi, yeni texnologiyaların tətbiqi və istehsal imkanlarının genişləndirilməsi üçün dövlət dəstəyi ilə yanaşı, özəl kapitalın imkanlarından da istifadə olunması vacibdir.

Dövlət proqramının aqrar sahə baxımından da müəyyən əhəmiyyət daşıdığını deyən deputat əlavə edib ki, regionlarda sənaye və kənd təsərrüfatının paralel inkişafı yerli iqtisadiyyatın şaxələndirilməsinə, məşğulluğun artırılmasına və əhalinin gəlir imkanlarının genişlənməsinə şərait yarada bilər: "Dağ-mədən və metallurgiya layihələrinin həyata keçirildiyi rayonlarda yaradılan yeni infrastruktur və iqtisadi imkanlar digər sahələrin, o cümlədən kənd təsərrüfatının inkişafına da təsir göstərəcək.

Metallurgiya sənayesinin inkişafı aqrar sektor üçün də müəyyən imkanlar yaradır. Yerli sənaye istehsalının genişlənməsi kənd təsərrüfatında istifadə olunan müxtəlif texnika, avadanlıq və metal konstruksiyaların istehsalının inkişafına təkandır. Bu baxımdan sənaye ilə aqrar sektor arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi regionların kompleks inkişafına xidmət edən amillərdən biri ola bilər. Dövlət proqramında dəmir filizi, alüminium, mis və qızıl istehsalı kimi sahələr xüsusi yer tutur. Bununla yanaşı, yeni yataqların müəyyənləşdirilməsi, geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi və iqtisadi baxımdan səmərəli ehtiyatların sənaye dövriyyəsinə cəlb edilməsi nəzərdə tutulur. Azərbaycanın təbii resurs potensialından səmərəli istifadə etməklə yanaşı, əsas məqsəd həmin resursların ölkə daxilində daha yüksək əlavə dəyər yaradan məhsullara çevrilməsidir. Bu, həm sənayenin inkişafı, həm ixrac imkanlarının genişləndirilməsi, həm də yeni iş yerlərinin yaradılması baxımından mühüm nəticələr verə bilər. Dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı ölkənin daha geniş sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi qiymətləndirilməlidir. Proqramın qarşıdakı illərdə icrası sənaye istehsalının genişləndirilməsi, regionların iqtisadi potensialının artırılması, qeyri-neft ixracının şaxələndirilməsi və mineral resursların iqtisadi dövriyyəyə daha geniş cəlb edilməsi baxımından yeni imkanlar yaradacaq".

T.Rzayev vurğulayıb ki, Prezident İlham Əliyevin bu sahə ilə bağlı verdiyi tapşırıqlar və qəbul etdiyi qərarlar dağ-mədən və metallurgiya sənayesinin inkişafına kompleks yanaşıldığını göstərir. Qarşıdakı dövrdə əsas məqsəd hasilatdan emala, emaldan isə son məhsul istehsalına keçidi təmin etmək, ölkənin sənaye potensialını daha da gücləndirməkdir. Dövlət proqramında qarşıya qoyulan vəzifələr aydın və perspektivlidir. Müşavirədə qeyd olunduğu kimi, yeni güclü sənaye istiqaməti yaradılacaq, minlərlə iş yerləri açılacaq. İşğaldan azad olunmuş Qarabağın və Şərqi Zəngəzurun inkişafı, orada məşğulluğun artırılması daha sürətlə keçəcək. Ölkə büdcəsinə vergilər şəklində böyük vəsait daxil olacaq, güclü ixrac potensialı yaradılacaq. Yeni dövlət proqramı ölkənin qeyri-neft sənayesinin inkişafı baxımından çox əhəmiyyətlidir və iqtisadiyyatımızın gücləndirilməsinə böyük imkanlar yaradacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dağ-mədən sənayesinin inkişafı qeyri-neft sektorunda yeni artım mənbələri yaradacaq

**Prezident İlham Əliyevin sədrliyi ilə dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirə bu sahənin Azərbaycanın iqtisadi inkişafında qarşıdakı dövrdə prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirildiyini göstərir. Müşavirədə ölkənin qeyri-neft sektorunun genişləndirilməsi, regionların iqtisadi potensialından səmərəli istifadə, yeni sənaye müəssisələrinin yaradılması və faydalı qazıntıların hasilatından emalına qədər tam istehsal zəncirinin formalaşdırılması ilə bağlı mühüm məsələlər diqqətə çatdırılıb.**



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Novruzəli ASLANOV** söyləyib.

O bildirib ki, dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı Azərbaycanın qeyri-neft sektorunun şaxələndirilməsi, regionların iqtisadi potensialının artırılması və yeni sənaye imkanlarının yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Proqramın cəmi dörd il ərzində icrası nəzərdə tutulur. Bu müddətdə 5 mindən çox daimi iş yerinin yaradılması, dövlət büdcəsinə əlavə vergi daxilolmalarının təmin edilməsi, ixrac imkanlarının genişləndirilməsi və illik maliyyə təsirinin 1 milyard manatdan çox olması gözlənilir. Bu proses xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün böyük əhəmiyyət kəsb edir. Kəlbəcər, Ağdərə və Zəngilan kimi ərazilərdə qızıl, mis və molibden yataqlarının müasir geoloji üsullarla yenidən qiymətləndirilməsi və istismara hazırlanması həmin ərazilərdə yeni iqtisadi fəaliyyət sahələrinin formalaşmasına, məşğulluğun artmasına və investisiya imkanlarının genişlənməsinə şərait yarada bilər. Burada əsas məqsəd yalnız faydalı qazıntıların hasilatı deyil. Yataqlardan çıxarılan filizin zənginləşdirilməsi və emalının da ölkə daxilində təşkil edilməsi xüsusi əhəmiyyət daşıyır. Beləliklə, xammalın, sadəcə, ixracı əvəzinə daha yüksək əlavə dəyər yaradan istehsal zənciri formalaşdırmaq mümkündür.

"Dağ-mədən sənayesinin inkişafı regionların sosial-iqtisadi inkişafı istiqamətində son iyirmi ildə həyata keçirilən dövlət proqramlarının məntiqi davamı kimi də qiymətləndirilə bilər. 2004-cü ildən başlayaraq regionlarda yolların, məktəblərin, xəstəxanaların, dəmir yollarının və hava limanlarının tikintisi, qazlaşdırma və enerji infrastrukturunun genişləndirilməsi iqtisadi fəaliyyət üçün mühüm baza yaradıb. Bu infrastruktur imkanlarının yeni sənaye layihələri ilə tamamlanması regionların iqtisadi potensialından daha səmərəli istifadə olunmasına imkan verə bilər. Müşavirədə iqtisadi artımın mövcud göstəricilərinə də diqqət yetirilib. ÜDM artım tempinin aşağı düşməsində təbii neft hasilatının azalmasının əsas amillərdən biri olduğu qeyd edilir. Bununla yanaşı, qeyri-neft sektorunda artımın davam etməsi iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm göstəricidir. Dağ-mədən və metallurgiya sənayesinin inkişafı da qeyri-neft sektorunda yeni artım mənbələri yaradacaq", - deyə N.Aslanov vurğulayıb.

Deputat əlavə edib ki, "Filizçay" polimetal yatağı, "Daşkəsən" filiz yatağı və Qərb Sənaye Parkı ilə bağlı layihələr xüsusi əhəmiyyət daşıyır. Qərb Sənaye Parkında filiz hasilatı ilə yanaşı, zənginləşdirmə, pelet və briketləşdirilmiş dəmir istehsalı müəssisələrinin yaradılması nəzərdə tutulur. Eyni zamanda alüminium istehsalının 2030-cu ilin sonuna qədər 100 min tona çatdırılması qarşıya qoyulan hədəflər sırasında yer alır. "Filizçay" yatağının istismara hazırlanması da mühüm layihələrdən biridir. Bu yataq üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanması və investisiya qərarının qəbul edilməsi qarşıdakı mərhələdə əsas məsələlərdən olacaq. Dövlət və özəl sektorun, o cümlədən xarici investorların prosesə cəlb edilməsi iri layihələrin maliyyələşdirilməsi və müasir texnologiyaların tətbiqi üçün əlavə imkanlar yarada bilər.

Müşavirədə ekoloji məsələlərin də xüsusi diqqətdə saxlanılması vurğulanıb. Belə ki, dağ-mədən sənayesinin inkişafı ilə yanaşı, meşələrin, su ehtiyatlarının və digər təbii sərvətlərin qorunması əsas prioritetlərdən biri olmalıdır. İstehsal proseslərinin müasir ekoloji standartlara uyğun qurulması, ciddi ekspertizanın aparılması və təbiətə təsirin minimuma endirilməsi sənayeləşmənin dayanıqlı xarakter daşıması baxımından vacibdir.

# Azərbaycanda dağ-mədən sənayesinin inkişafı yeni mərhələyə qədəm qoyub

**Azərbaycanda dağ-mədən sənayesinin inkişaf dinamikası son illərdə müsbət istiqamətdə dəyişib. Əvvəlki dövrlə müqayisədə bu sahədə istehsal imkanlarının genişləndirilməsi, yeni yataqların istismara cəlb edilməsi, müasir texnologiyaların tətbiqi və emal imkanlarının artırılması istiqamətində mühüm addımlar atılıb.**



Bunu AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Aydın HÜSEYNOV** bildirib.

Onun sözlərinə görə, dağ-mədən sənayesi Azərbaycanın qeyri-neft sektorunun mühüm istiqamətlərindən biri olmaqla, ölkənin iqtisadi potensialının artırılmasında xüsusi əhəmiyyət daşıyır.

"Əvvəlki illərdə əsasən xammal hasilatı ilə xarakterizə olunan sahədə hazırda əlavə dəyərin artırılması, hasil olunan resursların daha səmərəli emalı və istehsal zəncirinin genişləndirilməsi məsələlərinə diqqət artırılıb. Azərbaycan zəngin mineral-xammal ehtiyatlarına malik ölkələrdəndir. Son dövrdə dağ-mədən sənayesinə investisiyaların artırılması, istehsal proseslərinin modernləşdirilməsi və beynəlxalq standartlara uyğun texnologiyaların tətbiqi sahənin inkişafına müsbət təsir göstərir. Bu dinamika həm sənaye istehsalının artmasına, həm də yeni iş yerlərinin yaradılmasına şərait yaradır", - deyə deputat qeyd edib.

A.Hüseynov vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə mövcud mineral ehtiyatların iqtisadi dövriyyəyə cəlb edilməsi də Azərbaycanın dağ-mədən sənayesinin gələcək inkişaf perspektivlərini genişləndirir. Bu baxımdan geoloji tədqiqatların aparılması, yataqların qiymətləndirilməsi və müasir hasilat texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Deputat əlavə edib ki, qarşıdakı dövrdə əsas məqsədlərdən biri təbii sərvətlərdən səmərəli istifadə etməklə yanaşı, onların emal səviyyəsini yüksəltmək və dağ-mədən sənayesinin ölkə iqtisadiyyatında yaratdığı əlavə dəyəri artırmaq olmalıdır.

A.Hüseynov qeyd edib ki, növbəti mərhələdə əsas hədəflərdən biri təbii ehtiyatlardan səmərəli və davamlı istifadə etməklə yanaşı, onların emal səviyyəsinin artırılmasıdır. Bunun üçün innovativ texnologiyaların tətbiqi, ekoloji tələblərə əməl olunması, istehsalın enerji səmərəliliyinin yüksəldilməsi və insan kapitalının inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır: "Dağ-mədən sənayesinin inkişafında əsas məqsəd ölkənin təbii sərvətlərindən maksimum iqtisadi fayda əldə etmək, eyni zamanda gələcək nəsillər üçün dayanıqlı inkişaf prinsiplərini qorumaqdır. Bu baxımdan hasilatla yanaşı, emal sənayesinin inkişaf etdirilməsi və məhsulların rəqabətqabiliyyətliliyinin artırılması Azərbaycanın iqtisadi potensialının daha da gücləndirilməsinə xidmət edəcək".

# Təbii sərvətlərimiz işğaldan azad olunmuş ərazilərimizin dirçəlişinə töhfə verəcək

**Ədalət bərpa olunub, Azərbaycan öz problemlərini özü həll edib. 2020-ci ilin payızında 44 günlük İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini döyüş meydanında məğlub edərək Zəfər qazanıb. Böyük Zəfər Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzuru bizə qaytarıb. Bizi qalib xalq kimi qürurlandırıb.**



İşğalçı xislətindən əl çəkməyən ermənilərə son zərbə 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı ilə vurulub. Qəhrəman Azərbaycan Ordusu Qarabağ bölgəsində təxribatlar törətməkdə davam edən Ermənistan silahlı qüvvələrinin qalıqlarını və separatçıları məğlubiyyətə uğradaraq ağ bayraq qaldırmağa məcbur etdi. Müqəddəs üçrəngli, ay-ulduzlu bayrağımız Azərbaycanın bütün ərazilərində dalğalanaraq dövlətimizin suverenliyini bütün dünyaya bəyan etdi.

Ancaq tarix unudulmur. Ermənistanın ötən əsrin 80-ci illərinin sonlarından etibarən Azərbaycana qarşı ərazi iddiaları adı ilə törətdiyi cinayətlər də heç zaman yaddan çıxmayacaq.

1990-cı illərin əvvəllərində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğal edən ermənilər yüz minlərlə azərbaycanlını doğma yurdlarından didərgin saldılar. Otuz ilə yaxın əsarət altında saxladıqları o ərazilərdə daşı daş üstündə qoymadılar. Azərbaycanlıların ata-baba yurdlarında zəhmət çəkərək, böyük arzularla tikdikləri evləri qarət edərək yandırdılar. Azərbaycan xalqının dünya və ölkə əhəmiyyətli qədim abidələrinə qarşı da eyni amansızlıq göstərdilər. Həmin abidələri uçurub dağıtdılar, saxtalaşdırdılar.

Qarabağın və Şərqi Zəngəzurun əsrarəngiz təbiəti, zəngin təbii sərvətləri də erməni vandalizminə məruz qaldı. Vandallar nadir ağac növləri ilə zəngin olan meşələrimizi məhv etdilər. Qiymətli ağacları kəsib apardılar. Çinar meşələrini, Topxana meşəsini yox etdilər. Təbii su mənbələrini, bulaqları qurutdular.

Vətən müharibəsində işğaldan azad edilən Qarabağa, Şərqi Zəngəzura qədəm qoyan hər kəsi dəhşət bürüyürdü. Xarabalığa çevrilmiş kəndlər, qəsəbələr, şəhərlər, məhv edilmiş təbiət Ermənistanın qəddar işğalçılıq siyasətinin ağrılı mənzərəsinə çevrilmişdi.

Müharibədən qısa müddət sonra Azərbaycan dövləti həmin ərazilərdə geniş, sürətli tikinti-quruculuq işlərinə başladı. "Böyük qayıdış" proqramının nəticələri göz önündədir. İşğaldan qurtulmuş torpaqlarımızda həyat yenidən canlanır. Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda yalnız yaşayış məntəqələri, infrastruktur qurmur, eyni zamanda həmin ərazilərin işğalçıların yaraladığı təbiətini də sağaldır.

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirədə də sənayenin genişləndirilməsi ilə yanaşı, təbiətin qorunması və ekoloji standartların təmin edilməsi məsələləri xüsusi diqqət mərkəzində olub.

Müşavirədə çıxış edən dövlətimizin başçısı təəssüflə qeyd edib ki, Azərbaycanda dağ-mədən sənayesi həm obyektiv, həm subyektiv səbəblərə görə lazımi səviyyədə inkişaf etməyib. Obyektiv səbəblərdən danışarkən Prezident İlham Əliyev bildirib ki, sovet vaxtında aşkar edilmiş bizim bir çox yataqlarımız işğal altında olan bölgələrdə yerləşirdi və Ermənistan dövləti öz işğalçılıq siyasətini, o cümlədən Azərbaycan xalqının və dövlətinin təbii resurslarını talamaqda da davam etdirirdi: "Təkcə onu demək kifayətdir ki, işğal dövründə Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 60 min hektar meşə fondu Ermənistan dövləti tərəfindən məhv edilib, talan edilib, kəsilib, satılıb və artıq İkinci Qarabağ müharibəsindən sonra yandırılıb, o müddətdə ki, erməni silahlı qüvvələri Kəlbəcər və Laçın rayonlarından çıxmalı idi, orada onlara 2-3 həftə vaxt verilmişdi".

Azərbaycan torpaqlarını tərk etməli olan ermənilərin gedərkən santexnika cihazlarını da aparmalarını isə ironiyasız xatırlamamaq mümkünsüzdür.

Ermənistan otuz ilə yaxın davam etdirdiyi işğal müddətində zəngin təbii sərvətlərimizi də daşıyıb aparırdı. Dövlətimizin başçısının müşavirədə vurğuladığı kimi, təbii resurslarımız - qızıl, mis, molibden yataqlarımız talan edilirdi: "Təbii ki, işğal dövründə Ermənistan dövləti ancaq talançılıqla məşğul idi. Sovet vaxtında isə müəyyən dərəcədə kəşfiyyat işləri aparılmışdır. Amma o vaxt sovet hökuməti üçün bu bölgə, xüsusilə Azərbaycan bu sahə üzrə prioritet sayılmırdı. Prioritet neft sənayesi sayılırdı. Ona görə bizim bir çox yataqlarımız, yəni perspektivli yataqlarımız bu gün hələ də öz geoloji kəşfiyyat dövrünü gözləyir. Bunun, əlbəttə ki, bu tərəfi müsbətdir. Çünki bu ehtiyatlar bu gün yerin altındadır. Biz bu məsələlərin həlli üçün dövlət proqramında çox konkret mexanizmlər tətbiq edəcəyik".

"Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə bir daha göstərdi ki, işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı ilə yanaşı, həmin torpaqların zəngin təbii sərvətlərinin səmərəli istifadəsi və ətraf mühitin qorunması qarşıda duran mühüm vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri bu ərazilərin iqtisadi potensialının üzə çıxarılmasına, təbii sərvətlərdən səmərəli şəkildə istifadə edilməsinə və ekoloji tarazlığın qorunmasına xidmət edir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin oktyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 28 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 24 (Naxçıvan MR, Sədərək rayonu) 31 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)14 (Yardımlı rayonu)<br>21 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 01 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08 (Kürdəmir rayonu) 15 (Hacıqabul rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 26 (Ağcabədi rayonu) 27 (Füzuli rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 03 (Salyan rayonu) 10 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99450 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 08, 22 (Tovuz rayonu) 07, 21 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 10, 24 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 07, 21 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 07, 21 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 16, 23 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Aran Səyyad Adil oğlu** | 10 (İmişli rayonu) 17 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 13. | **Arpadarai Nigar Cavid qızı** | 14, 21 (Bakı şəhəri) | Nuru Əliyev +99450 341 7126<br>7sayli_sd@meclis.gov.az |
| 14. | **Aslanov Novruzəli Davud oğlu** | 08, 15, 22, 29 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | **Badamov Azər Camal oğlu** | 03, 17 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Kamran Fərhad oğlu** | 17 (Göygöl rayonu) 24 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | **Bayramov Vüqar İbad oğlu** | 01, 08 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | **Bədəlov Bədəl Şamil oğlu** | 03 (Goranboy rayonu) 24 (Naftalan şəhəri) | Gündüz Hacıyev +99450 364 9426<br>96sayli_sd@meclis.gov.az |
| 19. | **Bülbüloğlu Polad** | 09, 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Aydan Hüseynova +99450 777 6725<br>124sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərov Kamal Xaqani oğlu** | 15, 24 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99451 277 6000<br>68sayli_sd@meclis.gov.az |
| 21. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 06 (Gəncə şəhəri) 21 (Samux rayonu) | Sahib Əmiraslanov +99450 627 9252<br>41sayli_sd@meclis.gov.az |
| 22. | **Cəfərova Tamam Şaməmməd qızı** | 07, 21 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>Nigar Aslanova +99450 5963438<br>88sayli_sd@meclis.gov.az |
| 23. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 15 (Göyçay rayonu) 31 (Ağdaş rayonu) | Murad Abdullayev +99450 255 2013<br>92sayli_sd@meclis.gov.az |
| 24. | **Əfəndiyeva Günay Elçin qızı** | 15, 28 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99450 379 0095<br>14sayli_sd@meclis.gov.az |
| 25. | **Ələkbərov Əziz Yusif oğlu** | 10, 24 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 26. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 10, 24 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 27. | **Əliyeva Jalə Fazil qızı** | 07 (Kürdəmir rayonu) 08 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 28. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 10, 24 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Afsəddin Nəbiyev +99410 811 5447<br>27sayli_sd@meclis.gov.az |
| 29. | **Əmiraslanov Azər Kamal oğlu** | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09, 30 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>24, 31 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | **Əsədov Heydər Xanış oğlu** | 15, 22 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888<br>51sayli_sd@meclis.gov.az |
| 32. | **Əsgərov Asif Yunis oğlu** | 03, 10 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 33. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 10, 24 (Şəki şəhəri) | Turan Salamov +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | **Fətəliyeva Sevinc Həbib qızı** | 08, 22 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 35. | **Fətiyev Xanlar Nuru oğlu** | 07, 21 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 36. | **Gəncəliyev Tural Babaşah oğlu** | 06, 23 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 37. | **Hacıyev Sabir Kamal oğlu** | 08, 22 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159<br>91sayli_sd@meclis.gov.az |
| 38. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 10, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 39. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 08 (Naxçıvan MR, Naxçıvan şəhəri)<br>22 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 40. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 17, 24 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Malik Əvəz oğlu** | 10, 17 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99450 776 5522<br>71sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənov Nurlan Urfan oğlu** | 12, 19 (Şəmkir rayonu) | Anar Quluyev +99499 299 5599<br>103sayli_sd@meclis.gov.az |
| 43. | **Həsənova Afət Əbil qızı** | 14, 21 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynli Əli Məhəmməd oğlu** | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynov Aydın Nəsir oğlu** | 07, 14 (Bakı şəhəri) | Vüsal Yusifov +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Hicran Kamran qızı** | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 28 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 47. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 10, 24 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 277 0749<br>104sayli_sd@meclis.gov.az |
| 48. | **Xasayeva Səbinə Səməd qızı** | 07, 14 (Bakı şəhəri) | Gülnarə Məmmədli +99451 582 2505<br>11sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 08, 22 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimli Fəzail Feyruz oğlu** | 10, 24 (Cəlilabad rayonu) | Faiq Ağayev +99450 201 5670/<br>+99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | **İbrahimov Eldar Rza oğlu** | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 12 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Fərman Hacıyev +99460 201 2110<br>4sayli_sd@meclis.gov.az |
| 52. | **İsgəndərov Anar Camal oğlu** | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 53. | **İskəndərov Vüqar Yapon oğlu** | 03, 17 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov İmamverdi İbiş oğlu** | 05, 12 (Sumqayıt şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılov Şahin Əmir oğlu** | 28 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Beyləqan rayonu) | Çingiz Səfərov +99450 277 9536<br>83sayli_sd@meclis.gov.az |
| 56. | **İsmayılzadə Fariz Akif oğlu** | 17, 24 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7882<br>77sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimli Azər Şəmşid oğlu** | 03, 17 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 58. | **Kərimzadə Pərvin Orxan qızı** | 02, 23 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 277 0368<br>39sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 21, 28 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 60. | **Qafarov Vasif Vaqif oğlu** | 10 (Lerik rayonu) 24 (Astara rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 61. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 03 (Bakı şəhəri) 05 (Zərdab rayonu) | Anar Əliyev +99470 255 9484<br>123sayli_sd@meclis.gov.az |
| 62. | **Qədirli Erkin Toğrul oğlu** | 05, 19 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 63. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 01, 14 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Azay Əjdər oğlu** | 14, 28 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Eldar Allahyar oğlu** | 11, 25 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Musa İsa oğlu** | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>03, 17 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | **Quliyev Ülvi Zahid oğlu** | 08, 22 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 15 (Şəmkir rayonu) 22 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 03, 17 (Oğuz şəhəri) | Səxavət Kərəmov +99470 510 6968<br>117sayli_sd@meclis.gov.az |
| 70. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 03, 31 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 72. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 10, 24 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 04, 18 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 74. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 03, 24 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədli Müşfiq Fazil oğlu** | 06, 13 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 76. | **Məmmədov Anar İlyaz oğlu** | 17, 18, 24 (Tərtər rayonu)<br>25 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 77. | **Məmmədov Ceyhun Valeh oğlu** | 03 (Bakı şəhəri) 17 (Biləsuvar rayonu) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Elman Camal oğlu** | 01, 08 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 /<br>+99470 290 0335 118sayli_sd@meclis.gov.az |
| 79. | **Məmmədov Hikmət Baba oğlu** | 07, 21 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 80. | **Məmmədov İlham Kazım oğlu** | 10, 24 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 81. | **Məmmədov Qaya Məmməd oğlu** | 08, 22 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 82. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 10, 17 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 83. | **Məmmədov Soltan Teymur oğlu** | 03, 24 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446<br>12sayli_sd@meclis.gov.az |
| 84. | **Məmmədova Nigar Fikrət qızı** | 05, 15 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99451 277 0014<br>48sayli_sd@meclis.gov.az |
| 85. | **Məsimli Əli Əhməd oğlu** | 25 (Qax rayonu) 26 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 86. | **Mikayılova Sevil Əlirazı qızı** | 16, 23 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 87. | **Mirkişili Tahir Famil oğlu** | 07, 19 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 88. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 10, 24 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 89. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 09, 23 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 90. | **Mollazadə Asim Nazim oğlu** | 07, 21 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272<br>22sayli_sd@meclis.gov.az |
| 91. | **Möhbalıyev Səttar Suliddin oğlu** | 05 (Naxçıvan MR, Babək rayonu) 19 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev +99470 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | **Muradov Rövşən Şahbaz oğlu** | 05, 26 (Bakı şəhəri) | Rauf Nəcəfli +994 55 508 6055<br>124sayli_sd@meclis.gov.az |
| 93. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 08, 22 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 94. | **Musayev Elşad Nəbi oğlu** | 10, 17 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 774 9919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 10, 18 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 96. | **Mustafa Fazil Qəzənfər oğlu** | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 12, 19 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | **Nağıyev Arzu Nəsib oğlu** | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10 (Tovuz rayonu) 24 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | **Namazov Ramid Zakir oğlu** | 12, 26 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 99. | **Nəbiyev Rizvan Novruz oğlu** | 14, 28 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 100. | **Nəsirov Elman Xudam oğlu** | 08, 22 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 101. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 29 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 21 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | **Nurullayev Razi Qulaməli oğlu** | 07, 21 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | **Nurullayeva Könül Oruc qızı** | 08, 22 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | **Oruc Zahid Məhərrəm oğlu** | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09, 23 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 105. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 17, 24 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 106. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 04, 17 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 107. | **Rafailov Anatoliy Xaimoviç** | 10, 24 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926<br>60sayli_sd@meclis.gov.az |
| 108. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 07 (Naxçıvan MR, Ordubad rayonu)<br>21 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 05, 28 (Neftçala rayonu) | Fərman Hüseynov +99450 339 7415<br>70sayli_sd@meclis.gov.az |
| 110. | **Rzayev Tahir Musa oğlu** | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 15, 28, 29 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | **Salmanova Səbinə Qədir qızı** | 12, 26 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | **Seyidov Səməd İsmayıl oğlu** | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>01, 21 (Qazax rayonu) | Qədir Mehtixanlı +99470 502 3932 /<br>+99455 678 4859<br>109sayli_sd@meclis.gov.az |
| 113. | **Seyidzadə Şahin Kamil oğlu** | 08 (Şamaxı və İsmayıllı rayonları)<br>15 (Qobustan rayonu) | Elman Mikayılov +99450 600 25 50<br>87sayli_sd@meclis.gov.az |
| 114. | **Səfərov Nizami Abdulla oğlu** | 14, 28 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 115. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 08, 22 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 116. | **Süleymanlı Mahir Tahir oğlu** | 14 (Şabran rayonu) 25 (Xaçmaz rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | **Şükürov Zaur Ramiz oğlu** | 01 (Abşeron rayonu) 15 (Sumqayıt şəhəri)<br>29 (Bakı şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 08, 27 (Xaçmaz rayonu) | Teymur Mahmudov +99450 451 6102<br>57sayli_sd@meclis.gov.az |
| 119. | **Vəliyev Samir Əhməd oğlu** | 01, 15 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 120. | **Vəliyeva Mehriban Hidayət qızı** | 14, 28 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 121. | **Vəliyeva Pərvanə Bulut qızı** | 14, 28 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 122. | **Yıldırım Fatma Vidadi qızı** | 10, 17 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 123. | **Zabelin Mixail Yuryeviç** | 10, 24 (Bakı şəhəri) | Səfi Qasımov +99455 941 9898<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# İqtisadiyyat və sosial həyat

## Goranboyun kənd təsərrüfatı müəssisələrində monitorinq keçirilmişdir

**Azərbaycan Respublikası Prezidentinin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ölkədə aqrar sahənin yeni inkişaf mərhələsinə keçirilməsi, intensiv və rəqabətqabiliyyətli istehsal modelinin genişləndirilməsi, məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqinin sürətləndirilməsi və ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi kimi qarşıya mühüm vəzifələr qoymuşdur.**

Dövlət proqramında kənd təsərrüfatı məhsullarının istehsalı və emalında müasir yanaşmaların tətbiqi, resurslardan, xüsusilə su və torpaq ehtiyatlarından səmərəli istifadə, aqrar dəyər zəncirinin inkişaf etdirilməsi, istehsalçıların müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsi, emal və logistika infrastrukturunun gücləndirilməsi, eləcə də yerli istehsalın və ixrac potensialının artırılması kimi əsas istiqamətlər müəyyənləşdirilmişdir. Proqram çərçivəsində aqrar sahədə məhsuldarlığın və rəqabət qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, iqlimə davamlı və innovasiya əsaslı istehsal modelinə keçidin sürətləndirilməsi də nəzərdə tutulmuşdur.



dövlət proqramının icrası ilə əlaqədar Goranboy rayonunda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən təsərrüfatlarda monitorinqlərin keçirilməsinə başlanılmışdır. Növbəti monitorinq çərçivəsində Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Adil Vəliyev, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədarük və Təchizat ASC-nin İdarə Heyətinin sədri Elgün Məhəmmədəlizadə, eləcə də rayonda yaradılmış qərargahın üzvləri Goranboy rayonunun Muzdurlar kəndində kənd təsərrüfatı texnikalarının istehsalı ilə məşğul olan müəssisədə olmuşlar. Monitorinq zamanı müəssisənin fəaliyyəti, istehsal imkanları, mövcud maddi-texniki baza, istehsal olunan məhsulların çeşidi, texnoloji proseslər və gələcək inkişaf perspektivləri ilə bağlı ətraflı məlumat verilərək bildirilmişdir ki, müəssisədə kənd təsərrüfatında istifadə olunan müxtəlif texnika və avadanlıqlar, o cümlədən lazer mala, diskli mala, dişli mala və müxtəlif təyinatlı ferma avadanlıqları istehsal olunur. İstehsal prosesində müasir texnologiyalardan və yerli imkanlardan istifadə edilməklə kənd təsərrüfatı istehsalının texniki təminatına töhfə verilməsi məqsədilə müxtəlif növ aqrar texnikaların hazırlanması həyata keçirilir. Baxış zamanı müəssisənin istehsal gücünün artırılması, məhsul çeşidinin genişləndirilməsi, yeni texnologiyaların tətbiqi, müasir kənd təsərrüfatı texnikalarının istehsalının artırılması və rayonun aqrar təsərrüfatlarının texniki ehtiyaclarının yerli istehsal hesabına daha geniş şəkildə ödənilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. Qeyd olunmuşdur ki, kənd təsərrüfatının müasir texnika və avadanlıqlarla təmin edilməsi məhsuldarlığın yüksəldilməsi, əmək və vaxt itkilərinin azaldılması, aqrotexniki tədbirlərin optimal müddətdə həyata keçirilməsi və istehsal xərclərinin səmərələşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Monitorinq zamanı mövcud imkanlar müəyyənləşdirilərək istehsalçıların qarşılaşdıqları problemlərin operativ həlli və dövlət proqramından irəli gələn tədbirlərin yerlərdə səmərəli icrasının təmin edilməsi ətrafında müzakirələr aparılmış, kənd təsərrüfatının inkişafı, müasir istehsal və emal imkanlarının genişləndirilməsi, yerli istehsalın artırılması, aqrar sahədə çalışan sahibkarlara dəstəyin gücləndirilməsi və yeni layihələrin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın "qızıl" planı

## **Prezident İlham ƏLİYEV:** "Yeni qızıl, mis, molibden yataqları aşkarlanarsa, zənginləşdirmə və emal zənciri yaradılmalıdır"

**Azərbaycanın dağ-mədən və metallurgiya sənayesində yeni mərhələ başlayır. 2030-cu ilədək bu sahənin illik ixrac potensialının 2025-ci ilin orta dünya qiymətləri ilə hesablandıqda təxminən 2 milyard dollara çatdırılması planlaşdırılır. "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" bu hədəfə gedən yolu yeni istehsal və emal gücləri ilə cızır.**

Bu sahənin inkişafında əsas diqqət mineral resursların daha yüksəkkeyfiyyətli məhsullara çevrilməsi, emal imkanlarının genişləndirilməsi və xammaldan son məhsula qədər dəyər zəncirinin formalaşdırılmasına yönəldilir. Məsələyə bu cür yanaşma metallurgiya məhsullarının istehsalının və ixrac imkanlarının artırılması baxımından da əhəmiyyət daşıyır. Çünki dağ-mədən və metallurgiya sənayesinin inkişafı regionların iqtisadi fəallığına təsir göstərən faktordur.

Məhz bu baxımdan dağ-mədən və metallurgiya sənayesinin inkişafı üzrə Dövlət Proqramının hazırlanması sektorun gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm mərhələdir. Əslində, proqramın hazırlanması ilə bağlı qərar 2026-cı il aprelin 1-də qəbul edilib. İki gün öncə isə Prezident İlham Əliyevin sədrliyi ilə bu məsələlərə həsr olunmuş müşavirə keçirilib.

Müşavirədə aparılan müzakirələr dövlətin dağ-mədən və metallurgiya sahəsinə yanaşmasının yalnız mövcud potensialın qorunması ilə məhdudlaşmadığını göstərir. Əsas diqqət resurslardan daha səmərəli istifadə, istehsal imkanlarının genişləndirilməsi və sahənin iqtisadi inkişafdakı rolunun artırılmasına yönəlib. Ona görə də yeni dövlət proqramı qarşıdakı mərhələdə görüləcək işlərin sistemli şəkildə həyata keçirilməsi üçün əsas sənədlərdən biri kimi çıxış edir.



Prezident İlham Əliyev müşavirədə proqramın maliyyə təminatının dövlət tərəfindən artıq müəyyənləşdirildiyini vurğulayaraq, sahəyə yerli və xarici investorların cəlb olunması üçün ortaya açıq mövqe qoyub: "Bu proqramın maliyyə təminatı bəllidir, bütün müvafiq qurumlarla razılaşdırılıb və biz bu proqramı istənilən halda icra edəcəyik. Amma, eyni zamanda, əgər yerli və xarici investorlar maraq göstərsələr, müəyyən faiz səviyyəsində onların iştirakı da mümkündür. Olsa yaxşıdır, olmasa da yaxşıdır. Onsuz da biz bunu edəcəyik. Amma mən hesab edirəm ki, sahə, düzdür, maliyyətutumludur, ancaq gəlirlidir. Xüsusilə bu gün qiymətli metalların dünya bazarlarındakı qiyməti kifayət qədər yüksəkdir və yəqin ki, aşağı-yuxarı bu səviyyədə belə də qalacaq. Ona görə yerli və xarici investorlara da mesajımız budur ki, qapılar açıqdır". Dövlət başçısının bu fikirlərində əsas mesaj proqramın icrasını investorların marağından asılı vəziyyətə gətirməməkdir. Onun "qapılar açıqdır" ifadəsi isə xüsusilə yerli və xarici investorların bu sahəyə cəlb olunmasına verilən önəmi göstərir. Digər tərəfdən, qiymətli metalların dünya bazarındakı yüksək qiymətləri fonunda sektorun investisiya baxımından cəlbediciliyinə diqqət çəkilir.

Metallurgiya və dağ-mədən sənayesi bir çox şirkətin inkişafında mühüm rol oynayan sahədir. Dəmir və polad, alüminium, dəyərli metallar, minerallar və xam metal mədən sənayesini təşkil edir. Sektor dağ-mədən layihələrinin intensiv inkişafı, risklərin idarə edilməsi və yataqların kəşfi kimi müxtəlif məqsədlər üçün fond bazarlarında kapital tələb edir. Bu deyilənlərin nümunəsi kimi "AzerGold" QSC-nin fəaliyyətini göstərmək olar. Şirkət geoloji kəşfiyyatdan filiz hasilatına, emaldan qiymətli metalların satışına qədər dəyər zəncirinin müxtəlif mərhələlərini özündə birləşdirir. Son illər fəaliyyətini qızıl və gümüşlə məhdudlaşdırmayan "AzerGold" qara metal filizləri istiqamətində də layihələr həyata keçirir və "Daşkəsən Dəmir Filiz" layihəsi ilə metallurgiya sənayesinin inkişafında yerini genişləndirir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin müşavirədə şirkətlə bağlı səsləndirdiyi fikirlər də "AzerGold"un qarşıdakı mərhələdə üzərinə düşən rolun miqyasını göstərir. Söhbət mövcud yataqların istismarından, yeni qızıl, mis və molibden ehtiyatlarının müəyyənləşdirilməsindən və onların hasilatla məhdudlaşmayıb zənginləşdirmə və emal mərhələlərindən keçirilməsindən gedir: "Mən hesab edirəm ki, "AzerGold" bu yatağın 100 faiz səhmdarı olmalıdır. İstismar getdikcə təbii ki, bu yatağın qiyməti də, dəyəri də qalxacaq. Onda biz baxa bilərik. Ola bilər, müəyyən faiz səviyyəsində, - əgər maraq olarsa, mən əminəm ki, olacaq, - xarici investorlar da bu yatağa cəlb oluna bilər".

Azərbaycanda dağ-mədən və metallurgiya sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bu prosesdə nəqliyyat xərclərinin optimallaşdırılması ilə yanaşı, ekoloji tələblərin və müasir standartların qorunması da əsas şərtlərdən biri kimi müəyyənləşdirilir. "Çünki əsas sərvətimiz hətta yerin altında olan sərvətlər deyil, bizim təbiətimizdir. Ona görə həm təbiətin qorunmasını, həm ekoloji normaların ən yüksək standartlara cavab verməsini, əlbəttə ki, biz xarici tərəfdaşlardan tələb edirik və tələb edəcəyik. Əgər ona əməl etməsələr, onlar cəzalandırılacaq. Təbii ki, dövlət şirkəti olan "AzerGold" bütün ekoloji standartlara cavab verməlidir", - deyə dövlət başçısı müşavirədə vurğulayıb.

Beləliklə, qarşıdakı üç il yeni yataqların istismara cəlb edilməsi, mineral resursların emalından son məhsulun istehsalına qədər geniş və dayanıqlı dəyər zəncirinin qurulması olacaq. Dövlət proqramının icrası bu baxımdan dağ-mədən və metallurgiya sənayesinin yeni mərhələyə çıxarılması ilə yanaşı, regionların inkişafına, məşğulluğun artmasına və ölkənin sənaye-ixrac potensialının gücləndirilməsinə xidmət edə bilər.

***Züleyxa ƏLİYEVA.***
***"Azərbaycan"***

# Milli Prioritetlərə söykənən strategiya uğurla gerçəkləşir

## Bu, 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasıdır

**Azərbaycan dövləti daim öz qüdrətini daha da artırmaq, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" məhz bu məqsədlə hazırlanmışdır. Sənəd Prezident İlham Əliyevin 21 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq olunmuşdur.**

Bu strategiyanın 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacağı, onun sayəsində iqtisadi artımın tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacağı, xüsusilə prioritet sahələrdə artım templərinin sürətlənəcəyi, iqtisadiyyatın və məşğulluğun dayanıqlılığının daha da güclənəcəyi nəzərdə tutulmuşdur.

Sənəddə deyilir: "Özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yeni və daha səmərəli stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığı artacaq, qeyri-xammal ixracı genişlənəcəkdir. Qeyri-neft-qaz sektoruna, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət-özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək".

Sözügedən strategiyaya uyğun olaraq göstərilən vaxtda dövlətə məxsus hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəsinin yüksəldilməsi, iqtisadiyyatda şəffaflığın daha da artması, iqtisadi idarəetmənin keyfiyyətinin yeni səviyyəyə qalxması qarşıda duran vəzifələrdir. Bu sıraya, eləcə də, dövlət əmlakının özəlləşdirilməsi və dövlət-özəl



tərəfdaşlığının genişləndirilməsi, dövlətə məxsus olan hüquqi şəxslərin restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, burada dövlət payının azaldılması sahəsində müvafiq işlər görməsi daxildir.

Prioritetlər kimi həmçinin makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dövlət büdcəsinin dayanıqlılığının və səmərəliliyinin artırılması mexanizmlərinin təkmilləşdirilməsi müəyyənləşdirilib. Nəzərdə tutulub ki, kapital bazarının inkişaf mühitində əhəmiyyətli dəyişikliklər baş verəcək, real sektorun və sahibkarlığın maliyyə xidmətlərinə və resurslarına çıxış imkanlarının genişləndirilməsi mexanizmləri gücləndiriləcək. İnsan kapitalının davamlı inkişafı və yeni keyfiyyətə transformasiyası mühiti daha da təkmilləşəcək, milli iqtisadiyyatda innovasiyaların sürətlə mənimsənilməsi üçün zəruri ekosistem formalaşacaq, ölkənin "yaşıl enerji" məkanına çevrilməsi və ətraf mühitin sağlamlaşması prosesləri sürətlənəcək.

Eləcə də innovasiyaların təşviq ediləcəyi, müasir texnoloji həllərin tətbiqinin genişləndiriləcəyi, bu zəmində iqtisadiyyatın effektivlik əsasında inkişafı və rəqabətədavamlılığının təmin olunacağı bildirilib. Əhalinin sosial müdafiəsinin, xüsusilə həssas təbəqələrin sosial təminatının gücləndiriləcəyi, pensiya sistemində mühüm keyfiyyət dəyişikliyi baş verəcəyi qeyd olunub.

"Nəhayət, ölkənin sosial-iqtisadi inkişafında tarixi dönüş dövrü və yeni strateji mərhələ olan işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdış təmin ediləcəkdir", - deyə sənəddə bu məsələ də xüsusi vurğulanıb.

Məlum olduğu kimi, sənətin icra vəziyyəti iqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən rəqəmsal portallar vasitəsilə izlənilir.

Bu yaxınlarda "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyat üzrə hədəflərə nail olunması məqsədilə yaradılmış "İqtisadi artım" üzrə işçi qrupun növbəti iclası keçirilib. İclasda strategiya üzrə nəzərdə tutulan tədbirlərin icra vəziyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.İşçi qrupun sədri, iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli strategiya üzrə həyata keçirilən tədbirlərin ölkəmizdə dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi inkişafın təmin olunmasında əhəmiyyətini vurğulayıb. İşçi qrupunun fəaliyyət istiqamətləri üzrə tədbirlərin icra vəziyyəti, həmçinin İqtisadiyyat Nazirliyinin əsas icraçı olduğu tədbirlər çərçivəsində görülmüş işlər barədə məlumat verib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Təranə Salıfova strategiyanın icrasının yekun mərhələsinə yaxınlaşması fonunda 2026-cı il üzrə hədəflərə nail olunmasının, icrası davam edən tədbirlərin sürətləndirilməsinin və nəticə indikatorları üzrə nəzərdə tutulan göstəricilərin təmin edilməsinin əhəmiyyətini vurğulayıb.

İİTKM-in Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Orxan sadıqov Strategiyanın monitorinq və qiymətləndirilməsi çərçivəsində 2026-cı ilin 6 ayı ərzində görülmüş işlər və qarşıda duran fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Daha sonra strategiyada nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı görüləcək işlər ətrafında fikir mübadiləsi aparılıb, növbəti addımlar müəyyənləşdirilib.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin tam, vaxtında və effektiv icrasının təmin edilməsi, həmçinin aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə 8 işçi qrupu fəaliyyət göstərir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Yeni dövlət proqramı yerinə yetirilir

## Heyvandarlar fəallıq göstərirlər

**Ağcabədi rayonunun Təzəkənd kəndində fermer Əbülfət Əsgərovun heyvandarlıq təsərrüfatına baxış keçirilib.**

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) sədri Sərdar Hacıyev, Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Abbas Süleymanov, rayon icra hakimiyyətinin və aidiyyəti qurumların nümayəndələri, eləcə də digər şəxslər baxışda iştirak ediblər.

Fermer təsərrüfatında saxlanılan iri və xırdabuynuzlu heyvanların saxlanma, bəslənmə və yemlənmə şəraiti ilə tanış olunub. Təsərrüfatın fəaliyyəti, heyvandarlığın inkişafı və məhsuldarlığın artırılması ilə bağlı fermerlə fikir mübadiləsi aparılıb.

Görüş zamanı heyvandarlıq sahəsində tətbiq olunan subsidiya mexanizmləri və yeni qərarlar barədə fermerə ətraflı məlumat verilib. Süd məhsuluna görə subsidiyaların ödənilməsi, ətlik heyvanlarla bağlı subsidiya imkanları və digər məsələlər izah olunub.

Həmçinin heyvanların sağlamlığının qorunması məqsədilə həyata keçirilən profilaktik peyvəndləmə tədbirlərinin əhəmiyyəti diqqətə çatdırılıb və təsərrüfatın daha səmərəli təşkili ilə bağlı müvafiq tövsiyələr verilib.

Görüşdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın əsas prioritet istiqamətləri barədə də söhbət aparılıb. Qeyd olunub ki, heyvandarlığın inkişafı, fermerlərin istehsal imkanlarının genişləndirilməsi və müasir təsərrüfatçılıq metodlarının tətbiqi istiqamətində həyata keçirilən tədbirlər kənd təsərrüfatının davamlı inkişafına xidmət edir.



### Tarlalar ağ örpəyə bürünüb

2026-cı təsərrüfat ilində pambıq yığımının başlanmasına start verilib.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) sədri Sərdar Hacıyev, Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Abbas Süleymanov, Ağcabədi Rayon İcra Hakimiyyətinin və aidiyyəti qurumların nümayəndələri, "Azərpambıq ASK" MMC-nin Ağcabədi filialının direktor əvəzi Ərşad Ağayev və digər şəxslər məhsul yığımının gedişi ilə tanış olublar.

Qonaqlar Ağcabədi şəhəri ərazisində "Azərpambıq ASK" MMC ilə müqavilə əsasında fəaliyyət göstərən fermer Famil Quliyevin pambıq sahəsində işgüzar söhbət ediblər. Burada pambıq bitkisində defolyasiya məqsədilə aparılan dərmanlama tədbirləri ilə tanış olunub, həmçinin digər sahədə pambığın maşınla yığımının gedişi izlənilib.

Fermer təsərrüfatında görülən işlər, məhsuldarlığın artırılması, pambıq yığımının vaxtında və itkisiz həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, mövcud vəziyyət müzakirə olunub və müvafiq tövsiyyələr verilib.

Qeyd olunub ki, pambıqçılığın inkişafı, məhsuldarlığın yüksəldilməsi və fermerlərin fəaliyyət imkanlarının genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər aqrar sahənin inkişafına mühüm töhfə verir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Tarixi saxtalaşdıranlar

# Alban irsinin dəyişdirilməsi cəhdləri məkrli erməni siyasətinin tərkib hissəsidir

**II hissə**

**Şörəyeldə Qıpçaq kilsəsi**
*(Şörəyel, Qıpçaq kəndi, VII əsr)*



Şörəyel və Loruda ilk xristian məbədləri hunəsilli xristian din xadimləri tərəfindən inşa edilmişdir. Hamamlıda Qazax bazilikası kimi tanınan Alban-Hun (Qıpçaq) məbədi V əsrdə Hun boylarının bir qolu olan Qazax tayfasına mənsub olan din xadimləri tərəfindən inşa edilmişdir. Hamamlının başlıca xristian dini abidələri içərisində IV əsrdə inşa edilmiş Müqəddəs Xaç kilsəsi, VII-XIII əsrlərə aid Əştərək abidələri (Əştərək kəndi), VII əsrdə Manas və Qriqori adlı qıpçaq keşişləri tərəfindən inşa edilən Karmvravor kilsəsi, VII əsrə aid Aruç kilsəsi, Ovanavəng kəndində V əsrə aid kilsə, Abaran şəhərində V əsrə aid Qazax bazilikası, Aşnak kəndində V əsrə aid kilsəni qeyd etmək olar. Bu abidələrin əksəriyyətində sonradan bərpa işləri adı ilə erməni xaç daşları yerləşdirilmiş və üzərindəki yazılı kitabələri dağıdılmışdır. Cənubi Qafqazın erkən xristian abidələrini tədqiq etmiş A.L.Yakobson qeyd edir ki, "Qafqaz Albaniyasının monumental erkən Orta əsr memarlığı Ermənistan ərazisində üstün mövqeyə malik olmuşdur". Abaran şəhərində olan Müqəddəs Xaç kilsəsi 1877-ci ildə bərpa bəhanəsi ilə ciddi dəyişikliyə məruz qalaraq, kitabəsi dağıdılmışdır. Loru və Dərəçiçək yaylaqlarında türk boylarına aid xeyli sayda at heykəlləri vardır. Bu torpaqlardan yerli türk boylarının izini birdəfəlik silmək məqsədilə ermənilər hazırda planlı şəkildə bu abidələri məhv etməklə məşğuldurlar.

*(Əvvəli qəzetin 23 sentyabr tarixli nömrəsində)*

Göyçə mahalının qədim mənbələrdə rast gəlinən adlarından biri olan Gegarkuni hidronimi qədim türkcədə Gögarku (Göy arx) sözü ilə izah olunur, mənası "Göy arx, çuxur" deməkdir. Göyçə ərazisində alban xristian məbədləri içərisində IX-X əsrlərə aid Qızılvəng (Qızılvəng kəndi), Qamışlı (Qamışlı/Qanlı/Qanlı Allahverdi kəndi), Daşkənd (Daşkənd kəndi), Kiçik Məzrə (Bala Məzrə kəndi), Əyrivəng (Əyrivəng kəndi), Xutavəng (Yuxarı Adıyaman kəndi) və Şoqakavəng (Çoraqyu kəndi) kilsələrini qeyd etmək olar.

Zəngibasar ərazisində xristian Hun boylarına və albanlara aid xaç daşları məhv edilmiş və yazılı kitabələr məhv edilmişdir. Erməni qriqoryan kilsəsinin saxtakarlıqları burada digər yerlərə nisbətən özünü daha açıq-aydın büruzə verməkdədir. Zəngibasarın alban xristian abidələri içərisində VII əsrə aid kilsəni (Şahab kəndi), X-XIII əsrlərə aid Avucdar monastırını, X-XIII əsrlərə aid kilsə və qalanı (Ursazor kəndi), XIII əsrdə inşa edilmiş Ağca monastırını (Gilanlar kəndi yaxınlığı) xüsusilə qeyd etmək olar.

Sərdarabad mahalında dağıdılmış alban dini abidələri içərisində V əsrə aid bazilikanı və VII əsrə aid Mavi Mələklər məbədini qeyd etmək olar. Qərbi Azərbaycanın bir çox yerində olduğu kimi, Sərdarabad ərazisində də "erməni dini məbədləri" kimi qələmə verilən xristianlığaqədərki dini ibadətgahlar alban əhalisinin dini dünyagörüşünü əks etdirir. XX əsrin əvvəllərində erməni tarixçisi N. Adons albanların hərbi, dini, siyasi həyatı ilə bağlı geniş məlumata malik olmadığını etiraf edirdi.

**Zəngəzurda Qızılkilsə məbədi**
*(Qarakilsə rayonu, Comərdli və Ərəfsə kəndləri, V əsr)*



Etibarlı mənbələrdə Zəngəzurun xristian abidələrinin ermənilərə aid olması haqqında məlumata rast gəlinmir. Ermənilər bu abidələrin bir hissəsinin üzərində ciddi dəyişikliklər edərək qriqoryan kilsələrinə çevirmiş, qalanlarını isə tamamilə dağıtmışlar. Məlum olduğu kimi, alban hökmdarı III Mömin Vaçaqan xristianlığı təbliğ etmək məqsədilə geniş inşaat tədbirləri həyata keçirmişdir. VII əsrdə Qarabağda Uti vilayətində yaşamış tarixçi Musa Kalankatlı "alban tarixi" əsərində III Mömin Vaçaqanın "ildə olan günlərin sayı qədər çoxlu kilsə tikdirməsi" haqqında məlumat vermişdir. Comərdli və Ərəfsə kəndləri yaxınlığında yerli əhalinin Qızılkilsə adlandırdığı və ziyarət etdiyi bu Alban məbədinin hazırda yalnız xarabalıqları qalıb. Bu abidə ermənilər tərəfindən iki dəfə ciddi dağıntıya məruz qalmışdır. 1918-ci ilin iyulunda daşnak Andranikin öz quldur dəstəsi ilə bu kənddə törətdiyi kütləvi qırğınlar nəticəsində Qızılkilsə məbədi yerli əhalinin inanc yerlərindən biri olduğu üçün dağıdılıb xarabalığa çevrilmişdir. Hazırda Qərbi Azərbaycan ərazisində Ermənistan hakimiyyəti və erməni qriqoryan kilsəsi tərəfindən tarixi abidələrimizə qarşı kultursid siyasəti davam etməkdədir.

Beləliklə, məlum olur ki, Qərbi Azərbaycan ərazisində ilk xristian abidələri Hun və Alban boylarına aiddir. Bu abidələrin əksəriyyəti Ermənistanın kultursid siyasətinin əsas hədəflərindən biri olaraq məhv edilmişdir. Qərbi Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş maddi-mədəniyyət nümunələri və bu ərazinin qədim tarixi haqqında məlumat verən yazılı mənbələr Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış albanların, utilərin və türk boylarının avtoxton mənşəli etnoslar olduğunu, erməni toplumunun isə gəlmə və yadelli etnik ünsür olduğunu təsdiq edir. Qərbi Azərbaycan ərazisi müasir dövrdə Ermənistan respublikası adlandırılsa da, onun qədim tarixi irsinin özlərini hay adlandıran müasir erməni xalqına heç bir aidiyyəti yoxdur.

***Ramin ƏLİZADƏ,***
***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi***

# Alban və Ərdəbil irsi Azərbaycana qaytarılmalıdır:

## *Matenadaran və Moskva arxivlərində əsir qalan tariximiz*

**XIX əsrin birinci rübündə Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı nəticəsində Azərbaycanın siyasi və sosial-mədəni sistemi zorakı şəkildə dağıdılmağa başlandı. Bu proses Azərbaycanın dövlətçilik və mədəniyyət yaddaşının sistemli şəkildə təcrid olunması ilə müşayiət olundu. Ərazilərin hərbi-inzibati ilhaqı ilə yanaşı, xalqın tarixi varisliyini və mədəni dəyərlərini təsbit edən yazılı korpus - kitabxanalar, dövlət sənədləri və unikal əlyazma fondları da hədəfə alındı. Beləliklə, torpaqların işğalı qiymətli əlyazmaların institusional müsadirəsi və tarixi yaddaşın yadlaşdırılması layihəsi ilə tamamlandı.**

Bu proses Azərbaycan tarixinin yalnız müsəlman-türk dövrü ilə məhdudlaşmırdı. Hədəf bütövlükdə Azərbaycanın islamaqədərki çoxəsrlik irsini, xüsusilə Qafqaz Albaniyasının zəngin yazılı və dini-siyasi irsini əhatə edirdi. 1836-cı ildə çar I Nikolayın fərmanı ilə müstəqil Alban Həvari Kilsəsinin ləğv edilərək Eçmiədzin erməni katolikosluğunun tabeliyinə verilməsi nəticəsində Qafqaz Albaniyasının yüzilliklər boyu formalaşmış kitabxanaları, fərmanları, qədim alban dilindəki ilkin mətnləri və sinod arxivləri Eçmiədzinə daşındı. Bu akt alban irsinin qəsdən qriqoriyanlaşdırılmasına, əlyazmaların təhrif və ya məhv edilməsinə, nəticədə isə Azərbaycan xalqının qədim xristian dövrü mədəni və tarixi varisliyinin silinməsinə yol açdı.

Digər tərəfdən, oxşar mədəni soyğunçuluq müsəlman-türk irsinə qarşı da tətbiq edildi. 1828-ci ildə Şeyx Səfiəddin türbəsində yerləşən zəngin Ərdəbil kitabxanası rus qoşunları tərəfindən qarət olunaraq ən nadir əlyazmaları və xəzinələri ilə birlikdə Sankt-Peterburqa daşındı.

Bu əlyazmaların, arxivlərin və nadir kitab fondlarının müsadirə edilərək Azərbaycandan çıxarılması son dərəcə dağıdıcı ideoloji nəticələrə yol açdı. Əldə edilən sənədlər və ilkin mənbələr təhrif olunaraq süni və saxta erməni tarixşünaslığının qurulması üçün zəminə çevrildi, alban kilsəsinin zəngin xristian irsi saxtalaşdırılaraq erməniləşdirildi. Eyni zamanda yerli yazılı qaynaqların sistemli şəkildə yox edilməsi imperialist maraqlara xidmət edən saxta konseptlərin - xüsusilə azərbaycanlıları öz tarixi torpaqlarında gəlmə kimi qələmə verən zərərli "Altay nəzəriyyəsi"nin - rəsmi tarix kimi təqdim edilməsinə şərait yaratdı. Nəticədə, xalqımızın minilliklərə dayanan avtoxton kökləri arxa plana atılaraq, zəngin tarixi yaddaşımız təhrif olunmuş şəkildə saxtalaşdırıldı.

Təəssüf ki, Azərbaycanın xristian tarixi-mədəni dəyərlərinə qarşı yeridilən bu mənəvi soyqırımı siyasəti, rus işğalından sonra türk-müsəlman dövrü irsimizdən və onun ən zəngin xəzinələrindən biri olan Ərdəbildəki Şeyx Səfiəddin kitabxanasından da yan keçmədi. Müsadirə edilərək Rusiyaya daşınan bu fond eyni məqsədyönlü siyasətin tərkib hissəsi idi.

Hələ XIX əsrin əvvəllərində rus şərqşünasları Azərbaycan kitabxanalarında olduqca nadir və qiymətli əlyazmaların qorunduğundan xəbərdar idilər və bu xəzinənin ələ keçirilməsinə xüsusi maraq göstərirdilər. Tədqiqatçı İ.K.Yenikolopov "Qriboyedovun həyatı" adlı əsərində qeyd edir ki, 1827-ci ildə şərqşünas Senkovski Rusiya ordusunun baş qərargah rəisi qraf Dibiçə "İran kitabxanalarında saxlanılan nadir Şərq əlyazmalarının əldə edilməsi haqqında" xüsusi layihə təqdim etmişdi. Qraf Dibiç isə bu layihəni Qafqazın baş komandanı Paskeviçə göndərərək məsələni diqqətdə saxlamağı, göstərilən əlyazmaların axtarılıb tapılmasını və qiymətli əsərlərin yerinin müəyyənləşdirilməsini birbaşa A.S.Qriboyedova tapşırmağı xahiş etmişdi.

Bu işə böyük əhəmiyyət verən Qriboyedov uzun axtarışdan sonra istəyinə nail oldu. Şeyx Səfi məqbərəsində qiymətli əlyazmaların saxlandığını bilən Qriboyedov nə cür olur-olsun bu xəzinənin ələ keçirilməsinə çalışırdı. Bu dövrdə Rusiya və Qacarlar arasında müharibə davam edirdi. Ərdəbili işğal etmək və orada olan kitabxananı ələ keçirmək Qarabağda olan xüsusi qoşun dəstəsinə həvalə olunmuşdu. Bu dəstəyə general Suxotelin başçılıq edirdi.

1828-ci il yanvarın 25-də general Suxotelin Ərdəbilə daxil oldu və Şeyx Səfi məqbərəsində olan ən qiymətli əlyazmaları qənimət kimi müsadirə etdi. Fevralın əvvəllərində ələ keçirilən əlyazmalar iki piyada alayının mühafizəsi altında furqonlarda Tiflisə göndərildi. Peterburq Kitabxanasına göndərilməzdən əvvəl Tiflisdə əlyazmaların siyahısı tərtib edildi.

Bu kitablar o dövrdə Peterburq İmperator İctimai Kitabxanasına (indiki M.E.Saltıkov-Şedrin adına Rusiya Milli Kitabxanasına) verilmişdi.

Rusiyaya aparılan kitabların dəqiq sayı məlum olmasa da, tədqiqatçılar bu kitabların ən azı 114 cilddən ibarət olduğu qənaətindədirlər. Ərdəbildə qalan kitablar isə 1935-ci ildə (80 sandıq kitab) Tehrana aparılmışdır. Bu kitablar bu gün Tehranda "Muzeyi-İran-Bastan"da saxlanılır.

Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arxivində (BOA) saxlanan və XVIII əsrdə tərtib olunmuş bir sənəddə Ərdəbil kitabxanasında 744 cilddən ibarət kitabın siyahısı verilmişdir. Bu kitablar içərisində Quran və təfsir (582 cild), dini elmlər (6 cild), tarix (27 cild), ədəbiyyat və divan (20 cild), maliyyə-təsərrüfat kitabları (91 cild), ümumi əsərlər (18 cild) yer alır.

1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra Rusiya Milli Kitabxanasında saxlanılan bu kitabların bəzilərinin mikrofilminin İrana verilməsi haqqında razılıq əldə olunmuşdur.

Həqiqi tarixi keçmişimizin, etnomədəni kimliyimizin və suveren elmi narrativlərimizin bərpası bu gün həm Rusiya Federasiyası, həm də beynəlxalq elmi təşkilatlar (xüsusilə UNESCO, Beynəlxalq Arxivlər Şurası kimi qurumlar) qarşısında hüquqi, diplomatik və akademik müstəvidə prinsipial tələblərin irəli sürülməsini zəruri edir. Bu kontekstdə, İrəvandakı Mesrop Maştots adına Qədim Əlyazmalar İnstitutunda (Matenadaran) saxlanılan və qriqoryanlaşdırma yolu ilə mənimsənilmiş Qafqaz Albaniyasına məxsus yazılı abidələrə, eləcə də Rusiya Milli Kitabxanasının qapalı xüsusi fondlarında saxlanılan Ərdəbil Şeyx Səfiəddin xəzinəsinin əlyazma irsinə azərbaycanlı tədqiqatçıların maneəsiz çıxışı təmin olunmalı və bu əsərlərin Azərbaycana gətirilməsi istiqamətində ciddi tədbirlər görülməlidir.

Azərbaycanın minilliklərə dayanan tarixi varisliyinin elmi əsaslarla təkzibolunmaz şəkildə sübuta yetirilməsi, imperialist və revanşist mərkəzlər tərəfindən uydurulmuş konseptlərin aradan qaldırılması məhz uzun illərdir əsir saxlanılan bu fundamental ilkin mənbələrin dərindən araşdırılmasından və qlobal elmi dövriyyəyə inteqrasiyasından birbaşa asılıdır.

***Mübariz AĞALARLI,***
***AMEA-nın Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, dosent***

# Bakıda Anım Gününə həsr edilən ağacəkmə aksiyası keçirilib

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə 27 Sentyabr - Anım Gününə həsr edilən ağacəkmə aksiyası təşkil edilib.**





Paytaxtın Qaradağ rayonunda, Salyan şosesi boyunca keçirilən aksiyada Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, əməkdaşları və struktur bölmələrinin işçiləri, RİİB-in könüllüləri iştirak ediblər.

İştirakçılar tərəfindən aksiyanın keçirildiyi ərazi yararsız tullantılardan təmizlənərək Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 yeni ağac əkilib.

Ağacəkmə aksiyası Bakı şəhərində quraqlığa davamlı bitkilərin, yerli iqlimə uyğun ağac və kolların əkilməsi, həmçinin paytaxtda ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Qeyd edək ki, əkilən ağaclara gələcəkdə qulluq göstərilməsi üçün suvarma məsələləri həll edilib, bu işə cavabdehlər müəyyənləşdirilib. Mövsüm ərzində Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin davam etdirilməsi nəzərdə tutulub.

*"Azərbaycan"*

# Heç kim unudulmur

**27 Sentyabr Anım Gününün altıncı ildönümünün qeyd olunması ilə bağlı Tərtər Rayon İcra Hakimiyyətinin Tədbirlər Planına uyğun olaraq, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Hüsənli kəndindən olan Vətən müharibəsi şəhidi Hüseynov Eşqin Cəsarət oğlunun ailəsini ziyarət edib, onların qayğıları ilə maraqlanıb.**



Görüş zamanı Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov vurğulayıb ki, şəhid ailələrinə, qazilərə və veteranlara göstərilən hərtərəfli diqqət və qayğı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin əsas prioritetidir. Qeyd edib ki, dövlət başçısının tapşırığına əsasən, bu həssas təbəqədən olan insanların sosial problemlərinin operativ həlli bütün dövlət qurumlarının qarşısında duran ən başlıca vəzifələrdəndir.

İcra başçısı bildirib ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəman övladlarımızın əziz xatirəsi Tərtərdə hər zaman uca tutulur. Şəhidlərimizin əmanəti olan ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların məşğulluq və digər sosial məsələlərinin həlli rayon icra hakimiyyəti tərəfindən hər zaman xüsusi diqqətdə saxlanılır.

Qeyd edək ki, Hüseynov Eşqin Cəsarət oğlu 20 yanvar 1998-ci ildə Tərtər rayonunun Hüsənli kəndində anadan olub. O, 44 günlük Vətən müharibəsində Suqovuşan kəndi istiqamətində gedən ağır döyüşlərdə rəşadət göstərərək 29 sentyabr 2020-ci il tarixdə - 22 yaşında şəhidlik zirvəsinə ucalıb və doğulduğu Hüsənli kəndində torpağa tapşırılıb.

Eşqin Hüseynov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildiriblər.

***Lazım QULİYEV,***
*"Azərbaycan"*

# Naftalanda Anım Günü ilə əlaqədar tədbir keçirilmişdir

**Naftalanda 27 Sentyabr-Anım Günü ilə əlaqədar "Zəfərə gedən yolun başlanğıcı" adlı tədbir keçirilib.**




Şəhər icra hakimiyyəti əməkdaşlarının, YAP Naftalan şəhər təşkilatının, Şəhər Ağsaqqallar Şurası üzvlərinin, şəhid ailələrinin, tibb və təhsil müəssisələri kollektivlərinin iştirakı ilə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, vətənimizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən, bu Qələbənin əldə olunmasında şəhidlərimizin və qazilərimizin şücaətindən danışıblar. Qeyd olunub ki, 27 Sentyabr Azərbaycan xalqının qəhrəmanlıq, milli həmrəylik və Zəfər yolunun başlanğıcı kimi tariximizə həkk olunub. Şəhidlərimizin əziz xatirəsinin hər bir azərbaycanlının qəlbində əbədi yaşayacağını, onların qəhrəmanlığının və Vətən sevgisinin gələcək nəsillərə çatdırılmasının mühüm əhəmiyyət daşıdığını qeyd edən natiqlər dövlət tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən yüksək diqqət və qayğıdan da danışıblar.

Sonda məktəblilərin hazırladıqları vətənpərvərlik mövzusunda şeirlər, kompozisiyalar və səhnəciklər nümayiş etdirilib.

***Sabir ƏLİYEV,***
*"Azərbaycan"*

# Qazaxda şəhidlərin xatirəsi ehtiramla anılıb

**Qazaxda 27 Sentyabr – Anım Gününə həsr olunmuş "Can verənlər, can qurtaranlar - Şəhidlər unudulmur!" adlı tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, Qazax Rayon İcra Hakimiyyəti və "Qazax Rayon Mərkəzi Xəstəxanası" PHŞ-nin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə rayon rəhbərliyi, səhiyyə işçiləri, şəhid ailələri və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə xəstəxananın qarşısında Vətən müharibəsi şəhidi, tibb xidməti leytenantı Adil Əfəndiyevin adını daşıyan bulaq kompleksi önünə gül dəstələri düzülüb, şəhidin xatirəsi ehtiramla anılıb.

Tədbirdə Dövlət himni səsləndirilib, şəhidlərin və Ümummilli Lider Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad olunub, Anım Gününə dair videoçarx nümayiş etdirilib.

PHŞ-nin direktoru Afiq Fərruxov çıxışında Vətən müharibəsi zamanı xəstəxananın döyüş rejimində fəaliyyət göstərdiyini, tibb işçilərinin həm ön, həm də arxa cəbhədə yaralılara tibbi yardım göstərdiyini bildirib. Qeyd olunub ki, müharibə zamanı xəstəxanada yüzlərlə yaralıya tibbi xidmət göstərilib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən danışıb. Bildirib ki, şəhidlərin xatirəsi daim ehtiramla anılır, qazilərə və şəhid ailələrinə göstərilən diqqət və qayğı davam etdirilir. İcra başçısı müharibə zamanı tibb işçilərinin yaralı hərbçilərin müalicəsində böyük fədakarlıq göstərdiyini qeyd edib.

Tədbirdə 44 günlük Vətən müharibəsində könüllü həkim kimi fəaliyyət göstərmiş Vasif Məmmədov və Həsən Məmmədov müharibə günlərində yaşadıqları hadisələr və yaralı hərbçilərə göstərilən tibbi yardımla bağlı xatirələrini bölüşüblər.

Şəhid Adil Əfəndiyevin atası Qədir Əfəndiyev şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Çıxış zamanı PHŞ-də müharibə iştirakçıları ilə iş üzrə mütəxəssis Gülən Muradova görülən işlər barədə məlumat verib. Bildirilib ki, indiyədək 1077 qaziyə və 955 şəhid ailəsinə stasionar və ev şəraitində tibbi xidmət göstərilib.




# "Formula-1": Bakıda yubiley həyəcanı



**Bu gün Bakıda sürət, həyəcan və adrenalin yenidən bir araya gəlir. Paytaxtımız "Formula-1" Qatar Airways Azərbaycan Qran-prisinin onuncu - yubiley yarışına evsahibliyi edir. Sentyabrın 24-dən 26-dək davam edəcək yarış həftəsonu Azərbaycan paytaxtını növbəti dəfə dünyanın əsas avtoidman mərkəzlərindən birinə çevirəcək. Bu gün saat 12:30-da keçiriləcək ilk sərbəst yürüşlə "Formula-1" bolidləri Bakı Şəhər Halqasına çıxacaq. İkinci sərbəst yürüş saat 16:00-da başlayacaq. Sabah pilotları üçüncü sərbəst yürüş və sıralanma turu, sentyabrın 26-da isə əsas mübarizə gözləyir. Ənənədən fərqli olaraq, builki Azərbaycan Qran-prisinin əsas yarışı bazar günü deyil, şənbə günü saat 15:00-da keçiriləcək.**

Builki yarış Bakı üçün xüsusi əhəmiyyət daşıyır. Düz on il əvvəl, 2016-cı ildə "Formula-1" bolidləri ilk dəfə paytaxtımızın küçələrində mübarizəyə qoşulmuşdu. Həmin yarış Avropa Qran-prisi adı altında keçirildi. 2017-ci ildən etibarən isə Bakı mərhələsi Azərbaycan Qran-prisi adını aldı və qısa müddətdə "Formula-1" təqviminin özünəməxsus yarışlarından birinə çevrildi. 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən yarış keçirilmədiyindən, 2026-cı il Bakı Şəhər Halqasında "Formula 1"in onuncu yarışı oldu.

Bakı Şəhər Halqasının uzunluğu 6,003 kilometrdir. Pilotlar əsas yarışda 51 dövrə vuraraq 306,049 kilometr məsafə qət edəcəklər. Şəhər trasının özünəməxsusluğu ondadır ki, burada tamamilə fərqli xarakterli hissələr bir-birini əvəz edir. Xəzər sahili boyunca uzanan yüksəksürətli hissələrdən sonra pilotlar İçərişəhərin dar küçələrinə daxil olurlar. Tarixi qala divarlarının ətrafından keçən hissədə baryerlər bolidlərə olduqca yaxın yerləşir və ən kiçik səhv belə yarışın taleyini dəyişə bilər. Məhz bu xüsusiyyətlərinə görə Bakı Şəhər Halqası həm pilotların ustalığını, həm də komandaların texniki hazırlığını ciddi sınağa çəkir.

Bakı komandaların bolid sazlaması baxımından da mürəkkəb seçim qarşısında qaldığı traslardan biridir. Uzun düzlüklərdə maksimal sürət əldə etmək üçün aerodinamik müqaviməti azaltmaq lazımdır. İçərişəhərin dar və texniki döngələrində isə əksinə, bolidin asfaltla təmasını gücləndirən daha yüksək aerodinamik yüklənməyə ehtiyac yaranır. Bu iki tələbin optimal balansını tapmaq mühəndislərin əsas vəzifələrindən biridir. Üstəlik, şəhər traslarında təhlükəsizlik zonalarının məhdud olması və baryerlərin yaxınlığı sürücülərin səhv etmək imkanını minimuma endirir.

Bakı Şəhər Halqasının qısa tarixində kifayət qədər dramatik yarışlar da yaşanıb. Xüsusilə 2017-ci il Azərbaycan Qran-prisi "Formula-1" tarixinin yaddaqalan yarışlarından biri olub. Həmin gün yarış ərzində 42 ötmə qeydə alınmışdı. Təhlükəsizlik avtomobilinin arxasında Lyuis Hemiltonla Sebastyan Fettel arasında baş verən insident də uzun müddət müzakirə olunmuşdu. Onuncu yerdən start götürən Daniel Rikkardo isə yarışın sonunda qələbə qazanmışdı. Sonrakı illərdə də dəfələrlə göstərildi ki, start mövqeyi yekun nəticəyə təminat vermir. Təhlükəsizlik avtomobili, təkər strategiyası, qəza və texniki nasazlıq bir neçə dəqiqə ərzində bütün qüvvələr nisbətini dəyişə bilir.

Ötən il də Bakı gözlənilməz hadisələrdən kənarda qalmadı. Maks Ferstappen 2025-ci il Azərbaycan Qran-prisində poul mövqeyindən start götürərək bütün 51 dövrəni lider tamamladı və qələbə qazandı. Corc Rassell ikinci, Karlos Sayns isə üçüncü oldu. Kimi Antonelli isə sıralanma turunu dördüncü pillədə başa vurduğu kimi, yarışı da dördüncü yerdə tamamladı. İndi italiyalı pilot Bakıya tamam başqa statusda - dünya çempionatının lideri kimi qayıdıb.

2026-cı il mövsümünün ilk 14 Qran-prisindən səkkizində qalib gələn Antonelli hazırda çempionluq mübarizəsinin əsas fiqurudur. Mercedes pilotu sonuncu - Madrid mərhələsində də finiş xəttini birinci keçib. Bununla da o, komanda yoldaşı Corc Rassellə xal fərqini 81-ə çatdırıb. Bakıda Antonellinin çıxışı buna görə xüsusilə izlənəcək. Diqqət mərkəzində olacaq pilotlardan biri də Maks Ferstappendir. Niderlandlı sürücü 2022 və 2025-ci illərdə Bakıda qələbə qazanıb. Azərbaycan Qran-prisində iki qələbəsi olan digər pilot Serxio Peresdir. Ferstappen bu il yenidən qalib gəlsə, Bakı yarışında üç qələbəyə çatan ilk pilot olacaq. Ferrari pilotu Şarl Lekler də Bakı Şəhər Halqasında sürətli bir dövrə vurmaq bacarığını dəfələrlə nümayiş etdirib. Bu səbəbdən sıralanma turu da yarış həftəsonunun ən maraqlı hissələrindən biri olmağa namizəddir.

Yubiley Qran-prisinin əhəmiyyəti yalnız tras üzərindəki mübarizə ilə məhdudlaşmır. On il ərzində Bakıda "Formula-1" yarışlarının təşkili böyük təcrübə məktəbinə çevrilib. Yarış həftəsində təxminən 2 min könüllünün təşkilati proseslərə qoşulması nəzərdə tutulur. Bakı Şəhər Halqasının məlumatına görə, 2016-cı ildə könüllü proqramına təxminən 7 min namizəd qeydiyyatdan keçmişdisə, 2026-cı ildə müraciətlərin sayı rekord həddə - 49 minə çatıb. Ötən on ildə isə ümumilikdə 20 mindən çox könüllü Bakı yarışlarının təşkilində iştirak edib.

Marşal proqramının inkişafı da Azərbaycan Qran-prisinin onillik tarixinin mühüm nəticələrindən biridir. Son on ildə marşal olmaq üçün 35 mindən çox müraciət daxil olub. 2017-ci ildə müraciət edənlərin sayı 2379 nəfər olduğu halda, 2026-cı ildə bu rəqəm 4201 nəfərə yüksəlib. Yubiley yarışında 40 post üzrə təxminən 1100 marşalın çalışması nəzərdə tutulur. Bundan başqa, 40 ölkədən 110 beynəlxalq marşal yarışın təşkilinə cəlb ediləcək. Əgər ilk Bakı yarışında marşal heyətinin əhəmiyyətli hissəsi xaricdən gəlirdisə, sonrakı illərdə yerli mütəxəssislərin sayı sürətlə artıb. Bu gün azərbaycanlı marşallar artıq başqa ölkələrdə keçirilən beynəlxalq yarışlarda da təcrübələrini bölüşürlər. 2022-ci ildə isə Bakı yarışındakı postlardan birinin tamamilə qadın marşallardan təşkil edilməsi "Formula-1" tarixində ilk belə nümunə kimi qeydə alınıb.

Azarkeş marağının artması Bakı Şəhər Halqasının infrastrukturunda da özünü göstərir. Son üç ildə dörd yeni tribunanın quraşdırılması nəticəsində tamaşaçı yerlərinin sayı 6 mindən çox artırılıb. Bu il yeni "City" tribunasının istifadəyə verilməsi ilə tribunaların ümumi tutumu 21 min nəfəri keçib. Ötən il yarış həftəsonu ərzində Bakı Şəhər Halqasına 90 mindən çox tamaşaçı gəlmişdi. Yubiley yarışı ərəfəsində müşahidə edilən maraq "Formula-1"in artıq Bakının beynəlxalq tədbirlər təqvimində sabit yer tutduğunu göstərir.

"Formula-1" həftəsi həmçinin Bakıya xarici azarkeşlərin, media nümayəndələrinin və avtoidman mütəxəssislərinin axınını artırır, mehmanxana, ictimai iaşə, nəqliyyat, ticarət və digər xidmət sahələrində əlavə fəallıq yaradır. Televiziya yayımları və rəqəmsal platformalar vasitəsilə İçərişəhər, Xəzər sahili və Bakının müasir memarlığı yarış görüntüləri ilə birlikdə dünyanın müxtəlif ölkələrində milyonlarla tamaşaçıya təqdim olunur. Beləliklə, Qran-pri idman hadisəsi olmaqla yanaşı, Bakının beynəlxalq tanıtımı üçün də geniş platformaya çevrilib.

2026-cı ildə yubiley Qran-prisinin keçirilməsi Bakının Dünya İdman Paytaxtı olduğu ilə təsadüf edir. On il əvvəl Azərbaycan üçün tamamilə yeni olan böyükmiqyaslı avtoidman layihəsi bu müddətdə həm təşkilati təcrübənin, həm yerli mütəxəssis bazasının, həm də könüllü və marşal hərəkatının inkişafına imkan yaradıb. Bu gün isə bütün diqqətlər yenidən Bakı Şəhər Halqasına yönələcək və "Formula-1" tarixinin paytaxtımızdakı onuncu səhifəsi yazılmağa başlayacaq.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

## Azərbaycan Qran-prisi dünyanın 56 telekanalında canlı yayımlanacaq



Bu il "Formula-1" Azərbaycan Qran-prisi 56 telekanal vasitəsilə canlı yayımlanacaq. Bu barədə Bakı Şəhər Halqasından bildirilib. Yarışın yayımını "Sky Sports", ESPN, "beIN Sports", DAZN, TSN, "Canal+", "Apple TV" və digər telekanallar həyata keçirəcək.

Azərbaycanda isə yayım hüququ "İdman Azərbaycan" telekanalına məxsusdur.

## Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi "Formula-1"ə görə sürücülərə müraciət edib

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi "2026 "Formula-1" Azərbaycan Qran-prisi ilə əlaqədar sürücülərə müraciət edib. Müraciətdə deyilir: "2026 "Formula-1" Azərbaycan Qran-prisi ilə əlaqədar bəzi küçə və prospektlərdə hərəkətin məhdudlaşdırıldığını nəzərə alaraq, xüsusilə paytaxtın cənub qapısında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat sıxlığının qarşısının alınması məqsədilə sürücülərdən xahiş olunur ki, cənubdan mərkəzə doğru, yəni "Azneft" və "Neftçilər" dairəsinə alternativ kimi Bakı-Salyan yolunun 14-cü kilometrliyindən Lökbatan dairəsi istiqamətində üçüncü kənar dairəvi yolla "20 Yanvar" və ya Yeni Yasamal ərazisindən keçməklə hərəkət etsinlər.

Eyni zamanda 20-ci sahə, Bayıl qəsəbəsində yaşayanların qəsəbənin daxili yolları ilə Qurban Abbasov küçəsindən keçməklə Teymur Elçin, Mehdi Hüseyn və Lermontov küçələri ilə mərkəzə doğru hərəkət etmələri tövsiyə olunur".

Bununla yanaşı, yol hərəkəti iştirakçılarından yarışın keçirildiyi müddət ərzində fərdi minik avtomobillərindən mümkün qədər az istifadə etmələri, şəhərin mərkəzi hissəsinə yalnız ictimai nəqliyyat vasitələri ilə hərəkət etmələri xahiş olunur.

## Bakı Bulvarında "Formula-1" tamaşaçıları üçün əyləncə zonası yaradılıb

**Bakıda keçirilən Azərbaycan Qran-prisi yalnız trekdəki sürət və mübarizə ilə məhdudlaşmır. Bu il də "Formula-1" yarış həyəcanını trekdən kənara daşıyacaq.**



Azarkeşləri konsertlər, pilotlarla görüşlər, interaktiv əyləncələr və zəngin proqram gözləyir. Bütün bunlar ölkənin əsas idman hadisələrindən birinin ab-havasını daha da rəngarəng edəcək.

Ənənəyə uyğun olaraq, Bakı Bulvarında yenə də Əyləncə zonası fəaliyyət göstərəcək. Bulvarın müxtəlif hissələrində qonaqları rəngarəng əyləncələr, interaktiv fəaliyyətlər və bütün ailə üçün maraqlı proqram gözləyir.

"Formula-1" dünyasına daha yaxından bələd olmaq istəyənlər Fan-zonada yerləşən yarış simulyatorunda özlərini sınaya biləcəklər. F1 yarış simulyatoru iştirakçılara virtual bolidin sükanı arxasına keçərək günün ən sürətli dövrəsi uğrunda mübarizə aparmaq imkanı verəcək.

F1 Pit-Stop yarışı zamanı isə iştirakçılar iki-üç nəfərlik komandalar şəklində pitstop bacarıqlarını sınayacaqlar. Bolidin təkərlərini ən qısa zamanda dəyişən komandalar final mərhələsində yarışacaqlar. Hər iki fəaliyyətin qaliblərini isə imzalı suvenirlər və paddokda turlar gözləyir.

Digər əyləncə məkanlarında isə "Formula-1"ə fərqli rakursdan nəzər salmaq mümkün olacaq. Azarkeşlər "Formula-1"in nümayiş bolidini və FIA "Formula-1" dünya çempionatının kubokunu görə biləcəklər.

F1 pilotu ilə selfi (F1 Driver Selfie) fəaliyyətində isə qonaqların virtual şəkildə "Formula-1" pilotları və komanda rəhbərləri ilə foto çəkdirmək imkanı olacaq. F1 DJ podiumu isə Qran-prinin ən rəngarəng anlarından biri olan mükafatlandırma mərasiminin ab-havasını canlandıracaq.

Əyləncə proqramı yalnız "Formula-1" mövzusu ilə məhdudlaşmayacaq. Fan-zonada ziyarətçilər üçün müxtəlif idman və əyləncə fəaliyyətləri də təşkil olunacaq. Onlardan biri olan "Ninja Çağırışı"nda iştirakçılar dırmanma divarları, balans və kəndir elementlərindən ibarət maneələr zolağını keçərək çeviklik, güc və koordinasiyalarını sınayacaq. Hündürlükdən adrenalini yaşamaq istəyənlər üçün isə Fan-zonada tros vasitəsilə sürətli eniş üçün ziplayn qurulacaq.

Qran-prinin ən kiçik qonaqları üçün də xüsusi proqram hazırlanıb. Uşaq Qran-prisində uşaqlar mini elektrik avtomobillərinin sükanı arxasına keçərək təhlükəsizlik tələblərinə uyğun hazırlanmış xüsusi trekdə yarışa biləcəklər. Uşaq zonasında isə onları tematik akvaqrim və yaradıcılıq üzrə master-klaslar gözləyir. Həmçinin aktiv istirahət üçün müxtəlif batutlar, o cümlədən dəbilqə formasında batut qalası da quraşdırılacaq.

"Formula-1" azarkeşləri üçün əsas tədbirlərdən biri də pilotlarla görüşlər olacaq. Fan-forumlar çərçivəsində pilotlar və komandaların nümayəndələri əsas səhnəyə çıxaraq azarkeşlərin suallarını cavablandıracaq, çempionatın trekdən kənar həyatına dair maraqlı məqamları bölüşəcəklər. Qran-pridən əvvəl pilotların təqdimatı keçiriləcək.

Gün ərzində Qran-pri ərazisində müxtəlif səyyar şoular da nümayiş etdiriləcək. Proqrama milli rəqslər, "Amarok" qrupunun zərb alətləri şousu, Güzgülü rəqqaslar (Mirror Dancers), Güzgülü yarış şousu (Mirror Racing Show), Uçan insanlar (Flying People) və xanımlardan ibarət zərb alətləri şousu (Drum Girls) daxildir.

Fan-zonanın səhnəsində DJ Pancho, Maya Aziz, Nicolas Mun, Nazreen, Tim və Vugarixx, həmçinin Excellent Band və Mardan Band çıxış edəcəklər.

Trekdəki tədbirlər başa çatdıqdan sonra əyləncə proqramı Bakı Kristal Zalında davam edəcək. Cümə axşamı səhnəyə Kalvin Harris, cümə isə Keti Perri çıxacaq. Beləliklə, Qran-prinin ab-havası yarış trekindən kənarda da davam edəcək.

## BEYNƏLXALQ HƏYAT

## ABŞ-də Süni İntellekt Nazirliyi yaradılır

**ABŞ senatoru Berni Sanders və Nümayəndələr Palatasının demokrat üzvü Qreq Kasar süni intellekt üzərində gələcək işləri tənzimləməyə yönəlmiş qanun layihəsi təqdim ediblər. Bu barədə "Associated Press" (AP) agentliyi xəbər verir.**




Bildirildiyinə görə, qanun layihəsi Süni İntellekt Nazirliyinin yaradılmasını və "süni superintellekt"in yaradılmasının qadağan edilməsini nəzərdə tutur.

Qanunu nəzərdən keçirən agentliyin məlumatına əsasən, sənəddə həmçinin "yeni idarə - Süni İntellekt Nazirliyi - federal səviyyədə təhlükəsizlik qaydalarını müəyyən edənə qədər ən qabaqcıl süni intellekt sistemlərinin inkişafına fasilə verilməsi" tələb olunur.

AP qeyd edir ki, süni intellekt sahəsində aparıcı şirkətlərin bir çox işçisi təşəbbüsü dəstəkləyib.

B.Sanders agentliyə verdiyi müsahibədə bildirib: "Yavaşlayın!" demək üçün dahi olmaq lazım deyil. Həqiqətən də insanlardan daha ağıllı olmaqla insan nəzarətindən asılı olmayaraq, fəaliyyət göstərə bilən superintellekti inkişaf etdirmək istəyirikmi?"

Son həftələrdə ABŞ texnologiyanın bəşəriyyət üçün təhlükə yaratmamasını təmin etmək üçün süni intellektin daha da inkişafını yavaşlatmaq ideyasını fəal şəkildə müzakirə edir. Bu sahədə çalışan böyük Amerika şirkətlərinin rəhbərləri belə tədbirlərin lehinə çıxış ediblər. Prezident Donald Tramp da öz növbəsində süni intellektdən təhlükə hesab etmədiyini bildirib.

Şənbə günü o, bu sahənin gələcək inkişafı ilə bağlı qərarların qəbul edilməsində iştirak etmək üçün xüsusi bir qurum - "süni intellekt qüvvələri" yaratmaq niyyətində olduğunu açıqlayıb.

## "Dördlük qrupu" BMT TŞ-də təcili islahatların aparılmasına çağırıb

**Yaponiya Xarici İşlər Nazirliyinin yaydığı birgə bəyanata görə, Braziliya, Yaponiya, Hindistan və Almaniyanın xarici işlər nazirləri BMT Təhlükəsizlik Şurasında təcili islahatların aparılmasına çağırıblar, çünki onlar hesab edirlər ki, bu qurum hazırda öz vəzifələrini yerinə yetirə bilmir.**



Bəyanatda vurğulanır ki, "G4 nazirləri BMT Təhlükəsizlik Şurasının hazırda beynəlxalq sülhün və təhlükəsizliyin qorunması kimi əsas məsuliyyətini effektiv şəkildə yerinə yetirə bilmədiyini qeyd ediblər. G4 nazirləri BMT Təhlükəsizlik Şurasında islahatların mümkün qədər tez həyata keçirilməsinin vacibliyini vurğulayıblar".

G4 xarici işlər nazirlərinin fikrincə, BMT Təhlükəsizlik Şurasının təmsilçiliyi, legitimliyi, səlahiyyəti və effektivliyi hazırda sual altındadır. Onlar səbəb kimi Şuranın geosiyasi reallıqları əks etdirməyən köhnəlmiş strukturunu göstəriblər.

"Dördlük qrupu" həm daimi, həm də qeyri-daimi üzvlərin sayının artırılmasını mümkün islahatların mərkəzi aspekti kimi qeyd edib.

Braziliya, Yaponiya, Hindistan və Almaniyanı əhatə edən "Dördlük qrupu"nun əsas məqsədi BMT Təhlükəsizlik Şurasında islahat aparmaq və orada daimi yerlər təmin etməkdir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*



## Bu gün hava əsasən yağmursuz keçəcək

**Ölkə ərazisində bu günə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 20-23° isti, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 70-80 faiz, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam Quba-Qusar bölgəsinin bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22° isti, gündüz 30-35° isti, dağlarda gecə 12-17° isti, gündüz 21-26° isti olacaq.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3314
Sifariş 1230

Qiyməti 60 qəpik